ADIGÖZƏL MƏMMƏDOV

# BÖYÜK AZƏRBAYCAN NAMİNƏ ƏZİZ ƏLİYEV

Bakı - 2025

Elmi redaktor: **İsmayıl Məmmədov,**
*tarix elmləri doktoru, professor*

Mətn redaktoru: **Nazim Xıdırov,**
*filologiya üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Fəxrəddin Meydanlı**

Nəşriyyat redaktoru: **Ş.S.Sərkaroğlu Budad**

***Adıgözəl Məmmədov***
***Böyük Azərbaycan naminə. Əziz Əliyev.***

***Bakı, «İmza» nəşrlər evi, 2025, 184 səh.***

*Kitab Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, diplomat, tibb elmləri doktoru, professor, Azərbaycanın Əməkdar həkimi, ölkəsinin və xalqının vətənpərvər övladı Əziz Əliyevin həyat və fəaliyyətinə həsr olunub. Bu tədqiqat əsəri tariximizin bir çox gizli və qaranlıq səhifələrinə işıq salır. Kitabda arxiv sənədlərinə əsaslanaraq, Əziz Əliyevin Cənubi Azərbaycanda və Dağıstanda işlədiyi illər fərqli rakursdan işıqlandırılır, oxuculara o dövrün hadisələrinə yeni baxış bucağı təqdim edilir. Kitab geniş oxucu auditoriyasına ünvanlanmışdır.*

***İSBN:* 978-9952-37-329-5**

***© A.Məmmədov, 2025***

Bu kitabı Azərbaycan xalqının böyük oğlu, görkəmli partiya və dövlət xadimi, diplomat, tibb elmləri doktoru, professor, Azərbaycanın əməkdar həkimi, unudulmaz ziyalımız Əziz Məmmədkərim oğlu Əliyevin əziz xatirəsinə ithaf edirəm.



**Müəllif**

# GİRİŞ

Əziz Məmmədkərim oğlu Əliyev 1 yanvar 1897-ci il tarixində (köhnə təqvimlə 20 dekabr 1896-cı il) Rusiya imperiyasının İrəvan quberniyasının Aleksandropol qəzasında, Hamamlı kəndində, tacir ailəsində anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayı Qurbanəli oğlu, anası məşhur İrəvan taciri İbrahim bəy Süleymanbəyovun qızı Zəhra xanım idi. 8 yaşlı Əziz Əliyev rus-tatar məktəbinə daxil olmuş və burada ibtidai təhsil almışdır. 1908-ci ildə İrəvan şəhərindəki gimnaziyaya daxil olan Əziz 9 il burada təhsil almış, 1917-ci ildə gimnaziyanı bütün fənlər üzrə əla qiymətlərlə bitirmişdir.

Əziz Əliyev 1917-ci ildə İrəvan gimnaziyasını qızıl medalla bitirərək, təhsilini Peterburq Hərbi Tibb Akademiyasında davam etdirmək istəyir. Peterburq Hərbi Tibb Akademiyasında təhsil pullu idi. Ailənin üzərinə düşən bu maddi yükü azaltmaq üçün gənc Əziz məktubla Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə müraciət etmək qərarına gəlir. H.Z.Tağıyev ali təhsil almaq üçün maddi sıxıntı çəkən gənc Əzizə dəstək verir və imperiyanın paytaxt universitetində təhsil almasında ona kömək edir. Beləliklə, Əziz həmin dönəmlər üçün böyük və dəyərli hesab edilən 300 rubl kömək alır. Elə həmin il o, Sankt-Peterburqda o dövrün görkəmli alimlərinin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçərək Rusiyanın ən nüfuzlu ali məktəblərindən biri sayılan Hərbi Tibb Akademiyasına qəbil edilir.

Əziz Əliyev birinci kursun əvvəllərindən boş vaxtlarında Sankt-Peterburqda səpkili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasına işə düzəlir. Aldığı məvacib ilə özünün minimal güzəra-

nını təmin etməklə yanaşı, həm də valideynlərinə yardım edir. O, 1918-ci ilin yay tətilində İrəvana gəlir və daşnak ermənilərі tərəfindən var-dövləti əlindən alınmış ailəsinə kömək etmək üçün Peterburqda təhsilini yarımçıq qoyub, Vətənə qayıtmağa məcbur olur.

Gənc Əziz 1920-ci ildə İrəvandan olan Hacı Cabbar Abbasovun qızı Leyli xanımla ailə həyatı qurur. 1920-ci ilin iyulunda, ermənilərin Şahtaxtı kəndini işğal etməsi səbəbindən ailəsi ilə birgə İranın Ərəblər (indiki Poldəşt) kəndinə köçür. Ə.Əliyev bir müddət oradakı tibb məntəqəsində həkim köməkçisi vəzifəsində çalışmışdır. Çox çəkmir ki, xəstə düşən atası Məmmədkərim Kərbəlayı Qurbanəli oğlu İranın Podkax kəndində vəfat edir. Az sonra anası Zəhra İbrahim qızı Süleymanbəyova da İranın Ərəblər kəndində dünyasını dəyişir...

Əziz Əliyev 1921-ci ilin iyununda həyat yoldaşı Leyli xanımla birlikdə Şahtaxtı kəndinə qayıtmışdır. Bir neçə ay sonra burada 3 oktyabr 1921-ci il tarixində böyük oğlu Tamerlan anadan olmuşdur. Ümumiyyətlə, onun **Tamerlan** *(3 oktyabr 1921-ci il, Şahtaxtı kəndi, Naxçıvan – 7 aprel 1997, Bakı şəhəri),* **Zərifə (***28 aprel 1923-cü il, Şahtaxtı, Naxçıvan – 15 aprel 1985-ci il, Moskva şəhəri),* **Gülarə** *(17 noyabr 1933-cü il, Bakı şəhəri – 27 iyul 1991, Bakı şəhəri) və* **Cəmil** *(30 mart 1946, Bakı şəhəri) adlı övladları olmuşdur...*

1923-cü ilin mayında Əziz Əliyev iş axtarışında olaraq ailəsi ilə birlikdə Naxçıvandan Bakıya gəlmiş və orada Azərbaycan SSR Xalq Komissarları Sovetində işə düzəlmişdir. O, eyni zamanda Azərbaycan Universitetinin tibb fakültəsinin axşam şöbəsində yarımçıq qalmış təhsilini davam etdirmiş və 1927-ci ildə oranı bitirmişdir. Universiteti bitirdikdən sonra "Daxili xəstəliklər" kafedrasında saxlanılan Əziz Əliyev əvvəl ordinator, az sonra isə assis-

tent və dosent kimi fəaliyyət göstərmişdir. 14 aprel 1926-cı il tarixində Beynəlxalq İnqilab Mübarizlərinə Yardım Təşkilatının I qurultayında Azərbaycan Mərkəzi Komitəsinə üzv seçilmişdir. 1 sentyabr 1927-ci ildən 1929-cu ilin dekabrına qədər Tibb İnstitutunda Diaqnostika kafedrasının ordinatoru olmuşdur. 22 oktyabr 1928-ci ildən Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri vəzifəsində çalışmağa başlamışdır.

1929-cu ilin 21 iyulundan 1930-cu ilin 28 dekabrına qədər Əziz Əliyev Xalq səhiyyə komissarının müavini və eyni zamanda Klinik İnstitutun direktoru vəzifəsində işləmişdir. Sonralar Bakı Şəhər Soveti Aparatının ümumi şöbəsinin müdiri, Tibb İnstitutunun direktoru, daha sonra isə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifələrində çalışmışdır.

Respublikanın iri elmi institutlarına və ali məktəblərinə rəhbərlik edən Əziz Əliyev özünü hər yerdə bacarıqlı və perspektivli alim, müəllim, səhiyyə təşkilatçısı kimi göstərmişdir. Bu illər ərzində o, 20-dən çox elmi məqalə yazmış və onların əksəriyyətini müxtəlif tibb jurnallarında dərc etdirmişdir.

Əziz Əliyev 1929-cu ildə namizədlik, 1934-cü ildə isə tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Onun dissertasiya işi az sonralar dəyərli elmi iş kimi SSRİ Elmlər Akademiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülmüşdür *(13 may 1941-ci il tarixində, Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində çalışarkən SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü olan Ə.Əliyev 1956-cı ildə professor vəzifəsinə seçilmiş, həmin ildə də onun professor elmi adı təsdiq edilmişdir).*

19 iyun 1930-cu il tarixində Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılmışdır. Bu institutun yaradılmasında Əziz Əliyev də böyük rol oynamışdır. 1932-ci ildə o, həmin institutun direktoru işləmişdir. 1933-cü ildə "Azərbaycan tibb jurnalı"nın redaktoru olmuşdur.

30 mart 1934-cü ildə paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədilə Ə.Əliyev Bakı şəhər Səhiyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. 14 yanvar 1935-ci il tarixində Azərbaycanda yüksək ixtisaslı milli tibb kadrlarının hazırlığını gücləndirmək məqsədilə o, yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru vəzifəsinə qaytarılmışdır. Bu təyinatdan az sonra onun rəhbərliyi altında həlli vacib sayılan bütün məsələlər üçün geniş tədbirlər planı hazırlanmışdır. Ə.Əliyev azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirmiş, həmin dönəmlərdə ana dilində dərsliklər və dərs vəsaitləri, monoqrafiyalar və tövsiyələr yazılmasına nail olmuşdur. 1932–1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi ilə əməkdaşlar tərəfindən Azərbaycan dilində latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib olunaraq tibb təhsili alan tələbələrin ixtiyarına verilmişdir. Bu, həmin dövrün texniki imkanları üçün çox böyük göstərici idi.

Onun təşəbbüsü ilə işıq üzü görən əsərlərdən özünün "Klinik analizlər" kitabı, K.Ə.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", C.Hüseynovun "Pataloji anatomiya", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəyovanın "Göz xəstəlikləri", Ə.Talışınskinin "Travmatologiya", Q.Səfərov və Ə.Həsənovun "Bioloji kimya" və digər dərsliklər, eləcə də M.A. Mirqasımovun, M.A.Topçubaşovun, M.M.Mirsəlimovun,

M.A.Əfəndiyevin, Z.M.Məmmədovun və başqalarının çap olunan əsərləri Azərbaycanın tibb tarixində ən qiymətli nəşrlərdəndir. Bu kitablar bu gün də öz dəyərini saxlamaqdadır.

Ə.Əliyev həm də qısa müddətdə başqa dillərdə alternativi olmayan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcümə edilməsinə nail olmuşdur. Onun təşəbbüsü ilə İ.Berberinin "Boğaz, burun, qulaq xəstəlikləri", A.Qaltiçinin "Uşaq xəstəlikləri", V.Skvortsovun "Farmakologiya kursu", E.Freyzeldin "Histologiya" adlı kitabları və digər müəlliflərin dərslikləri də Azərbaycan dilinə tərcümə edilmişdir. Ümumiyyətlə, 1930–1945-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun əməkdaşları tərəfindən 80 adda dərslik və dərs vəsaiti nəşr olunmuşdur ki, bunların da 55-i Əziz Əliyevin instituta rəhbərlik etdiyi 5 il ərzindəki yaradıcı və məhsuldar dövrdə baş vermişdir.

Bütün fəaliyyəti dövründə tibb nəşriyyatı yaratmağın, onu təkmilləşdirərək inkişaf etdirməyin yolları haqqında düşünən Ə.Əliyev bu sahədəki ideyalarını tədricən həyata keçirmişdir. O, institut kollektivinin köməyi ilə "Tibb nəşriyyatı" yaratmışdır. Onun təşəbbüsü ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri əsaslı surətdə təkmilləşdirilmişdir. 1933-cü ildə o, jurnalın baş redaktoru təyin edilmişdir. Həmin ildə onun təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapı qaydaya düşmüşdür. Hazırda bu qəzet "Təbib" adı ilə Azərbaycan Tibb Universitetində çap olunmaqdadır.

Əziz Əliyev 1934–1937-ci illərdə Azərbaycan K(b)P MK-nın üzvü olmuşdur. 1 fevral 1936-cı ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Yuxarıda qeyd etdiyim kimi, 1937-ci ildə isə onun "Eksperimental nefrit" adlı elmi işi SSRİ Elmlər Akademiyası və Ümumit-

tifaq Komsomolu Mərkəzi Komitəsinin mükafatına layiq görülmüşdür. O, 1937-ci ilin 1 yanvarından 1937-ci ilin 26 iyununa qədər Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işləmişdir. Naxçıvan MSSR-in Culfa dairəsindən SSRİ Ali Sovetinin deputatı (dekabr 1937) və birinci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. 21 iyul 1938-ci il tarixindən 17 may 1940-cı ilə qədər Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsində işləmişdir. 9 sentyabr 1939-cu il tarixindən 1941-ci ilin martınadək Azərbaycan Respublikasının Xalq Səhiyyə Komissarı vəzifəsində çalışan Əziz Əliyev 1941-ci ilin aprelindən 1942-ci ilin sentyabrına qədər Azərbaycan KP MK-nın üçüncü katibi vəzifəsində işləmişdir.

Ümumiyyətlə, keçən əsrin 40-cı illəri elə dövr idi ki, artıq bu zamandan başlayaraq, Azərbaycanın rəhbər elitasında, xüsusilə, siyasi cəhətdən yetkin gənclərə daha çox üstünlük verilirdi. Məhz o illərdə, Böyük Azərbaycan layihəsinin əsası qoyulmuş və 1941-ci ildə Əziz Əliyevin başçılıq etdiyi azərbaycanlılardan ibarət böyük bir qrup İrana getmişdir. Hərbi Şuranın qərarı və Zaqafqaziya ordusu komandanının əmri ilə sentyabrın 16-da polkovnik-komissar Əziz Əliyev Təbrizə daxil olan 47-ci ordunun Hərbi Şurasının üzvü seçilmişdir. Əlbəttə, bu təyinatda Azərbaycan rəhbəri M.C.Bağırovun da rolu danılmazdır. Müəyyən vaxtdan sonra Əziz Əliyevin qrupundan informasiya alan M.C.Bağırov da öz növbəsində 1941-ci ilin sonlarına qədər Cənubi Azərbaycandakı vəziyyət barəsində Stalinə məlumat vermişdir.

O dövrdə fars dilini bilən azərbaycanlı kadrlarımız olduqca az idi. Ona görə də bəzi tərcümələr cox təhrif olunurdu və bunun da çox ciddi fəsadlarını Əziz Əliyev öz üzərində yaşamışdır. Əziz Əliyevin yerli xalqla görüşü

bir qayda olaraq Azərbaycan dilində aparılırdı, Moskvaya göndəriləcək hesabatlar isə daha çox İranda diplomatik korpusda çalışan ermənilər tərəfindən rus dilində hazırlanırdı. Bu da bir çox hallarda tərcümə təhriflərinə gətirib çıxarırdı. Bu faktor M.C.Bağırovu hər dəfə Moskva qarşısında əlavə izahatlar verməyə və tərcümə xətalarının nəticəsi kimi anlaşılmazlığın olduğunu göstərməyə məcbur edirdi. Burada həm də qərəz vardı, ona görə də Əziz Əliyev və SSRİ-nin İrandakı səfiri Andrey Smirnov arasında həm bu məsələ, həm də digər vacib məsələlərlə bağlı ciddi fikir ayrılıqları yaranırdı. Bu ziddiyyət Əziz Əliyevin sovet qarnizonunun rəhbərliyinə məktub yazılmasından sonra daha da kəskinləşmişdi. Həmin məktubda yerli əhalidən, yəni azərbaycanlılardan silahların yığılmasını dayandırmağı tələb edilirdi. A.Smirnov buna görə Moskvaya məktub yazır və Ə.Əliyevi millətçi kimi xarakterizə edir.

24 oktyabr 1941-ci ildə Əziz Əliyev M.Bağırova "Cənubi Azərbaycan haqqında hesabat"ında yazırdı: *"Məktəblərdə dərslər fars dilində aparılır, yerli azərbaycanlılar türk dilində təhsil almaq istəyirlər, buna görə də "Vətən yolunda" qəzetinin buraxılması azərbaycanlılarda böyük sevinc doğurmuşdur".*

Ona görə də Əziz Əliyev Təbrizə Bakıdan gəlmiş Azərbaycan ziyalılarından bir qismini "Vətən yolunda" qəzetini çıxarmağa cəlb edir, bir qismini milli məktəblərin yaradırmasına qoşur, bir qrup azərbaycanlıları isə fars dilini mükəmməl öyrənmək üçün Moskvaya diplomatik kurslara yollayır *(Moskvaya gedən bu qrupun içində mənim digər kitabımın qəhrəmanı Bağır Seyidzadə də var idi (Bax: A.Məmmədov.* ***"Böyük Azərbaycan naminə. Bağır Seyidzadə"*** *kitabı).*

Bu hadisələr müharibənin ən qızğın günlərində baş verirdi. Sovet rəhbərliyi İngiltərə və ABŞ tərəfindən 2-ci cəbhənin açılmasını planlaşdırırdı. Buna görə də sovet rəh-

bərliyi İrandakı fəaliyyətini bir qədər zəiflətməyə məcbur oldu. Amma sovet qoşunları hələ də İranda qalırdı. Bu aktivliyin azaldılması səbəbi ilə Bakıya qayıdan Əziz Əliyev tezliklə Dağıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilir. Bu təyinatın səbəbləri barədə o dövrdə Mərkəzi komitənin Katibi olmuş Mirhəsən Seyidov belə qeyd edirdi *("Tam məxfi – Mirhəsən Seyidov, Xatirələr". Əlyazma):*

*"Qohumum, həkim Əliyev Əziz Məmmədkərim oğlunun ailəsi bizim kimi 1918-ci ilin mart hadisələri zamanı erməni daşnaklarının türklərə qarşı törətdikləri qırğınlardan qaçaraq İrəvan şəhərini tərk etmişdilər. Ailəsi Naxçıvan vasitəsilə Bakıya köçmüşdür. Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirdikdən sonra həkim, sonra isə Respublika Xalq Komissarları Sovetinin aparatında işləmişdir. 1930-cu illərdə M.C.Bağırov Azərbaycan KP MK-nın birinci katibi olandan sonra Əziz Əliyev Tibb İnstitutunun rektoru, Xalq Səhiyyə Komissarı, MİK Rəyasət Heyətinin katibi seçilmişdir. Sonra Bağırovun təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katiblərindən biri seçilmişdir. Böyük Vətən Müharibəsi başlayan kimi Əziz Əliyev Azərbaycanın digər məsul işçiləri ilə birlikdə sovet qoşunlarının tərkibində Cənubi Azərbaycana göndərilmişdir. 1942-ci ildə Krım tatarlarının deportasiyası məsələsindən sonra (**Qeyd:** Rəsmi olaraq Krım tatarlarının deportasiya olunmaları barədə 2 aprel 1944-cü il tarixində qərar qəbul edilib. Amma görünür, artıq 1942-ci ildə Krım tatarlarının deportasiya olunmaları ilə əlaqəli Dövlət Müdafiə Şurasında gizli bir qərar olubmuş. Onu da qeyd edim ki, Dövlət Müdafiə Şurasının bir çox gizli qərarları bu günə qədər "məxfi" qrifi ilə qorunur və ya təlimata uyğun olaraq qısa bir müddət sonra məhv edilirdi. Hər halda Beriyaya yaxınlığı ilə seçilən M.C.Bağırov hələ 1942-ci ildə belə bir gizli qərarın olması barədə Azərbaycan*

*Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibləri arasında müzakirə aparmışdır. Mərkəzi Komitənin katibi kimi bu hadisə Mirhəsən Seyidovun yaddaşında məhz 1942-ci il kimi qalmışdır. Rəsmiyyətdə isə 1944-cü ilin may ayının 10-dan başlayaraq işğaldan azad olunmuş Krım yarımadasından Krım tatarlarının deportasiyasına start verilmişdir. Beriya Stalinə yazırdı ki, Krım işğalda olanda orada Türkiyə emissarları "Tatar Milli Komitəsi" adlı agentura şəbəkəsi yaratmış və onlar intensiv şəkildə almanlar tərəfindən istifadə olunmuşdur. Amma şübhəsiz ki, bu, bəhanə idi. Çünki onların deportasiyası barədə qərar hələ 2 il öncədən verilmişdi. Ancaq rəsmiyyətdə bunu əsas götürərək Dövlət Müdafiə Komitəsi Krım tatarlarının Özbəkistan SSR-ə köçürülməsi haqqında 1944-cü il aprelin 2-də qərar qəbul etmişdir. Köçürmə əməliyyatı 1944-cü il mayın 20-dən iyunun 1-nə qədər davam etmişdir. – A.M.) müharibənin qızğın vaxtında Moskvada müəyyən qüvvələr Qafqaz xalqlarının Orta Asiyaya köçürülmə məsələsini SSRİ Dövlət Müdafiə Şurası qarşısında qaldırmağa hazırlaşırdılar və ilk seçim Dağıstan xalqlarının üzərinə düşürdü. Dağıstanın rəhbərləri M.C.Bağırovun onlara qarşı xoş münasibətini yaxşı bilirdilər. Buna görə də tələsik bir qrup ağsaqqal Bakıya Bağırovla görüşə gəldilər. Onlar Bağırovdan xahiş etdilər ki, o, Dağıstan xalqlarının başına gələ biləcək bu dəhşətli faciənin qarşısını alsın. Bağırov Stalinə zəng vuraraq Dağıstandan gələn ağsaqqallar barədə məlumat vermiş, məsələnin mahiyyətini ətraflı danışmağa başlamış və dərhal anlamışdı ki, bu iş hələ Stalinə çatmayıbdır. O, tarixən formalaşmış xalqlarımız arasındakı münasibətlərdən danışmışdır. Bildirmişdi ki, dağıstanlı heyvandarlar ailələri ilə birlikdə onlara məxsus yüz minlərlə qoyunun qışladığı Azərbaycanda yaşayır və hər dördüncü neft ustası dağıstanlıdır. Dağ xalqları bizim qardaşlarımızdır.*

*O, Stalindən dağıstanlıların doğma yurdlarından köçürül-*

*məmələrini xahiş etmiş və onların sədaqətli olacaqlarına dair bütün məsuliyyəti öz üzərinə götürmüşdür: "Mən onlara başımla cavabdehəm". Stalin isə demişdir: "Mənə hələ bu barədə məlumat verilməyib, əgər siz dağıstanlıların sədaqətli olacaqlarına görə bütün məsuliyyəti öz üzərinizə götürürsünüzsə, yaxşı, qoy belə olsun, onların köçürülməsinə razılıq verməyəcəyəm, onda bu respublikanı öz himayənizə götürün, lazımdırsa rəhbər heyəti etibarlı və yetişmiş kadrlarla əvəzləyin, tam nizam-intizamı bərpa edin".*

*Böyük etimada görə təşəkkür edən Bağırov tez bir zamanda özü üçün iş planı cızmışdır, əlbəttə, yubanmaq olmazdı. O, Sovet İKP Mərkəzi Komitəsinə, Mərkəzi Komitənin katibi Şerbakova zəng etmiş, Stalinlə baş verən söhbəti demiş və ilk növbədə kadrlarla işləyəcəyini və digər təşkilati işlərin həyata keçirilməsi baxımından praktiki fəaliyyət göstərəcəyini bildirmişdir. Burada söhbət ondan gedirdi ki, Sovet İKP MK-nın aparatı bilsin ki, müvəqqəti olaraq müharibə gedən bir vaxtda bu muxtar respublikaya rəhbərlik faktiki olaraq Azərbaycan MK-ya həvalə edilib. Şerbakov, Bağırovun sözlərinə görə, hətta sevindi, çünki o vaxt Rusiya Federasiyasının özü ən çətin vəziyyətdə idi. Alman faşist qoşunları Rusiya ərazisinin Avropa hissəsinin yarıdan çoxunu işğal edib, Volqaya çatmış, Stalinqradı bombalamağa başlamışdı".*

M.C.Bağırov dərhal Dağıstan üçün nəzərdə tutulan planı həyata keçirməyə başladı. O, Əziz Əliyevi çağırıb vəziyyəti ona izah etdi. Stalinlə onun namizədliyini razılaşdırdıqdan sonra Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi, Dağıstanda məşhur olan Əbdürrəhman Daniyalov isə Nazirlər Sovetinin sədri vəzifəsinə təsdiq edildilər. Əziz Əliyevlə birlikdə Sovet hüquq-mühafizə orqanlarından, MK aparatından, komsomoldan, həmkarlar ittifaqı işçilərindən ibarət böyük bir

qrup Dağıstana, müxtəlif vəzifələrin icrasına ezam olundu.

Əziz Əliyev başda olmaqla, oraya göndərilən insanların fədakar əməyi sayəsində müharibə illərində və müharibədən sonra bu respublikada heç bir antisovet, antidövlət əleyhinə hər hansı bir fakt özünü büruzə vermədi. Dağıstanlılar bu illərdə onlara göstərilən etimada layiqincə cavab verdilər. Təbii ki, bu nəticənin əldə olunması əməli işində Dağıstan xalqının köməyinə arxalanan Əziz Əliyevin xidmətləri idi. Bununla da Dağıstan xalqının sürgün məsələsi bir daha gündəmə gəlmədi.

Amma biz o dövrdə Əziz Əliyevin həyatının mahiyyətini anlamaq üçün Azərbaycan xalqının tarixinə retrospektiv baxış keçirməliyik. Ona görə ki, oxuculara təqdim etdiyimiz bu kitabda ictimaiyyətə məlum olmayan arxiv sənədlərinə istinad edildiyi üçün bu mövzu Azərbaycanın siyasi-diplomatik tarixşünaslığı baxımından xüsusi əhəmiyyət daşıyır.

Baş verən hadisələrin içərisində və ya ondan kənarda yer almasından asılı olmayaraq, hər bir müəllifdə hadisələrə özünəməxsus yanaşma tərzi əmələ gəlir. Bu və ya yekun nəticə isə ona daxili məntiqin inandırıcılıq vektorlarının qarşılıqlı təsiri ilə izah olunur. Ona görə də mən kitablarımın süjet xətlərində həmişə bir prinsipial şərtə əməl etmişəm – tarixi hadisələrə bu günün nəzərləri ilə baxmaq olmaz.

Hər bir tarixi dövrün öz xüsusiyyətləri var. Hər tarixi hadisə öz ilkin şərtlərinə malikdir və bunların birini digərindən ayırmaq düzgün olmaz. Əks-təqdirdə tədqiqatçı mütləq subyektivizmə uğrayacaqdır. Bölunmüş Azərbaycan mövzusu bu gün xüsusən gənclərimiz arasında ən çox müzakirə olunan bir mövzudur. Ancaq əlbəttə ki, bizim

bu bölünmələrə gəlməyimiz birdən-birə olmayıb. Gəlin əsas qəhrəmanlarımıza keçməmişdən öncə bu faciəvi tariximizə milli yaddaşımızın gözü ilə qısaca bir ekskurs edək...

# "TÜRKMƏNÇAY" MÜQAVILƏSINƏ APARAN YOL

1711-ci ildə Osmanlı dövləti və Çar Rusiyası arasında bağlanan *"Prut müqaviləsi"* rusların cənuba doğru irəliləmə siyasətinin zəifləməsinə səbəb olmadı və hadisələr gözlənilmədən başqa xarakter aldı.

Rusiya Dərbəndi ələ kecirəndən sonra, 1722-ci ilin oktyabrında Dağıstan əmiri Hacı Davud ruslardan özünü qorumaq üçün Krım xanı ilə eyni hüquqi əsaslarla Osmanlı təbəəliyinə qəbul olundu.

1723-cü ilin yazında rusların Gürcüstana hərbi yürüşü başladı. Bakı işğal olundu. Ruslar Gəncə, sonra isə İrəvan və Naxçıvan istiqamətində hücuma keçdilər.

1724-cü ilin mayında Xoy qalası tutuldu. Osmanlı imperiyası ilə Rusiya arasında müharibə artıq qaçılmaz idi, lakin Fransanın diplomatik vasitəçiliyi ilə 1724-cü il iyunun 12-də tərəflər arasında *"İstanbul müqaviləsi"* imzalandı.

*"İstanbul müqaviləsi"*nin şərtlərindən biri kimi Rusiya Xəzərsahili torpaqları əldə edir və sonra I Pyotr bu ərazilərdə möhkəmlənmək üçün müxtəlif vasitələrə əl atır. Bu vasitələrdən biri də xristian əhalinin bu ərazilərdə yerləşdirilməsi idi.

Burada I Pyotr ermənilərin bu ərazilərə köçürülməsini qarşıya məqsəd kimi qoyur. Həqiqətən də, I Pyotrun 10 noyabr 1724-cü il fərmanı buna bariz sübutdur. I Pyotr Xəzərsahili torpaqları işğal edənə qədər rusların ermənilərlə əməkdaşlıqları rəmzi səciyyə daşısa da, işğalın gedişi zamanı bu əlaqələr sıx əməkdaşlığa çevrildi. I Pyotrla ermənilərin yaxınlaşmasında İsrail Ori *(1658–1711)*, onun ölümündən sonra isə Minas Vardapet mühüm rol oynadılar.

I Pyotrun 1724-cü il noyabrın 10-da erməni xalqı ilə bağlı "əlahəzrət" fərmanı *(Vısoçayşiye qramota)* və onunla bağlı digər sənədlərlə *(Vısoçayşaya ukazı)* I Pyotrun varisləri dövründə ermənilərin işğal edəcəkləri qədim türk yurdları İrəvan və Qarabağ xanlıqlarının əraziləri və ermənilərin bu ərazidə yerləşdirilməsinə üstünlük veriləcəkdi ki, bu da Azərbaycan türkləri ilə Osmanlı türkləri arasında bufer zonası yaratmaq məqsədinə xidmət edəcəkdi.

I Pyotr "İstanbul müqaviləsi"ndən sonra - sentyabrın 24-də ratifikasiyaların mübadiləsi üçün İstanbula ezam etdiyi Aleksandr Rumyantsevə öz əli ilə yazdığı təlimatda gürcülərin və ermənilərin vəziyyətini və gücünü müəyyənləşdirməyi tapşırmışdı.

10 noyabr 1724-cü il tarixli reskriptdə isə I Pyotr bilavasitə ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsindən bəhs edirdi:

**Erməni xalqı adına ali fərman**
*(Üslub orijinaldakı kimi saxlanılıb)*

*"Allahın mərhəməti ilə biz I Pyotr, İmperator və Ümumrusiya hökmdarı və ilaxır vicdanlı patriarx İsaya və düzgün yüzbaşılara, Avana və Mirzəyə, qeyrətli yüzbaşılara və müdirlərə, bütün erməni xalqına bizim imperator rəhmimiz və təbriklərimiz.*

*Bizim bu mərhəmətli fərmanımızla sizə elan edirəm ki, sizin bizə keşiş Antonio və Kehya Çelebi ilə göndərdiyiniz xəbəri aldıq və onlar sizin niyyətləriniz haqqında bizə şifahi bildirdilər.*

*Bizim imperator proteksiyasına qəbul olunmaq üçün göstəriş verdim ki, yeni aldığımız fars əyalətlərində rahat yaşamağınız üçün bütün Xəzər dənizi boyu sizlərə torpaqlar versinlər, orada xristian dinində öz qanununuzla heç nədən çəkinmədən ibadət edə bilərsiniz.*

*Biz xristianlıq naminə erməni xalqının mərhəmətlə hörmətini saxlayırıq, bundan ötrü öz tərəfimizdən bizim müdirlərə lazım olan fərmanlar göndərdik ki, onlar sizə fars əyalətlərində - Gilan, Mazandaran, eləcə də Bakıda əlverişli yerlər ayırsınlar, sizləri nəinki ora gəlmə kimi qəbul etsinlər, hətta yaşamaq üçün əlverişli torpaqları nişan versinlər və sizə hərtərəfli mərhəmət göstərsinlər.*

*Sizi inandırmaq üçün bu İmperator fərmanını sizə göndərdik və hətta yuxarıda qeyd olunan adamlarınızı - keşişləri də geri qaytardıq ki, onlar da sizə bu fərmanı şifahi şəkildə izah etsinlər."*

**Kansler qraf Qolovkin, Andrey Osterman, Ober sekretar Yuryev Fyodor Protopopov.**

Bu protokol və fərmanlar ikitərəfli Aleksandriya kağız vərəqələrində çap olunmuş, surəti erməni dilinə tərcümə edilərək arxasına tikilmiş, imzasız, amma böyük dövlət möhürü vurulmaqla ermənilərə göndərilmişdir.

**Qeyd:** *Bu fərman Aleksandriya kağızının bir vərəqində, poçt kağızı ilə bağlanaraq ona qızıl möhür - böyük dövlət möhürü vurulmuşdur.*

*İki fərmanın biri keşiş Antonioya və Kehya Çelebiyə, digəri isə Semyon Popova və keşiş Pyotra verilmişdir.*

*İmperator həzrətləri bu məktubu imzalamağı lazım bilməmiş, eləcə də kansler də ona imza atmamışdır…*

Səfəvilərin süqutundan sonra hakimiyyəti ələ almış Azərbaycan xalqının böyük oğlu, Qərb tarixçilərinin "Şərqin Napoleonu" adlandırdıqları Nadir şah Əfşar 1735-ci ildə bir güllə belə atmadan ruslarla "Gəncə muqaviləsi"ni bağladı.

Dərbəndin 200 kilometrliyindən üzü cənuba tərəf bütün torpaqlar Əfşarların ixtiyarına keçdi. Nadir Şah Os-

manlı dövləti ilə Rusiya imperiyası arasındakı ziddiyyətlərdən məharətlə istifadə edərək, diplomatik manevrlərlə 8 iyun 1735-ci ildə Osmanlı qarnizonunu Gəncədən çıxara bildi və sonra döyüş istiqamətini Şirvan və Dağıstan istiqamətinə yönəltdi.

Beləliklə Nadir şahın qoşunları 1735-ci il noyabrın 21-də artıq Dərbənd yaxınlığında idilər.

Nadir şah Dərbəndi azad etdikdən sonra, 1736-cı ilin martında Muğana yürüş edərək, Kür və Araz çaylarının qovuşduğu yerdəki Cavad şəhərində *(müəllifin boya-başa çatdığı indiki Sabirabad rayonunun Cavad kəndi - A.M.)* özünü yeni Türk Əfşarlar imperiyasının banisi elan edərək "Xalq qurultayı" və "Tacqoyma mərasimi" keçirdi.

1736-cı ilin sentyabrında Əfşarlar dövləti ilə Osmanlı dövləti arasında müqavilə imzalandı. Müqaviləyə görə, Cənubi Qafqazdakı Azərbaycan torpaqları **Əfşarlar dövlətinə** qaytarıldı.

Çox maraqlıdır ki, Qacarlar dövlətinin banisi, görkəmli dövlət xadimi və sərkərdə Ağa Məhəmməd şah Qacar (1742-1797) ağır müharibədən sonra 1796-cı ildə indiki İran ərazisindəki feodal hərc-mərcliyinə son qoyaraq taxta çıxdıqdan sonra, "Xalq qurultayı"nı və "Tacqoyma mərasimi"ni eynilə Nadir şah kimi Azərbaycanda - Muğanda, Kür və Araz çaylarının qovuşağında yerləşən həmin Cavad şəhərində həyata keçirmişdi.

Ağa Məhəmməd şah Nadir şahın qələbələrinə hörmət əlaməti kimi onun tacını başına qoymaqdan imtina etmişdi.

Çünki Nadir şahdan fərqli olaraq, Qacar Azərbaycanı tamamilə birləşdirə bilməmiş, Nadirin hakim olduğu torpaqları isə öz iradəsinə tabe etdirməyi bacarmamışdı.

Yəni o, hələ ki, özünü Nadirin tacını daşımağa layiq

bir hökmdar kimi görmürdü. Bununla o, bir tərəfdən öz qüdrətli sələfinin böyüklüyünü etiraf və təsdiq edir, digər tərəfdən də gələcək hədəfinin Nadirin yaratdığı böyük imperiyanın parçalanmış torpaqlarını geri qaytarmaq kimi mühüm məqsədlərinin olduğuna işarə verirdi.

Burada bir məqama da xüsusi diqqət yetirmək lazımdır ki, iki böyük xaqanın tacqoyma mərasimləri məhz Azərbaycan türklərinin torpaqlarında, Muğanda *(Cavad xanlığının ərazisində)* keçirilmişdir.

Azərbaycanımızın dilbər güşələrindən olan tarixi Cavad bəylərbəyiliyinin mülayim qışı, əlverişli coğrafi şəraiti tarixən bütün imperiyaların diqqətini cəlb etmiş, nəticədə böyük hərbi yürüşlərin qışlağına və eyni zamanda da qanlı döyüşlər meydanına çevrilmişdir.

Məlumdur ki, IX əsrdə Ərəb Xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda bir neçə müstəqil feodal dövlətlər meydana gəlmişdi. Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Kəsranilər kimi nisbətən iri dövlətlərlə yanaşı, Naxçıvan şahlıq və Muğan şahlıq kimi kiçik və zəif feodal dövlətlər də yaranmışdı *(Bu barədə məlumatlara IX əsr ərəb mənbələrində - İbn Xordadbəyin "Ölkələr və yollar" əsərində də rast gəlinir).*

IX əsrin 60-cı illərində ərəb mənşəli Şeybani qəbiləsinə mənsub olan Heysəm İbn Xalid Cavad özünü Şirvanın müstəqil hakimi elan edərək, mərkəzi hökumətlə əlaqəni kəsdi. O, Şirvanşahlar dövlətinin paytaxtına özünün adını vermiş və onu Cavad şəhəri elan etmişdir (600 ildən artıq müstəqil surətdə mövcud olan Şirvanşahlar dövləti XVI əsrdə Səfəvilər dövlətinin tərkibinə daxil olmuşdur - A.M.).

24 oktyabr 2018-ci il tarixdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən Heydər Əliyev

Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi və iştirakı ilə Şirvanşahlar Saray Kompleksində "Şirvanşahlar irsi dünya muzeylərində" sərgisi açıldı. Sərgi Bakıda keçirilən "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" mövzusunda beynəlxalq elmi konfrans çərçivəsində təşkil edilmişdi.

Sərgidə dünyanın ən böyük muzeylərindən Azərbaycana gətirilən nadir eksponatlar nümayiş etdirilmişdir. Sərginin əsas eksponatlarını İstanbul Əsgəri Muzeyi tərəfindən təqdim olunan maddi-mədəniyyət nümunələri təşkil edirdi. Sərgidə Şirvan hökmdarı Fərrux Yassara aid 4 dəbilqə, Şirvanşah Keyqubad və Şirvanşah I Xəlilullaha aid zirehli köynəklər 500 ildən sonra öz ata ocaqlarında sərgiləndi. Eyni zamanda Gürcüstan Milli Muzeyindən gətirilən Pir Hüseyn xanəgahına məxsus kaşı nümunələri də nümayiş olundu. Həqiqətən də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu təşəbbüsü, tariximizlə bağlı yeni tədqiqatlara təkan verdi.

Tarixi yaddaşımızın ağ səhifələrindən biri də Şirvanşahlarla bağlıdır. Şirvanşahlar dövlətinin tarixinin tədqiqat çətinliyi, onun qədimliyi ilə yanaşı, həm də həmin dönəmdə tamamilə fərqli mədəniyyətlərin və sülalələrin çulğalaşması ilə bağlıdır.

İkinci bir tərəfdən rus yazarı Vladimir Fyodoroviç Minorskinin ingilis dilində çap edilən uydurma "Şirvanşahlar tarixi" kitabında, bu ərazilərdə ermənilərin olmasını qeyd etməsi Şirvanşahlar dövrü tariximizə vurulmuş ən böyük zərbədir.

Təsadüfi deyildir ki, V.F.Minorskinin bu yalanla dolu Şirvan tarixini erməni tarixçisi Q.Q.Mikaelyan tez bir vaxtda rus dilinə tərcümə edərək, sovet tarixşunaslığında "kütləvi dövriyyəyə" buraxmışdır.

Bu kitabı son zamanlar qədim Şirvan-Azərbaycan dövlətçilik tarixini öz keçmişi kimi göstərmək istəyən qonşularımızın *(iranlılar və gürcülər)* iddialarına son qoymaq nöqteyi-nəzərindən təhlil edərək həqiqətləri göstərmək xüsusi əhəmiyyət daşıyır.

Sevindirici haldır ki, bu gün Şirvanşahlar tarixinə böyük diqqət verilməyə başlanılmışdır. Hətta vaxtilə - 1940-cı illərdə Cənubi Azərbaycanda milli hərəkat zamanı Böyük Azərbaycanın birləşdirici simvolu kimi Şirvanşah İbrahim Dərbəndi təbliğ olunurdu *(Bununla bağlı tarixi sənədi və səbəbləri kitabın növbəti bölümündə verəcəyəm - A.M.).*

Onu da qeyd etmək istəyirəm ki, Mustafa Kamal Paşa Atatürk də Şirvanşahlarla maraqlanmış və bu tarixin araşdırılması ilə bağlı tapşırıqlar vermişdir.

Belə ki, bir gün Mustafa Kamal Paşa Çankaya köşkündə işlər müdiri *(genel sekreter)* olmuş, onun yaxın silahdaşı Tevfik Paşadan Ələviliyin kökü haqqında və Anadoluda yayılmasının səbəbləri barədə maraqlanmışdır.

Tevfik Paşa Anadoluda Ələvi təliminin *(Həzrət Əlini İmam kimi tanıyanlar)* XII əsrdə yaşamış Ərdəbil seyid təkiyə ocağı Şeyx Səfidən qaynaqlandığını bildirmişdir. Atatürkün bu dini xəttə loyal münasibəti var idi (onun atası Əlirzanın da Ələviliyə bağlılığı barədə səhih məlumatlar var - A.M.). Xüsusən də Peyğəmbər nəslinin nümayəndəsi Məkkə və Mədinənin şərifi olmuş Şərif Hüseyn Haşiminin, müsəlman türk əsgərinə qarşı 1916-cı ildə "Öldürün" fitvasını verməsi, Mustafa Kamalın xatirəsindən silinməmişdir.

İslamda əhli-sünnənin hənəfilik xəttində olan bir şərifin öz dindaşlarına qarşı belə bir fitvanı verməsi, əslində İslam pərdəsi altında gizlənmiş bir din adamının antitürk ərəb şovinistliyi idi. Buna görə də Türk Paşaları Birinci

Dünya müharibəsi zamanı ingilislərdən daha çox bu xətdən zərbə aldıqlarını qeyd edirdilər. Ola bilsin ki, 1924-cü ildə Mustafa Kamal Paşanın xəlifəliyi ləğv etməsi həm də bu acı yaddaşdan irəli gəlirdi.

Tevfik Paşa hələ XII əsrdən mövcud olan Şeyx Səfi ideoloji konsepsiyasının dövlət xətti kimi özünü büruzə verməsinin Şeyx Cüneydin (Şah İsmayılın babası) vaxtından başladığını söyləyir.

XVI əsrin əvvəllərində Azərbaycanda Səfəvi dövlətinin yaranması böyük sosial-iqtisadi irəliləyişə səbəb olmuşdur. Məhz həmin dövrdə də siyasi-ictimai ürfaniyyət mərkəzi yuxarıda qeyd etdiyim Cavad şəhəri olmuşdur.

Abdulla xan hicri 956-cı ildə (1549–1550) Cavad bəylərbəyi vəzifəsinə təyin olunmuş və 974-cü ildə (1566–1567) vəfat edənədək, 17 il ərzində həmin vəzifəni tutmuşdu. Abdulla xan Ustaclının həyat yoldaşı Fatimə sultan öz doğmaca bibisi qızı, yəni, Şah İsmayıl Xətainin qızı və I Təhmasibin bacısı idi. Fatimə sultan bir tərəfdən ulu babası Ağqoyunlu hökmdarı Uzun Həsənə, bir tərəfdən isə Səfəviyyə təriqətinin banisi Şeyx Səfiyəddinə bağlı idi.

İki qədim Azərbaycan dövlətinin ana sütunları milli dövlətçiliyimizin özülü olan Ustaclılar tayfasının timsalında birləşirdi. Bu möhtəşəm ailənin 3 uşağı: Həmzəli xan, Şahəli Mirzə, Xan Məhəmməd adlı oğulları vardı.

Abdulla xan Ustaclı öz böyük oğlu Həmzə xanı Şirvanşahlar nəslindən olan Banugül xanımla evləndirmişdi. I Şah Təhmasibin həm də bibisi oğlu olan Abdulla xan çox mahir diplomat idi.

Abdulla Xan Ustaclının qonağı olmuş Moskva kompaniyasının agenti A.Cenkinson Cavad şəhərini Kür və Araz çaylarının birləşdiyi yerdə salınmış, bənzəri olmayan mirvari məkan adlandırmışdır.

O, Abdulla Xan Ustaclının müxtəlif meyvə ağacları ilə dolu bağından və şərq memarlığının incisi saydığı Cavad malikanələrindən əhatəli məlumatlar vermişdir. Əcnəbi qonağı nahar yeməyinin çeşidi heyrətləndirmiş, o, hətta yeməklərin sayını hesablamağı qərara almışdı.

*A.Cenkinson yazır: "Nahar vaxtı gəlib çatdıqda döşəməyə süfrələr salındı və müxtəlif yeməklər gətirildi, yeməklər çeşidinə görə sıra ilə düzülmüşdü. Mənim apardığım sayıma görə 140 növ yemək verilmişdi. Onları süfrə ilə bərabər sıra ilə yığışdırdıqdan sonra yeni süfrələr salınıb meyvələrdən başqa qonaqlıq yeməklərindən ibarət 150 növ bulud gətirdilər, beləliklə, iki dəfəyə 290 yemək növü verilmişdi".*

Rus akademiki P.Q.Butkov tərəfindən verilən məlumat son dərəcə maraqlıdır. O yazır ki, "Cavad torpaqları Kürün sahilində, Araz çayının Kürə töküldüyü yerin yaxınlığında yerləşir. Bu vilayətin bol taxılı, mal-qarası, çoxlu tut bağı və böyük ipəkçilik emalatxanaları var".

Məlumdur ki, Səfəvi Şahı I Təhmasib Abdulla Xan Ustaclıya Əmir Əl-Üməra (Əmirlər əmiri) vəzifə titulunu vermişdi. Əmir Əl-Üməra vəzifəsini daşıyan şəxs eyni zamanda Səfəvi qoşununun hərbi baş komandanı sayılırdı. Hətta o dövrdə, yəni 1555-ci ildə Osmanlı Türkiyəsi ilə bağlanmış sülhün daimiliyinə inanmayan Şah I Təhmasib Rusiya ilə yaxınlaşmağa başlayır.

Ümumiyyətlə, Ustaclı nəslinin nümayəndələri Səfəvi hökmdarlarının yaxın ətraflarında olmuş, müəyyən zamanlarda isə faktiki olaraq dövləti idarə etməkdə Səfəvi hökmdarlarına məsləhət və istiqamətlər vermişlər. Bütün bunlar onu göstərir ki, istər Nadir şah Əfşarın, istərsə də Ağa Məhəmməd şah Qacarın öz siyasi hakimiyyətinin bərqərar olması ilə bağlı "Xalq qurultayı"nı məhz bu şəhərdə çağırmaları heç də təsadüfi deyilmiş.

Onların "Tacqoyma mərasimi"ni farsların yaşadığı Şirazda, İsfahanda, Məşhəddə təşkil etməmələri, nisbətən Azərbaycan türklərinin yaşadıqları kiçik Cavad şəhərində keçirmələri, özlərini hansı xalqın nümayəndəsi olaraq gördüyünün məncə ən inkaredilməz tarixi dəlillərindən biridir.

Yəqin hər kəs mənimlə razılaşar ki, Azərbaycan milli dövlətçiliyinin genoloji yaddaşının çulğalaşdığı bu məkanda, hakimiyyətə gəlmiş yeni liderlərin legitimliyinin tanınması baxımından da bu şəhərdə "Xalq qurultayı"nın keçirilməsi xüsusi əhəmiyyət daşıyırdı.

Bu proseslər həm də o dövrdə baş verirdi ki, dünyada artıq yeni müstəmləkəçilik dövrü başlanmışdı. Yeni müstəmləkələr uğrunda gedən mübarizə beynəlxalq siyasətin əsas məsələsinə çevrilmişdi.

Bütün bu hadisələr burnunun ucundan uzağı görməyən, şəxsi mənfəətpərəstlikləri ilə Azərbaycan dövlətçiliyini öz iddialarına qurban verən, tələm-tələsik özlərini müstəqil xan elan edənlərin dövründə baş verirdi.

Unudurdular ki, nəhəng ölkə olan Hindistan XVII əsrdə Böyük Moğollar adlanan müsəlman sultanları tərəfindən birləşdirilmişdi. XVIII əsrin əvvəlində bu birlik Azərbaycanda olduğu kimi, burada da parçalandı və tezliklə Böyük Moğollar imperiyası avropalı işğalçıların hədəfinə çevrildi.

Avropa ölkələri arasında ticarət və müstəmləkə torpaqları uğrunda gedən mübarizə 1789-cu ilin sonlarına qədər beynəlxalq siyasətin əsas məsələsi olaraq qalırdı.

Doğrudur, müəyyən məqamlarda Şəki xanı Hacı Çələbinin (1747-1755) və Quba hakimi Fətəli xanın (1758-1789) Azərbaycan xalqını birləşdirmək cəhdləri də olmuşdur. Belə ki, XVIII əsrin ortalarında Abdulla xan Ustaclının va-

risi Cavad bəylərbəyi Mirhəsən xan Quba xanı Fətəli xanın Azərbaycan torpaqlarının birləşdirilməsi siyasətində mühüm rol oynamışdı və o öz silahlı dəstələri ilə Quba xanı Fətəli xanın hərbi-siyasi tədbirlərində fəal iştirak edirdi.

Mirhəsən xan hətta Fətəli xanın Qarabağı və Cənubi Azərbaycan xanlıqlarını birləşdirmək cəhdi ilə əlaqədar olaraq 1784-cü ildə Qarabağ və Ərdəbil yürüşlərində iştirak etmişdi.

Lakin beynəlxalq situasiyanı təhlil edə bilməyən, bu birləşməyə qarşı çıxan digər xanlarımız unudurdular ki, Fransa Rusiya ilə yaxınlaşmağa başlamışdı.

Fransa, Rusiyaya qarşı Osmanlı Türkiyəsini dəstəkləməkdən əl çəkdi və 1787-ci il ticarət müqaviləsi ilə Rusiyanın Qara dəniz sahillərindəki yeni limanlarında ticarətdən gələn bütün gəlirlərə sahib oldu.

Nəhayət, fransız tacirləri Osmanlı imperiyasından Qırmızı dənizə çıxış əldə edərək Misirə və Hindistana gedən yollarda öz əməliyyatlarını genişləndirdi.

Bu minvalla Fransa Yaxın Şərqdə ticarət sahəsində hegemonluğunu qoruyub saxlamağa müvəffəq olsa da, İngiltərə inadla bu vəziyyəti sarsıtmaqda davam edirdi.

Həmin dövrdə dünya siyasətində başlıca rolu iki ən güclü qüvvə - ingilis və rus diplomatiyası oynayırdı.

Rusiya Osmanlı ilə 1735-1739-cu illər müharibəsində qalib gələrək “Belqrad” (1739, Azov Rusiyaya qaytarıldı), 1768-1774-cü illər müharibəsində isə “Kiçik Qaynarca” sülh müqaviləsi (1774, Rusiya Qara dənizə sərbəst çıxmaq imkanını qazandı) bağlayaraq, Qara dəniz sahillərində və Şimali Qafqazda mövqelərini möhkəmləndirdi.

Əslində II Yekaterina I Pyotrun siyasətini davam etdirirdi. İmperatriçanın fikrinə görə, hələ çox işlər gorülməli idi ki, beynəlxalq məsələlərdə Rusiyanın təsiri rəddedilməz

olsun. İmperatriça yazırdı: "Xəzərlə Qara dənizi, o ikisini də Şimal dənizlərilə birləşdirməli; Çinlə Şərqi Hindistanın ticarəti Türküstandan istiqamətləndirilməlidir. Bunun mənası, imperiyanı Asiya və Avropa imperiyaları arasından bir pillə də yuxarı yüksəltmək idi" (***О.Елисеуева,*** *II Екатерина. Москва, Астрел, 2008).*

Ona görə də Yekaterinanın hakimiyyətinin əsas hissəsi "türk problemi"nin həllinə və "yunan layihəsi" adlandırılan məsələnin həyata keçirilməsinə yönəldilmişdi. Burada söhbət artıq Osmanlı imperiyasının torpaqları hesabına ərazi genişləndirmələrindən getmirdi, ümumiyyətlə, türklərin tamamilə Avropadan qovulması və imperator Konstantin Pavloviçin nəvəsini taxta çıxarmaqla, Yunan imperiyasının bərpasına hesablanmışdı.

Gürcüstan 1768-1774-cü illərdə gedən Rusiya-Osmanlı müharibəsi zamanı Rusiyanın fəal müttəfiqi kimi çıxış edirdi. Elə bu dövrdə II İrakli II Yekaterinaya protektorluq haqqında müraciət etsə də, təklif cavabsız qalmışdı.

Müharibə bitdikdən sonra isə vəziyyət dəyişdi. Şərqə doğru irəliləyən Rusiya Gürcüstanda möhkəmlənməyə diqqəti artırdı. Ermənilərlə birgə gürcülər içərisində də Rusiya oriyentasiyası getdikcə güclənməyə başladı. Rusiya Gürcüstanla danışıqları davam etdirməyə başladı. Qraf Potyomkin (1739-1791) protektoratlığın şərtləri barədə danışıqlar üçün İraklinin yanına emissarlar göndərdi. II İrakli də 1782-ci ilin dekabrında Peterburqa öz elçilərini yola saldı. Müqavilənin şərtləri haqqında danışıqlar bitdikdən sonra, 24 iyul 1783-cü il tarixində Georgiyevsk qalasında (1777-ci ildə salınmışdı) müqavilə imzalandı. Burada Rusiyanı general P.S.Potyomkin, II İraklini isə İ.K.Muxran-Batoni və G.R.Çarçavadze təmsil edirdilər.

Müqavilə 13 əsas, 4 separat artikul, II İraklinin Rusiya

təbəəliyinə keçərkən qəbul etməli olduğu andın mətni və gürcü çarlarının taxta çıxmaq qaydasını müəyyən edən xüsusi maddələrdən ibarət idi.

II İrakli müqaviləni 24 yanvar 1784-cü ildə ratifikasiya etdi. I Pavel və I Aleksandrın manifestləri ilə Şərqi Gürcüstan (1639-cu il Səfəvi-Osmanlı arasında bağlanmış "Qəsri-Şirin" müqaviləsinə görə Qərbi Gürcüstan Osmanlı dövlətinin, Şərqi Gürcüstan, Kartli və Kaxetiya çarlıqları Səfəvilərin hakimiyyətinə keçmişdi. Nadir şahın ölümündən sonra (1747) Azərbaycan xanlıqları kimi gürcü çarlıqları da özlərini müstəqil elan etmişdilər) Rusiyaya birləşdirildi.

***1788-ci ildə Fransada Xalq hərəkatı -*** inqilab başlayanda Rusiya və Avstriyanın Osmanlı imperiyasına qarşı apardıqları müharibənin qızğın çağı idi.

Avstriya ordusu darmadağın edilsə də, rus qoşunu uzun sürən mühasirədən sonra Oçakovu ələ keçirərək, böyük qələbə qazanmışdılar. Ancaq mübarizə hələ yekunlaşmamışdı.

Rusiya həmin vaxt şimalda İsveçlə də müharibə aparırdı. İngiltərə və Prussiya həm Osmanlı imperiyasına, həm də İsveçə hərtərəfli diplomatik dəstək göstərirdilər.

Buna baxmayaraq, Fransa inqilabı çox tezliklə bütün beynəlxalq siyasətə öz həlledici təsirini göstərdi.

Bu inqilab digər ölkələrin diqqətlərini uzun müddətə Şərqdən ayırıb, Avropaya yönəltməyə vadar etdi. Köhnə Avropanın tarazlığı artıq pozulmuşdu. Fransız inqilabı beynəlxalq münasibətlərin inkişafında yeni dövr açmışdı.

Məhz bu dövrdə Azərbaycan xalqının qeyrətli oğlu Ağa Məhəmməd şah Qacar dağıdılmış, parçalanmış, yerli feodallar tərəfindən istismar olunmuş Azərbaycan torpaqlarının birləşdirilməsi istiqamətində fəaliyyətə başlamışdı.

Yuxarıda qeyd etdiyim kimi, bu birləşmənin həyata keçirilməsi üçün münbit beynəlxalq mühit də yaranmışdı. Hiss olunurdu ki, Ağa Məhəmməd şah Qacar çox dərin təhlil qabiliyyətinə və beynəlxalq aləmdə baş verən proseslərdən düzgün qərar çıxarmaq zəkasına malik idi. Bu keyfiyyət təəssüf ki, o dövr Azərbaycan xanlarının bir çoxunda yox idi.

Ağa Məhəmməd şah Qacar Azərbaycan xalqının yaddaşında strateji düşüncəyə malik əsl dövlət adamı kimi qalmalıdır. Əfsuslar olsun ki, belə bir dövlət xadimini, dövlətçilik düşüncəsinin daşıyıcısını sovet dönəmində bizlərə düşmən obrazında təqdim edirdilər *(Uzun illər arxivlərdə tədqiqat aparan yazıçı kimi mən belə məqamlarla çox rastlaşmışam: bir çox hallarda Azərbaycan xalqının böyük oğullarını bizlərə aciz, qatil, öz xalqına yad bir ünsür kimi təqdim etmişlər - A.M.).*

Amma zaman keçdikcə anlaşıldı ki, çar Rusiyası həm Osmanlını, həm də Azərbaycan dövlətlərini içəridən dağıtmaq üçün xeyli iş görmüşdülər.

Əslində "Gülüstan" və "Türkmənçay" faciəsini yaradan əsas səbəblərdən biri də elə bu idi və üstəgəl Qacarlar - Osmanlı ziddiyyətləri 1821-1823-cü illərdə müharibəyə çevrildi.

Müharibənin başlıca səbəbi tərəflər arasında sərhəd məsələsi olmuşdu. Əslində bu müharibənin reallaşması üçün xeyli bəhanə yığılmışdı və xüsusən şiə ocaqlarının osmanlı xanədanları tərəfindən qorunmaması, dəfələrlə vəhabilər tərəfindən oranın talan olunması və sultanın bu baş verənlər qarşısında acizliyi Fətəli şahı hiddətləndirirdi. Əslində Osmanlı imperiyası daima Bağdad paşasına vəhabilərin kökünü kəsmək əmrini vermişdi. Lakin, 1802-ci ildə Səud ibn Əbd əl-Əzizin timsalında vəhabilərin Kərbəlada

qazandıqları qələbə, yaşlaşmış və gücünü itirmiş Bağdad paşası Böyük Süleyman üçün ağır məğlubiyyət oldu *(Bridges H.J. An Account... Vol. 2, s. 28; [Corancez K.A.]. Histoire.... s. 28, 186; Raymond J. Les wahabys..., s. 21).*

İran şahı Fətəlinin şiələr üçün müqəddəs hesab edilən Kərbəlanın Paşa tərəfindən qoruna bilməməsi ilə bağlı daim onu məzəmmət etməsi və Kərbəlaya öz qoşunlarını göndərəcəyi ilə hədələməsi paşanın vəziyyətini daha da ağırlaşdırırdı.

Məkkə, Kərbəla və Nəcəf kimi müqəddəs yerlərə gedən zəvvarların şikayətləri, xüsusilə Fətəli şahın Məkkəyə ziyarətə gedən hərəmlərindən birinin karvanında axtarışların aparılması, vəziyyəti daha da kəskinləşdirmişdi.

Hələ Osmanlı dövləti ilə Əfşarlılar dövləti arasında bağlanan "Kürdan müqaviləsi"nə *(1746-cı il)* görə bu dövlətlər arasındakı münasibətləri, xüsusilə Osmanlı hakimiyyət orqanları bütün Əfşarlılar dövlətinin zəvvarlarına kömək göstərməyi və onların Bağdad və Suriya vasitəsilə Məkkə yolunda təhlükəsizliyini təmin etməyi üzərinə götürürdü. Müqaviləyə görə Əfşarlılar dövlətinin zəvvarları müqəddəs şəhərlərə *(Kərbəla və Nəcəf)* də gedə bilərdilər.

Əfşarlar da öz ərazisində Osmanlının şiə və ələvi zəvvarlarına eyni imtiyazları verirdi. Müqaviləni Osmanlı sultanı I Mahmudun *(1730-1754)* adından Bağdad və Bəsrə hakimi Əhməd paşa, Əfşarlılar dövlətindəki keçmiş səfir Nazif əfəndi və Nadir şah adından onun vəziri Həsən Əli xan imzalamışdılar. Eyni zamanda Osmanlı hakimiyyət orqanları müqəddəs Kərbəladakı və Nəcəfdəki şiə ocaqlarının qorunması öhdəliyini də öz üzərinə götürmüşdülər.

1802-ci ilin avqustunda Böyük Süleyman canını tapşırar-tapşırmaz, nəşi hələ soyumamış, siyasi miras uğrunda ingilis və fransızların da bilavasitə iştirak etdiyi ölüm-di-

rim mübarizəsi başladı. Qohumu kəhya (vali yanındakı köməkçi-katib) Əli rəqibləri üzərində qələbə qazanıb, paşanın yerini ələ keçirməyə nail oldu. O, hakimiyyətdə təqribən beş il qala bildi.

Daxili çəkişmələr, xalq üsyanları və kürdlərin arasıkəsilməz hücumları paşalığı sarsıdırdı. 1807-ci ilin avqustunda Əli məsciddə doğrandı. Bir qədər sonra onun yerini Kiçik Süleyman tutdu və bu vəzifədə üç il qala bildi. Həmin illəri kürdlər və diriyəlilərlə müharibələrə həsr edən bu paşa da 1810-cu ilin oktyabrında öldürüldü.

Bütün bundan sonra Sultanın bu regionda təsir imkanları demək olar ki, qalmamışdı və o, "Kürdan müqaviləsi"nin şərtlərini tam icra edə bilmirdi *(Cevdet Ahmed Tarih-i vekaiya devlet-i aliye. vol. 1-12. İstanbul. hicri 1271-1292. Cəvdət paşa Osmanlı Dövlətinin 1774-1825 illəri arasındaki tarixini yazıbdır - A.M.).*

Həmçinin Cəvdət paşaya görə Ərzurum paşası 1820-ci ildə Qacarlar dövlətindən qaçmış qəbiləyə himayədarlıq edirdi və Fətəli şahın tələbinə baxmayaraq, Sultan onu geri qaytarmaqdan imtina etmişdi.

İngiltərə ilə bağlanmış 1814-cü il müqaviləsindən sonra hərbi qüvvələrini yenidən quran Qacarlar dövləti hərbi potensialını çox gücləndirmişdi.

Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan hökmdarlarının ingilislərlə bu əməkdaşlığı ilk deyildi.

Həqiqətən də 200 il sonra ingilislər tərəfindən yenidən qurulmuş Fətəli şahın qoşunlarının ilk hücumları uğurlu oldu. Osmanlı dövlətinin Cənubi Azərbaycanla bitişik rayonları, Bəyazid, həmçinin Süleymaniyyə Fətəli şahın qoşunları tərəfindən tutuldu.

1822-ci ildə Kərkük, Mosul və digər şəhərlər də ələ keçirildi. Ancaq təəssüf ki, iki türk dövlətinin bir-biri ilə ədavə-

ti ən çox rusların işinə yaradı. Bu müharibə hər iki dövlətin əsas qüvvələrini döyüş bölgəsinə cəlb etməsi baxımından onların şimal sərhədlərini müdafiəsiz qoymuşdu. Bu faktor rusları cənuba doğru hərəkətə gətirməyə yetərli oldu.

Regionda rusların güclənməsindən narahat olan İngiltərə müharibənin dayandırılması üçün aktiv fəaliyyətə başladı. O dövrdə Şərq siyasəti ilə bağlı kəskin dönüş Böyük Britaniyanın yeni xarici işlər naziri Corc Kanninqin adı ilə bağlı idi *(Mowat R.B. History of European Diplomacy. 1815-1914.-L. 1922).*

Kanninq Osmanlı ilə Qacarlar dövlətinin ruslara qarşı qüvvələrinin birləşdirilməsinin tərəfdarı kimi çıxış edirdi. Amma 28 iyul 1823-cü ildə Qacarlar və Osmanlı dövlətləri arasında Ərzurumda "Sülh müqaviləsi" bağlandı.

Müqaviləni Fətəli şah və Abbas Mirzə adından Mirzə Məhəmməd Əli və Türkiyə sultanı Mahmud (1808-1839) adından Ərzurum qubernatoru və Osmanlı imperiyası şərq vilayətlərinin valisi Rauf paşa imzaladı.

Rusiya Fətəli şaha zorla "Gülüstan" sülhünü sırımışdı. "Gülüstan sülhü"nün şərtlərinə görə, Qacarlar dövləti Gəncə, Qarabağ, Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqlarını, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdud olan əraziləri Rusiya dövlətinə verdi və onlar haqqında hər cür iddialardan əl çəkdi.

Beləliklə, Bütöv Azərbaycan iki yerə parçalandı. Onu da qeyd etmək lazımdır ki, Abbasqulu Ağa Bakıxanov həmin müqavilə imzalanan vaxt Rusiya dövlətinin nümayəndə heyətinin tərkibində tərcüməçi vəzifəsini yerinə yetirirdi...

Azərbaycanı bu faciəyə gətirib çıxaran digər səbəblərdən biri də Corc Kanninq oldu. Belə ki, Corc Kanninq iki türk dövlətinin yaxınlaşıb güclərini birləşdirəcəyindən qorxaraq, Britaniya siyasətinin sükanını kəskin şəkildə ye-

nidən döndərdi *(Tempersley. H.W.V. The Foreign Policy of Canning (1822-1827)-L. 1925).*

O, heç kəsi xəbərdar etmədən İngiltərənin yunan və türkləri iki vuruşan tərəf olaraq tanıyacağını bəyan etdi. İndiyədək "qiyamçılar", inqilabçılar, "quldurlar" adlandırılan yunanların tərəf kimi tanınmasından belə çıxırdı ki, İngiltərə yunanların üsyanını qanuni hesab edir və üsyançılar ilk olaraq hansı ərazidə möhkəmlənsələr, həmin ərazi İngiltərə tərəfindən müstəqil dövlət kimi tanınacaqdı.

Onu da qeyd etmək yerinə düşərdi ki, Qafqazda öz mövqeyini möhkəmlətmək istəyən Fətəli şahın ordusu 1826-cı ilin iyulunda Arazı кeçərək sentyabr ayınadək Talış, Şirvan, Şəki, Qarabağ əyalətləri və Yelizavetpol dairələrini fəth etməsinə baxmayaraq, Osmanlıya qarşı başlamış Rusiya, Fransa və İngiltərə müharibəsinin davamı kimi 1827-ci il iyunun 26-da rus qoşunları Fətəli şahın ordusuna qarşı hücuma kecərək Naxçıvanı, iyulun 7-də isə Abbasabadı işğal etdilər. Amma İngiltərənin və Fransanın Rusiya ilə bir cəbhədə olması Moskvanı işğalı sürətləndirməyə sövq etdi.

Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları hücumu genişləndirərək, oktyabr ayının 13-də Təbriz şəhərini ələ keçirirlər. Noyabr ayının 6-da Dehqarqanda yenidən danışıqlar başlayır. Rusiya nümayəndə heyətinə Qafqaz Ordusunun baş komandanı İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger, N.D.Kiselyov və tərcüməçilər - A.A.Bakıxanov və Q.M.Vlaqali daxil idi.

Danışıqlarda Qacarlar dövlətini vəliəhd Abbas Mirzə, Qaimməqam Fərrahi, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud təmsil edirdi.

Təzminat məsələsi üzrə bəzi ciddi narazılıqlar yanvarın

7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Buna görə də rus qoşunları hücumları bərpa etməklə təzyiqi gücləndirirlər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil işğal olunur.

Bu hal sülh müqaviləsinin bağlanmasını sürətləndirir. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə düz saat 24:00-da, Miyanə şəhərindən 33 km şimal-qərbdə olan Türkmənçay kəndində müqavilə imzalanır.

Bu hadisə münasibətilə rus toplarından 101 yaylım atəşi açılır. *(История дипломатии. М.-Л. ОГИЗ, 1945, Т. 3, с. 803).*

Beləliklə, "Türkmənçay müqaviləsi" ilə Şimali Azərbaycan torpaqları bütünlüklə Rusiya imperiyasının səlahiyyətinə keçir. "Türkmənçay müqaviləsi" Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən isə iyul ayında ratifikasiya edilir.

İran şahı Fətəli şahın ratifikasiya fərmanı rus ordu düşərgəsində İ.F.Paskeviçə təqdim edilir. Elə bu ərəfələrdə rus generalı Dibiç Adrianopola (Ədirnəyə) daxil olur. Rus ordusu İstanbulun iki addımlığında ikən, II Mahmud Dibiçə barışıq və sülh təklif edir.

14 sentyabr 1829-cu ildə Adrianopolda Osmanlı türkləri onlara qarşı irəli sürülən şərtlərlə razılaşmağa məcbur oldular. Beləliklə, "Adrianopol" *("Ədirnə")* sülh sazişinə görə Osmanlı imperiyası demək olar ki, Kuban çayının mənsəbindən, müqəddəs Nikolay buxtasınadək olan Qara dəniz sahillərini, eləcə də demək olar, bütün Axalkələk paşalığını ruslara verməli olur.

Ruslar öz ticarət gəmilərinin Dardanel və Bosfor boğazlarından sərbəst keçmə hüququnu əldə etdilər *(Миллер А.Ф. Мустафа-паша Байрактар. Оттоманская империя в начале XIX в. М.-Л., 1947).*

Yunanıstana gəldikdə isə o, müstəqil dövlət elan edilir və yunanlar yalnız ildə 11/2 milyon piastr Osmanlı imperiyasına ödəmək öhdəliyini götürürdü. Yunan əhalisinə Avropada mövcud olan xristian sülalələrindən birinə mənsub şahzadələrdən hər hansını özlərinə hökmdar seçmə imkanı verilmişdi, lakin bu, nə ingilis, nə rus, nə də fransız olmamalı idi…

## COĞRAFIYA VƏ XALQLARIN TALEYI

Tarixi şərait Şimalı Azərbaycanı Rusiyanın tərkibində olmağa məcbur etdi, bu, əlbəttə, zamanın geosiyasi reallıqlarından irəli gəlsə də, həm də xanlıqlararası çəkişmələrin və tayfa şüurundan milli dövlətçilik kimliyinə keçə bilməməyin nəticəsi idi.

Bu məntiqi həqiqətlər hər dövrün diktə etdiyi reallıqlarla həyata keçirilirdi. Ona görə də Azərbaycanın sonradan Sovetlər birliyi tərkibində olmağı dövrün diktə etdiyi məntiqi nəticə idi.

Məhz belə anlarda müstəqilliyi əlindən alınmış millətin taleyi onun önündə durmuş, milləti təmsil edən liderin şəxsi keyfiyyətlərindən çox asılı olur. Əgər bugünkü dünyanın geosiyasi mənzərəsinə baxsaq, keçmişin tarixi şəraitinin bu gün də davam etdiyini başa düşərik. Müasir dünyada cərəyan edən siyasi hadisələrin təhlili, o dövrün imperialist maraqlarının bir daha günümüzdə təkrarlandığını əsas amil kimi üzə çıxarır.

Əgər dünyanın bugünkü geosiyasi vəziyyətinə nəzər salsaq, görərik ki, keçmiş tarixi vəziyyət davam edir və təkrar olunur. Aydındır ki, çağdaş dünyadakı maraqlar olduqca ziddiyyətlidir. Tarix boyu həmişə belə olub. Bundan çıxış edərək demək olar ki, dünyada maraqlar ilə bağlı ziddiyyətlər həmişə beləcə qalacaqdır. Fikrimcə, tarixə bu baxımdan nəzər yetirmək ədalətli olardı. Bu həqiqət tarixin bütün gedişi boyu təsdiqlənib. Amma dünyada bundan sonrakı dəyişiklikləri nəzərə almaqla, regionda yeni geosiyasi strategiyalar işləyib hazırlamaq lazım gələcəkdir.

Bizim region əsasən slavyan və türk etnoslarının bir-birilə çulğalaşdığı coğrafiyadır. Nəzərə alsaq ki, Qafqaz,

İran, Orta və Kiçik Asiyanın, eləcə də Rusiyanın özündəki bəzi muxtar qurumların əhalisinin böyük hissəsini türkdilli xalqlar təşkil edir, onda slavyan-türk xalqları arasında əlaqələri öyrənməyin nə qədər aktuallıq kəsb etdiyini başa düşmək olar.

Rusiyanın tarixi türk xalqlarının tarixi ilə sıx bağlıdır. Baykal gölü ilə Qara dəniz arasındakı böyük areal slavyan və türk xalqlarının həyat fəaliyyəti üçün əsas məkan olub və bu gün də belə olaraq qalmaqdadır. Uzun dövr ərzində bu region müxtəlif xalqların tükənməyən beşiyi olub və tumurcuğunda həm döyüşkənlik, həm də sülhsevərlik keyfiyyətləri formalaşıb ki, bu gün də həmin keyfiyyətləri türk və slavyan xalqlarının timsalında görmək mümkündür. Elə bunun özü slavyan və türk etnoslarının bir-birinə nə qədər yaxın olduğunun göstəricisidir.

1917-ci ildə xalq üsyanı nəticəsində Rusiyada çar rejimi çökdü, hakimiyyəti Knyaz Lvovun başçılığı altında müvəqqəti hökumət ələ keçirdi.

Bu zaman I Dünya müharibəsi davam edirdi, Rusiya Antanta qrupunun müttəfiqi kimi Almaniya və Türkiyəyə qarşı müharibə edirdi. Ancaq müvəqqəti hökumətlə bərabər, İnqilabi Sovet hakimiyyəti formalaşdırılırdı. Bu da Rusiyada ikihakimiyyətliliyə gətirib çıxarırdı.

Bu proseslər bütövlükdə çar ordusunun tamamilə dağılmasına səbəb oldu. Antantanın taleyini təhlükə altına qoyan bu hadisələr ABŞ-ın prezidenti Vilsonu 6 aprel 1917-ci ildə Almaniyaya qarşı müharibə elanına məcbur etdi. 1917-ci ilin noyabrında Rusiyada hakimiyyəti Leninin başçılığı ilə bolşeviklər ələ keçirdilər.

8 noyabr 1917-ci il tarixdə Sovetlərin II qurultayında Almaniya və onun müttəfiqləri ilə sülh haqqında dekret qəbul edildi. 27 noyabr 1917-ci il tarixində isə Almaniya

hökuməti bu müraciətə razılıqla cavab verdi və sülh danışıqları başlandı.

1918-ci il 1 mart tarixində Brest-Litovskdə sülh konfransı öz işinə başladı. Vətəndaş müharibəsindən tam zəifləmiş Rusiya Almaniyaya böyük ərazisini – Qalitsiyanı, indiki Qərbi Ukraynanı və digər məntəqələri təslim edərək sülh sazişi imzaladı.

27 avqust 1918-ci il tarixdə "Brest-Litovsk" sülh sazişinin bəndlərinə əlavə olunaraq "Rus-alman" müqaviləsinin mətni artırıldı.

Beləliklə, Almaniya Sovet Rusiyasını parçalayaraq Sovet Rusiyasından Gürcüstanın müstəqilliyini tanımasını tələb edirdi. Buradan da almanlar Gürcüstandan Bakıya öz ordusunu daxil etməsini istəyirdi. Bu vaxt Şaumyanın başçılığı altında Bakıda, Andranikin daşnak silahlı qüvvələri isə Qərbi Azərbaycanda Azərbaycan türklərinə qarşı soyqırımı törədirdilər.

Ona görə də türklər öz azərbaycanlı qardaşlarını erməni quldurlarından xilas etmək üçün Azərbaycana köməyə gəldilər. Baxmayaraq ki, "Brest-Litovsk" müqaviləsinə əsasən Almaniya Sovet Rusiyası qarşısında türkləri Qafqaza buraxmamaq barədə öhdəlik götürmüşdü, amma Berlin türklərə mane olmayacağına işarə etdi.

Belə ki, hələ Rusiyada Çar II Nikolay devrildikdən sonra Zaqafqaziyadakı yerli qüvvələr Peterburqun hadisələrə hərbi təsir etmək imkanlarının zəiflədiyini anlayaraq Tiflisdəki hakimiyyəti ələ keçirmişdilər.

Keçmiş Çar Rusiyasının Tiflis canişinliyində Zaqafqaziyanın müvəqqəti hökuməti yaradılmışdı. Zaqafqaziya Komitəsi təsis edilmişdi. Bu komitə hökumətin Zaqafqaziyadakı siyasətini həyata keçirirdi. Bu komitənin tərkibinə 2 kadet, 1 menşevik, 1 gürcü federalisti və 1 türk müsavat-

çısı daxil idi. Komitəyə Xarlamov rəhbərlik edirdi.

Lakin bolşeviklərin Rusiyada hakimiyyətə gəlməsi ərəfəsində yeni hökumət öz siyasi qüvvələrini Zaqafqaziyada hərəkətə gətirərək 2-7 oktyabr 1917-ci il tarixində Tiflisdə Qafqaz bolşevik təşkilatlarının I qurultayını keçirdi. Bu qurultayda Qafqaz Dairəsi formalaşdı. Bu dairə komitəsinə Çxakaya, Şaumyan, Caparidze, Maxaradze, Nazaretyan, Kasıyan, Mravıyan, Karqanov daxil idilər. Sonralar Mikoyan da buraya üzv seçildi...

Artıq Rusiyadakı Oktyabr inqilabından sonra Müvəqqəti Hökumət devrilərək 2 noyabr 1917-ci il tarixdə menşevik E.Qeqeçkorinin rəhbərliyi altında Zaqafqaziya Komissarlığı yaranmışdı.

Lakin bu hakimiyyətin də ömrü uzun çəkmədi. 10 fevral 1918-ci il tarixdə bolşeviklər Moskvadan aldıqları hərbi-siyasi dəstək sayəsində regiondakı siyasi hakimiyyəti əlində cəmləşdirmiş seçkili Zaqafqaziya Seymini formalaşdırdılar.

1918-ci il tarixli "Brest-Litovsk" sazişinə görə, Türkiyə tərəfi Zaqafqaziya Seymindən Qars və Batum dairələrini tələb edirdi. Artıq 1918-ci il aprelin 1-də Türk ordusu bu ərazilərə daxil oldu. Türk tərəfi həmçinin Zaqafqaziya Seyminin buraxılmasını və Zaqafqaziya respublikalarının müstəqilliyinin elan olunmasını tələb edirdi. Türklərin tələbinə alman hərbi nümayəndəliyi də dəstək verirdi.

26 may 1918-ci il tarixdə Seym öz fəaliyyətini dayandırdıqdan sonra üç Zaqafqaziya respublikası öz müstəqilliklərini elan etdi...

Türk ordusunun ali baş komandanı Ənvər Paşa Ərəb cəbhəsindən ordusunun böyük hissəsini çıxararaq Cənubi Qafqaza istiqamətləndirdi.

Baxmayaraq ki, bu addım çox riskli idi və sonradan

bunun nəticəsində Ərəb cəbhəsində Türk ordusunun mövqeləri zəiflədiyindən bu vəziyyət 1918-ci ildə ingilis kəşfiyyatçısı T.Lourens Hicazın şərifi Hüseynin oğlu Veysəlin və Fransız ordusunun generalı Allenbinin başçılığı altında olan Antanta qüvvələrinin Dəməşqə qədər irəliləməyinə imkan verdi.

Bu ərazi itkilərinin bahasına xilaskar Türk ordusu Qafqaza girərək azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilən soyqırımın qarşısını aldı və Azərbaycana gəlmiş bu ordu ölkəmizin milli müstəqilliyinin yaranmasına təkan verdi.

Şaumyanın başçılığı altında Bakı Soveti istefa verdi və ingilislərin köməyilə Bakıda "Sentra Kaspi Diktaturası" rejimi yaradıldı.

Türk Ordusu ilə Azərbaycan Milli Ordusunun Gəncədən Bakıya istiqamət götürmüş hücumunun qarşısını heç bir mənfur güvə ala bilmədi. Bakı milli qüvvələrin əlinə keçdi. Tezliklə Azərbaycan Demokratik Respublikasının parlamenti və hökuməti təşkil olundu.

Lakin, zaman Antantanın üzvü olan dövlətlərin xeyrinə işləyirdi. Almaniya Qərb cəbhəsində məğlubiyyətə uğrayırdı.

Fəlakət sürətlə yaxınlaşırdı. Bolqariyanın məğlubiyyəti Antanta qüvvələrinin Avstriya-Macarıstana, oradan da Münhenə yolunu açdı və Osmanlı dövləti ilə Almaniya arasında coğrafi əlaqələrin kəsilməyinə səbəb oldu. Bu da Almaniyanın məğlubiyyətinin əsasını müəyyənləşdirən faktorlardan biri idi.

1918-ci ilin 19 sentyabr gecəsi ingilis ordusu türklərə qarşı total hücuma keçdi. Bir neçə gündən sonra türk ordusunun Fələstində mövcudluğuna son qoyuldu. Sentyabrın sonlarından Antanta qüvvələri Qərb cəbhəsində "Ziqfrid"

xəttini yardılar. Antanta qüvvələrinin hücum əməliyyatları Osmanlı imperiyasının tam məğlubiyyətinə səbəb oldu. 30 oktyabrda Lemnos adasının Mudros limanında ingilis gəmisi "Aqamemnon"da ingilislər türklərlə sülh sazişi imzaladılar. Bu sazişə görə türklər Mesopotamiyadan, Ərəbistandan, Suriyadan, Zaqafqaziyadan və Kilikiyanın bir hissəsindən öz ordusunu çıxarmalı idi.

"Mudros" sazişinə görə, qalib tərəf İstanbula və körfəzlərə, buradan da Qara dənizə çıxış yollarını okuppasiya etməyə hüquqi əsas qazanırdı.

Osmanlının hərbi səhnədə məğlubiyyəti Azərbaycanın ictimai-siyasi elitasının müəyyən dairələrini siyasi dəstək üçün regionda marağı olan dövlətlərin siyasi mərkəzlərində danışıqlara istiqamətləndirdi.

Sözsüz ki, nostalgiya hisslərinə görə regionda bu dairələr üçün daha yaxın sayılan dövlət Türkiyədən sonra Rusiya idi. Regionda Rusiyanı Azərbaycanla əsrlik mədəni çulğalaşma və psixoloji simbiozluq əlaqələndirirdi.

Antanta dövlətləri Paris Sülh Konfransını çağıraraq *(1919-1920)* Türk xalqının əsarət altına alınmasını nəzərdə tutan müqavilə hazırladı və bu konfransda Azərbaycanın italyanların idarəsinə verilməsi nəzərdə tutulurdu. Bu və digər məsələlərlə əlaqədar Əlmərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Versalda Amerika prezidenti Vudro Vilsonla görüşmək istəyir. Vilson nəhayət ki, 1919-cu ilin may ayının axırlarında Azərbaycanın nümayəndə heyətini qəbul edir.

ABŞ prezidenti V.Vilson ilə görüşən Əlimərdan bəy Topçubaşov Azərbaycanın müstəqilliyini tanımağı xahiş edir. ABŞ prezidenti bu təklifin müqabilində "Siz elə bilirsiniz ki, biz müharibəni ona görə aparmışıq ki, cırtdan dövlətlər yaransın" - cavabını verir...

Amerikanlar amorf etnik struktura malik Qafqaz Dövləti yaratmaq ideyası ilə çıxış edirdilər. Lakin sonralar Azərbaycanın Rusiya tərəfindən ilhaq ediləcəyini gördükdən sonra ABŞ və Böyük Britaniya ADR-in dövlət quruluşunu tanıyır. Ancaq bu gecikmiş bir addım idi.

Azərbaycan Demokratik Respublikası süquta uğrayır və 28 aprel 1920-ci il tarixində bolşeviklər tərəfindən işğal olunur. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi dövlətimizin tarixi yaddaşı baxımından çox əlamətdar bir hadisə oldu...

Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi 23 ay müddəti xalqımızın milli yaddaşının ən unudulmaz tərkib hissəsidir.

Digər tərəfdən də Sultan hökumətinə "kömək" adı ilə ingilis qoşunları İstanbulu işğal edir *(16 mart 1920).* Bununla da Antanta qüvvələrinin Anadolunun içərilərinə soxulmağına şərait yarandı.

Yunanıstan ordusu isə 1920-ci il iyun ayının 22-də İzmirdən hərəkətə keçərək 1921-ci ilin yayına kimi Anadolunun dərinliklərinə doğru *(Sakariya çayınadək)* irəlilədi.

Birinci Dünya müharibəsində Avropadan Yaxın Şərqədək böyük bir əraziyə malik dövlət kimi müharibəyə başlayan Osmanlı imperiyası onu Türkiyə olaraq başa çatdırdı. Bu, "qeyri-türklər"lə məskunlaşmış bütün və hətta türklər məskunlaşan bəzi ərazilərin də itirilməsi demək idi. Üstəlik, müharibə başa çatdıqdan sonra hazırlanan məşhur Amerika planında V.Vilsona məxsus "14 bənd"də ilkin variantda Türkiyənin bir dövlət kimi varlığına son

qoyulması da nəzərdə tutulmuşdu.

Əvvəlcə onlar elə düşünürdülər ki, imperiyanın *(Osmanlı imperiyası nəzərdə tutulur - A.M.)* varlığına son qoyub, onu ideokratik əsasdan məhrum edib (burada, sultanlıq institutunun xilafəti-islami liderliyi nəzərdə tutulur) yerində mədəni geosiyasi impotent əldə ediblər, lakin burada anqlosakslar çox önəmli səhvə yol verirdilər: Çünki, birincisi, onlar böyük dövlət xadimi Atatürk faktorunu unutmuş, ikincisi, türk millətinin genoloji olaraq dövlət yaradan milli mental xüsusiyyətlərini nəzərə almamışdılar. Ona görə də Versal konfransı Osmanlı imperiyasının 500 il ərzində mövcudluğu dövründə türk etnosunu, onun ərazi nüvəsinin formalaşdığını tanıdı və onun milli dövlətinin olmasını qəbul etmək məcburiyyətində qaldı.

Osmanlı Dövlətinin I Dünya müharibəsində uğradığı məğlubiyyətdən sonra toplanan Paris Sülh Konfransında düşmən tərəfin təmsilçisi olan və ermənilərə Osmanlı torpaqlarından pay verilməsi üçün çalışan, daha sonra Lozanna Sülh Konfransında "erməni haqlarını" gündəmə gətirən Poqos Nubar Paşanın *(Qabriel Noradunkyan 1908-ci ilin avqust ayından ticarət naziri, 1912-1913-cü illərdə Osmanlı imperiyasının xarici işlər naziri olmuşdu)* başçılıq etdiyi "Erməni Milli Heyəti"nin xəyanətkar missiyası da unudulmamalıdır.

Bu ərəfədə Anadoluda Mustafa Kamal Paşanın başçılığı altında genişlənən milli azadlıq hərəkatı yadelli işğalçıların niyyətlərini puça çıxarmağa başladı. Belə ki, Anadoluda hərbi generallar Mustafa Kamalın başçılığı altında hakimiyyəti ələ keçirərək bu alçaldıcı sülh sazişinin müəyyən bəndlərini qəbul etməyəcəklərini bəyan etdilər. Bununla da türk xalqının işğalçı imperialist qoşunlarına qarşı mübarizəsi başlandı və bu mübarizədə Mustafa Kamalın ilk

köməyinə gələn Sovet Rusiyası və onun lideri Vladimir İliç Lenin oldu. Bu faktlar Azərbaycan ziyalılarının bir qismi arasında Sovet Rusiyasına və onun lideri Leninə rəğbətlə və sovet dövlətinə simpatiya ilə yanaşılmasına əsas verdi.

Düzdür, əgər Sovet Rusiyasına Orta Şərqdə Türkiyə vasitəsi ilə sabitliyin pozulması lazım idisə, Türkiyəyə də Rusiyadan konkret maliyyə, hərbi və "geosiyasi" kömək lazım idi ki, milli ərazilərini nəyin hesabına olursa-olsun, bərpa etsin.

TBMM-nin (Türkiyə Böyük Millət Məclisi) ilk beynəlxalq siyasi aksiyası onun sədri Kamal Atatürkün Türkiyə ilə Sovet Rusiyası arasında diplomatik münasibətlərin qurulması və imperializmə qarşı birlikdə mübarizə aparmaqla bağlı çağırışı oldu.

Sovet hökuməti Atatürkün müraciətinə müsbət cavab verdi və mübarizə aparan Türkiyə hökumətini ilk olaraq tanıdı *(2 iyun 1920-ci il)* və türk xalqına böyük miqdarda pul (10 milyon rubldan çox qızıl pul) və xeyli miqdarda silah və hərbi sursat, rabitə vasitələri və sair ilə kömək etdi.

1921-ci ilin mart ayının 16-da Moskvada RSFSR ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında müqavilə *("Moskva müqaviləsi")* imzalandı.

Moskvada türk nümayəndə heyəti Kreml qarşısında Türkiyə ilə Ermənistan arasında 1920-ci ilin avqust ayının 10-da imzalanmış "Aleksandropol" ("Gümrü") müqaviləsinin şərtlərini tanımaq tələbini qoydu.

Bununla əlaqədar Stalin Q.Çiçerinə (06 mart 1921-ci il) yazırdı *(Кузнецова С. "Московский договор" от 16 марта 1921 года между Советской Россией и Турцией", "Документы внешней политики СССР", М., Госполитиздат, 1959 г., Т. III.)*: "Xahişinizlə əlaqədar sizə RSFSR tərəfindən hansı güzəştlərə gedilə biləcəyini mənim adımdan türk nü-

mayəndələrinə çatdırmağınızı istərdim.

**1**. Batumi dairəsinin böyük hissəsi RSFSR-də qalır. Artvin və Ərdahan Türkiyəyə verilir və RSFSR ilə Türkiyə arasında yeni sərhəd təqribən Liman-Borçxa-Çorox çayı ilə İmerxevi çayı xətti üzrə keçir. Bu, təxmini xətdir, dəqiq sərhədlər isə yaradılacaq komissiya tərəfindən müəyyən ediləcək.

**2.** Hərbçilər Ərdahanı Türkiyəyə güzəştə getməyə razı deyillər, oranı Tiflisin açarı hesab edirlər. Lakin mən (Stalin) hərbçiləri güzəştə getməyə məcbur edəcəyimə əminəm və RSFSR ilə Türkiyə arasında sərhəddin köhnə xətt üzrə, yəni, Qars vilayəti ilə Tiflis quberniyası arasından keçməklə müəyyən olunmasını istəyirəm, burada birinci bənddə qeyd etdiyim dəqiq sərhədlər məsələsini bir daha xatırladıram. Aleksandropol Türkiyə tərəfindən boşaldılmalıdır, özü də bütün dəmir yolu boyunca...

**3.** Naxçıvan məsələsinə gəldikdə, bu barədə son sözü Azərbaycanın nümayəndəsi deyəcək".

Ən nəhayət, 16 mart 1921-ci ildə Moskvada RSFSR ilə Türkiyə arasında imzalanmış dostluq və qardaşlıq haqqında müqavilənin Türkiyə ilə Zaqafqaziya respublikaları arasında təsdiqi kimi 13 oktyabr 1921-ci il tarixində bir tərəfdən Türkiyə, digər tərəfdən isə Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında "Qars müqaviləsi" imzalanır.

Bu çoxtərəfli müqavilə Sovet Rusiyası nümayəndələrinin iştirakı ilə imzalanır və faktiki olaraq, 1921-ci ilin mart ayında Moskvada bağlanmış rus-türk müqaviləsini əks etdirirdi.

Sovet Ermənistanı tərəfindən bu müqaviləni Xarici işlər naziri Askanaz Mravyan və Daxili işlər naziri Poqos Makinzyan imzalayır.

Müqavilə imzalandıqdan bir il sonra üç Zaqafqaziya Respublikası həmin müqaviləni ratifikasiya etdi və ratifikasiya olunan sənəd İrəvanda Türkiyə tərəfinə təqdim olundu. Bu sənədlə faktiki olaraq indiki, hazırda mövcud olan erməni-türk sərhədləri müəyyən olundu. Bu, iki ölkə arasında münasibətləri tənzimləyən yeganə sənəddir. Onun əsasında sonralar erməni-türk sərhədlərində içməli və suvarma suyundan istifadə barədə erməni-türk memorandumu da imzalanır. Və bu gün də müasir Ermənistan ərazisi məhz bu sənədlərə uyğun çərçivələnir və tanınır.

Türkiyə ilə RSFSR arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" müqavilə (16 mart 1921) Türkiyənin mövqeyinin möhkəmlənməsinə kömək etdi. Sakariya çayı sahilində 22 günlük *(23 avqust-13 sentyabr 1921)* vuruşma yunan qoşunlarının ağır məğlubiyyətinə səbəb oldu.

Hadisələrin bu cür inkişafından təşvişə düşən Antanta üzvləri Türkiyənin Sovet Rusiyasına yaxınlaşmasından və gələcəkdə onların özlərinə qarşı yeni blokun formalaşmasından ehtiyat edirdilər.

Keçmiş Osmanlı imperiyasının ərazilərini Ərəbistanda Mesopotamiyada, Şimali Afrikada işğal altına alan ingilislər və italyanlar türklərin gələcəkdə güclənə biləcək Sovet Rusiyası vasitəsi ilə əlindən çıxmış torpaqlarını yenidən geri qaytarmaq şansını İstanbula verə bilməzdilər.

Artıq bu geosiyasi şərait keçmiş Osmanlı imperiyasının ərazilərini əlindən almış ingilis, fransız və italyanları Anadolu çərçivəsinə sığışmış bir Türkiyə ilə danışıqlara başlamağa sövq etdi. Bu şərait Türkiyə əleyhinə koalisiyanı dağıtmağa əsas verdi. Fransa TBMM hökuməti ilə sülh müqaviləsi imzaladı (1921, oktyabr).

İtaliya da Türkiyəyə qarşı hərbi əməliyyatları dayandırdı. 1922-ci ilin avqust ayında artıq öz havadarlarını itirmiş

Yunanıstana qarşı hərtərəfli hazırlıqdan sonra türk qoşunları hücuma keçərək Dumlupınar yaxınlığında yunan qoşunlarını darmadağın etdilər. 1922-ci il sentyabr ayının 18-də isə yunan qoşunları Anadoludan tamamilə qovuldular. 1922-ci il "Mudaniya barışığı" və "Lozanna sülh müqaviləsi"nə *(1923-cü il)* əsasən İstanbul və Şərqi Trakiya azad edildi.

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda da ciddi ictimai-siyasi proseslər baş verirdi. 1905-1911-ci illərdə Səttar xanın başçılığı ilə Təbrizdə milli-azadlıq hərəkatı (Məşrutə hərəkatı) başladı. "Məşrutə hərəkatı"nı həm də cənublu soydaşlarımızın milli azadlıq və demokratik hərəkatlarının ilk "qığılcımı" da adlandırmaq olardı.

"Məşrutə hərəkatı" tarixi mənbələrdə Ana yasa *(Konstitusiya)* inqilabı kimi də qalır. Çünki, bu hərəkatın fikir ataları çağdaş ölkələrdə olduğu kimi, Ana yasaya dayanan yeni dövlət quruluşunu tələb edirdilər. Cağdaş Ana yasaların şərtlərindən biri kimi "Xalq Məclisi"nin formalaşdırılması da tələb olunurdu.

O dövrdə Qacarlar dövləti tam tənəzzülünü yaşayırdı və insan haqları baxımından ölkədə vəziyyət olduqca acınacaqlı idi. Çünki xalq həm feodal mülkədarların, həm də xalqın imkansızlığından istifadə edən sələmçilərin girdabına keçmişdi. Eyni zamanda sadə insanlar hakimiyyətin irticaçı və dözülməz vergi siyasətindən də zərər görürdülər.

Son nəticədə Qacarlar dövlətinin aparıcı şəhərlərində böyük etiraz səsləri ucalmağa başladı. Ruhanilər də xalqın etirazlarına qoşuldu. Şah 1906-cı ilin sentyabr ayının 9-da Məclisə seçkilər keçirilməsi haqqında Əsasnamə imzalamağa məcbur oldu. Həmin ilin oktyabr-noyabr aylarında Məclisə seçkilər keçirildi. Seçkilər keçirildikdən sonra

onun ilk işi Ana yasa layihəsini müzakirə etmək oldu. Müzakirələrdən sonra isə “Ana yasa” qəbul olundu.

Ana yasanın birinci hissəsi 30 dekabr 1906-cı ildə Qacar şahı Müzəffərəddin tərəfindən təsdiq olundu.

1907-ci ilin yanvarında o, vəfat edəndən sonra onun yerinə keçən oğlu Məhəmmədəli şah 1907-ci ilin oktyabrında “Əsas qanuna əlavələr” adı altında yeni “Ana yasa”nın ikinci hissəsini təsdiq etdi. Beləliklə, Ana yasanın qəbul edilməsi ilə məşrutə inqilabının birinci mərhələsi başa çatdı.

Müəyyən dövrdən sonra yenidən irticaçı qüvvələr xalq tələbinin hakim rejim tərəfindən icra olunmasını Məhəmmədəli şaha məğlubiyyət kimi təlqin etməyə başladılar. Bu irticaçı xəttin başında duran şəxs Baş nazir təyin olunacaq Əmin-əs-Sultan idi. Yeni Baş nazir Əmin-əs-Sultanın “Ana yasa”da göstərilən konstitusional hüquqlarının pozulması ilə nəticələnən “islahatları” xalqın hiddətinə səbəb oldu.

Təbriz, Məşhəd, Qəzvin, Kirman və Şiraz kimi şəhərlərdə şahın devrilməsi tələbi ilə böyük etiraz nümayişləri və üsyanları təşkil olundu.

1907-ci ildə Təbrizdə başlayan xalq etirazlarının önündə gedən isimlərdən biri Səttarxan və onun əqidədaşı Bağırxan idi. Təbriz əhalisi arasında bu iki şəxsin böyük nüfuzu var idı. Onlar xalq tərəfindən bir lider kimi önə çıxarılmışdı. Cənubi Azərbaycanda baş verən proseslər İngiltərə və Rusiya hakim dairələrini ciddi narahat etməyə başlamışdı.

31 avqust 1907-ci ildə Qacarlar dövlətinin Əfqanıstan və Tibetin nüfuz dairələrinə bölünməsi barədə ingilis-rus sazişi imzalanır. Sazişin şərtlərinə görə, Qacarlar dövlətinin şimal hissəsi Rusiyanın, Cənub hissəsi isə İngiltərənin nüfuz dairəsi elan olunurdu. Bu sazişdən sonra Rusiya və

İngiltərənin köməyinə arxalanan Məhəmmədəli şah 1908-ci ilin iyun ayında Tehranda hərbi vəziyyət elan edir və "Ana yasa" müdafiəçiləri olmuş insanların təqib olunmasına başlanılır.

İyunun 23-də Məclis bombardman edilir və buraxılır. Beləliklə, çevriliş baş verir. 1908-ci ildə inqilabın beşiyi olan Təbrizə şah 40 min nəfərlik silahlı qüvvə yeridir. Təbrizi müdafiə etmək üçün Səttarxanın rəhbərliyi altında Ali Hərbi Şura yaradılır. Şuranın digər üzvləri Səttarxanın əqidədaşı Bağırxan, Əli Müsyo, Hacı Əli, Seyidhaşım idi. 1909-cu ilin aprel ayına qədər Təbriz hərəkatının başında duranlar müəyyən itkilərə baxmayaraq, şahın silahlı qüvvələrini Təbrizə daxil olmağa imkan vermədilər və əks-hücuma keçərək onları məğlub etdilər.

Səttarxanın nümayiş etdirdiyi bu şücaətə görə Azərbaycanın əyalət əncüməni onu xalq sərkərdəsi və ya xalq rəhbəri anlamına gələn "Sərdari-milli" fəxri adına layiq görür. 1908-ci ilin sonuna qədər Azərbaycanın bir çox vilayətləri düşməndən təmizlənir. Məğlub olan və bu səbəbdən qorxuya düşən Məhəmmədəli şah yenidən "Xalq Məclisi"nin Tehranda açılmasına icazə verir.

1908-ci ilin dekabr ayında İkinci "Xalq Məclisi" açılır. "Xalq Məclisi"nin ilk işlərindən biri Səttarxanla Bağırxanın xidmətlərini dəyərləndirərək, onlara təqdim edilməsi üçün qızıl hərflərlə həkk edilmiş "Şərəf" nişanının hazırlanmasına qərar verməsidir.

Məclis bununla yanaşı, Məhəmmədəli şahın hakimiyyətdən uzaqlaşdırılması və yerinə Əhməd Qacarın şah elan olunması barədə qərar verir. İclasda Müvəqqəti Hökumətin yaradılması, yenidən "Ana yasa"nın bərpası və İkinci Məclisə seçkilər barədə qərarlar verilir...

19 noyabr 1909-cu ildə İkinci Məclisin ilk iclası keçiri-

lir. İkinci Məclis tərkibinə görə daha demokratik idi, çünki burada mülkədarlarla, ruhanilərlə yanaşı, sosial cəhətdən aşağı təbəqələrin nümayəndələri də təmsil olunurdular.

Amma bu da çox çəkmir və yeni devrilmiş Məhəmmədəli şah ölkəyə şimaldan Rusiya qoşunlarını, cənubdan isə İngiltərə qoşunlarını dəvət edir. 1911-ci ilin dekabr ayında rus və ingilislərin köməyi ilə Məhəmmədəli şah çevriliş edərək yenidən hakimiyyətə qayıdır.

Təbriz inqilabının qələbəsi Çar Rusiyasını və imperialist İngiltərəsini çox narahat edirdi. Onlar Səttarxan və tərəfdaşlarını "zərərsizləşdirmək" üçün kəşfiyyat xarakterli fəaliyyətlərini artırırlar. Onları Təbrizdən ayırmağa çalışırdılar. İngiltərənin Xarici işlər naziri Edvard Karlin bu ölkənin İrandakı səfiri Corc Burleyə göndərdiyi teleqramda göstərirdi ki, Səttarxanı və Bağırxanı tezliklə Təbrizdən çıxarmaq lazımdır. Nəhayətdə "Xalq Məclisi"nin üzvləri ələ alınır və onları Məclis tərəfindən mükafatlandırılma adı altında Tehrana dəvət edirlər.

6 mart 1910-cu ildə Səttarxan və Bağırxan azsaylı tərəfdarları ilə Tehrana yola düşürlər. 1910-cu ilin aprel ayında onların gəlişi münasibəti ilə Tehranda qurbanlar kəsilir və sanki xilaskar kimi qarşılanırlar. Onları bir müddət Tehranda qalmağa razı salırlar...

7 avqust 1910-cu ildə milliyyətcə erməni olan daşnak Yefrem Davidsyanın başçılıq etdiyi Tehranın polis qüvvələri gecə ikən Səttarxanın qüvvələrini xaincəsinə mühasirəyə alırlar. Baş verən silahlı qarşıdurmada Səttarxan odlu silahdan açılmış atəş nəticəsində ağır yaralanır, amma mühasirədən çıxmağa müyəssər olur. Lakin Səttarxan 9 noyabr 1914-cü il tarixində aldığı güllə yarasının yaratdığı fəsadlardan 48 yaşında vəfat edir. O, Tehranın Əbdüləzim qəbiristanlığında dəfn olunur.

Səttarxan hərəkatının süqutu ilə Cənubi Azərbaycanın milli azadlıq mücadiləsində bir müddət süstlük yaranır.

1917-ci ilin fevral ayında Çar Rusiyasının süqutundan sonra Cənubi Azərbaycanda yenidən xalq hərəkatının formalaşmasına və milli azadlıq mücadiləsinə təkan verildi. Cənubi Azərbaycanda bu yeni hərəkata Şeyx Məhəmməd Xiyabani rəhbərlik edirdi. 1917-ci ilin avqust ayında Ədalət partiyasından ayrılan Şeyx Məhəmməd Xiyabani Azərbaycan Demokratik Firqəsini yaratdı. Demokratik Firqənin Mərkəzi Komitəsi ilk olaraq əcnəbi silahlı qüvvələrin Qacarlar dövlətindən uzaqlaşdırılması və Cənubi Azərbaycan vilayətlərinə xüsusi muxtariyyət verilməsi ilə bağlı tələblər irəli sürdü. Təbrizdəki milli azadlıq hərəkatından qorxuya düşmüş şah 9 avqust 1919-cu ildə İngiltərə ilə müqavilə bağlayır. Müqavilə əsasında Qacarlar hakimiyyəti tamamilə İngiltərədən asılı vəziyyətə düşür. Bu proseslər qədim Qacarlar dövlətinə milli kimlikdən çıxarıb vassal xüsusiyyəti qazandırırdı.

Cənubi Azərbaycanda bu müqavilə böyük bir etirazla qarşılandı. 7 aprel 1920-ci ildə Təbrizdə üsyan baş qaldırdı. Üsyana Xiyabani başda olmaqla, ictimai idarə heyəti rəhbərlik edirdi.

Şahın ingilislərin tam nəzarətinə düşməsi rusları hərəkətə gətirir. 17 may 1920-ci ildə rus Qırmızı Ordusunun bölmələri ağqvardiyaçıların apardıqları gəmiləri geri qaytarmaq bəhanəsi ilə Gilan vilayətinə daxil olurlar. İyunun 5-də adı olub özü olmayan Qacarlar dövlətinin Xəzəryanı ərazilərində Gilan Sovet Sosialist Respublikası elan olunur. Bu respublikanın Xarici işlər komissarı, gələcəkdə bizim əsərimizin qəhrəmanının Təbrizdə fəaliyyəti dövründə, Cənubi Azərbaycanda əsas simalardan biri olan Seyid Cəfər Pişəvəri idi.

Belə bir vaxtda Şeyx Xiyabaninin başçılığı altında Təbrizdə milli hökumət yaradılır. İngilislər bu proseslərdən narahat olub, daxildəki müəyyən xəyanətkar qüvvələrdən istifadə edərək, 14 sentyabrda Xiyabaniyə qarşı qəsd təşkil edirlər və bu sui-qəsd nəticəsində o öldürülür. Yüzlərlə milli azadlıq mücahidləri həbs edilir, onların bir çoxu edam və sürgün olunur.

1921-ci il iyunun 5-də Gilan Sovet Sosialist Respublikası İran Sovet Sosialist Respublikası adlandırılır. Sovet Rusiyası öz siyasətini bu respublika vasitəsilə İranda həyata keçirməyə çalışır.

Nəticə etibarilə, Moskva Tehran hakimiyyətindən müəyyən tələblər edir ku bu tələblərdən biri də ingilis yönümlü baş nazir Fətullah xan Əkbərin istefası idi.

21 fevral 1921-ci ildə bu istefa həyata keçirilir və bundan 5 gün sonra isə Sovet-İran dostluğu haqqında müqavilə imzalanır. Müqavilənin şərtlərinə uyğun olaraq, Tehran tərəfi üzərinə çox ciddi öhdəliklər götürür.

İndiyə qədər qüvvədə olan bu müqavilə mövcud İran dövlətini Rusiyanın təsir dairəsində qalmağa məcbur edir. Bu müqavilə bu günə qədər də öz qüvvəsini saxlayır. Ruslar Tehran rejimindən öz istəklərini aldıqdan sonra Sovet Rusiyasının bolşevik qoşunları 8 sentyabr 1921-ci ildə İran ərazisini tərk edir.

Sentyabrın 29-da Gilanda qalmış milli qüvvələr Qacar hökuməti ilə danışıqlar aparmaq istəsə də, hücuma hazırlaşan qoşunların komandanı Pəhləvi tərəfindən bu istək rədd olunur.

Noyabrın 2-də Gilan işğal olunur və nəticədə general Rza Pəhləvi İranın guya ərazi bütövlüyünü bərpa edən hərbçi kimi şöhrət qazanır. İran kazak briqadasının zabiti olan Rza Pəhləvi 30 oktyabr 1925-ci ildə Qacarlar sülaləsini devirir.

Bununla da, türk Qacarlar dövlətinin yerində əsasını Pəhləvi sülaləsinin qoyduğu İran fars dövləti qurulur...

Doğrudur, S.C.Pişəvəri 1921-ci ilin fevralında Moskvada "Dostluq və qardaşlıq haqqında" İran-Sovet müqaviləsinə üzdə müsbət yanaşsa da, bunu ingilislərin təsir dairəsinin azalması kimi izah etsə də, daxildə milli qüvvələrin bu oyununun qurbanı olduğunun iztirabını çəkirdi. Real vəziyyəti bolşeviklərə çatdırsa da, artıq gec idi; satılan satılmış, alınan alınmışdı. O, məyus halda Bakıya köçməyə məcbur olur. Bakıda orta məktəblərdə müəllimlik edir, dövri mətbuatda müxtəlif imzalarla məqalə və felyetonlarını çap etdirir. 1927-ci ilin payızında ailəsi ilə birlikdə Xorasan yolu ilə İrana - Tehrana qayıdır.

Bir neçə il Tehranda kitab dükanı işlədir, amma gəlir vermədiyinə görə dükanı satır və 125 tümən aylıq maaşla Tehrandakı Sovet məktəbində müəllimlik etməyə başlayır.

O, rusdilli siniflərə riyaziyyat, tarix, coğrafiya və fars dilini tədris edir. Sovet səfirliyində işləyən Pişəvərinin hər addımı Rza şahın xəfiyyələri tərəfindən izlənilirdi və onun həbsinə hazırlıq gedirdi.

1929-cu il dekabrın son günlərində vaxtilə onunla kitab mağazasında işləmiş Əli Şərqi həbs edilir və onun ifadəsinin əsasında S.C.Pişəvərini güya sovet agenti kimi həbs edirlər və o, bu qurama məhkəmənin qərarına görə Tehranın "Qəsri-Qacar" zindanında 10 il cəza çəkir.

## CƏNUBI AZƏRBAYCAN - DAĞISTAN: TƏBRİZ-MAHAÇQALA

22 iyun 1941-ci ildə SSRİ ilə Almaniya arasında müharibə başladıqdan sonra, 1921-ci il müqaviləsinə əsasən, Sovet rəhbərliyi ölkənin təhlükəsizliyini nəzərə almaqla İran ərazisinə mümkün müdaxilə haqqında bəyanat verdi və sovet ordusu Cənubi Azərbaycana daxil oldu.

O zaman İranın baş naziri olan Fürudi isə ingilis qoşunlarının İranda yerləşdirilməsi haqqında saziş imzaladı və ingilis qoşunları cənubdan da İrana daxil oldular.

Bu hadisədən sonra İranın xarici işlər naziri Süheylinin diplomatik kanallarla İran səfirliklərinə verdiyi ingilisyönümlü siyasət aparmaq tapşırığı sovet rəhbərliyini çox hiddətləndirmişdi və bu göstərişin şah Pəhləvidən qaynaqlandığını da yaxşı başa düşürdülər.

Çox keçmədi ki, Rza şah 16 sentyabr 1941-ci il tarixində hakimiyyətdən uzaqlaşdırıldı və onun yerinə oğlu Məhəmməd Rza Pəhləvi keçdi.

Məhz bu siyasi dəyişiklikdən sonra S.C.Pişəvəri 1941-ci ilin sentyabr ayında həbsdən buraxılır və İran Xalq Partiyasının təsis edilməsində və təşkilatlanmasında fəal iştiraka başlayır.

1943-cü ilin may ayında Pişəvəri "Acer" qəzetinin redaktoru təyin edilir və bu qəzet vasitəsilə sosializm ideyalarının təbliği ilə bərabər, Azərbaycan xalqının İran istibdadı rejimindən çəkdiyi zülmlərlə bağlı geniş məqalələrlə çıxış edir. 1944-cü ildə Pişəvəri Azərbaycandan XIV İran Xalq Məclisinə deputat seçilsə də, Tehran onun deputatlığını tanımır.

Pişəvəri İranda nəşr olunan 44 mütərəqqi qəzeti birləşdirərək "Cəbheyi-azadi" *("Azadlıq cəbhəsi")* yaradır.

* * *

Hələ müharibədən öncə M.C.Bağırov (*1941-ci ilin mart ayında Stalinə göndərdiyi 35 səhifəlik "Güney Azərbaycan haqqında qısa məlumat")* məktubunda yazırdı (keçmiş **Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi - indiki Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi –** ARPİİİSSA, f. № 1, siy. № 89, iş. № 23, səh. 33):

*"İran şah hökuməti İrandakı Azərbaycan xalqının Sovet Azərbaycanına meyl etdiyini bilərək polis rejimini və repressiv tədbirləri gücləndirməyə başlayır".*

1941-ci ilin may-iyun aylarında siyasi cəhətdən aktiv işçilərdən Cənubi Azərbaycana geri qaytarmaq üçün 3816 nəfər səfərbər edilir onlardan 52 briqada yaradılır. Bu tərkibə 82 partiya işçisi, 100 sovet təşkilatının əməkdaşı, 200 təhlükəsizlik işçisi, 400 milis, 70 prokuror, 90 hakim, 245 dəmiryolçu, 42 neftçi-geoloq, 150 mətbəə və nəşriyyat işçisi daxil idi.

Bu fəallara Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi Əziz Əliyev rəhbər təyin edilir. 1941-ci ilin iyun-iyul aylarında Zaqafqaziyada yerləşən 47-ci Sovet ordusu sərhədə doğru irəlilədi.

Dövlət Müdafiə Komitəsinin qərarı və Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının əmri ilə 25 avqust 1941-ci ildə səhər saat 5-dən 7-dək Naxçıvandan Xəzər dənizinin cənub sahilinə qədər bütün xətt boyu SSRİ sərhəd qoşunları, 44-cü və 47-ci ordular, Xəzər Donanması, 8-ci Zaqafqaziya Hərbi Hava Korpusu və 132-ci Yevlax Aviasiya Diviziyası döyüş əməliyyatlarına başlyır və İran ordusu bir neçə saatdan sonra təslim olmağa məcbur qalır.

İran şahının əsgər və zabitləri silah-sursat və texnikasını ataraq döyüş meydanından qaçırdılar.

Sovet qoşunları Cənubi Azərbaycan ostanlarına - Gilana, Mazandarana və Xorasana daxil olurlar. Eyni zamanda İranın cənubundan hərbi əməliyyata başlayan İngiltərə 12 hind diviziyası ilə Kirmanşah, Abadan, Xorrəmabad, Məcidi-Süleymaniyyə, Hörmüz, Bəndər Daylim və digər əraziləri işğal edirlər.

Avqustun 28-də İran Məclisi sovet və ingilis qoşunlarına qarşı müqaviməti dayandırmaq barədə qərar qəbul edir…

Bir məsələni də qeyd etmək istəyirəm ki, M.C.Bağırova Sovet Azərbaycanının kəşfiyyatçıları məlumat ötürürlər ki, Ermənistan SSR-dən olan bir qrup təhlükəsizlik zabitinə rəhbərlik edən Gözalyan İranın sovet qoşunları tərəfindən işğal olunmuş hissəsinin Azərbaycan və Ermənistan arasında təsir zonalarına bölünməsi üçün səylər göstərir.

Məxfi məlumatda bildirilirdi ki, Gözəlyan Ermənistanın Təbrizdə Azərbaycandan daha çox iş apardığını əsaslandırmağa çalışır (sonradan M.C.Bağırov Əziz Əliyevin köməyi ilə bu Gözəlyanı neytrallaşdıracaqdılar; bu məktubla aşağıda tanış olacaqsız - A.M.)

Bu və digər operativ məlumatlar Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovu daha fəal hərəkət etməyə məcbur elədi. O hesab edirdi ki, artıq Böyük Azərbaycan layihəsinin həyata keçirilməsinin vaxtı çatıb. Azərbaycan SSR-də səfərbər edilmiş "Əziz Əliyev qrupu"nu təcili Cənubi Azərbaycana göndərmək və bu pozuculuq işlərinin qarşısını almaq lazım idi.

Avqustun 26-da M.C.Bağırov Stalinə yazırdı (ARPİİİS-SA, f. 1, siy. 89, iş. 1, səh. 1-2):

*"Bizim bölmələrimiz irəlilədikcə, əhali, bir qayda olaraq, bölmələrimizin İran ərazisinə gəlməsini böyük ruh yüksəkliyi ilə*

*qarşılayır, eyni zamanda, yerli hakimiyyət orqanları qaçırlar. Geniş məskunlaşmış ərazilərdə ticarətçilər dükanlarını bağlayır, əhalini ilkin tələbat mallarından məhrum edir. İran hakimiyyəti son vaxtlar köçəri tayfaları intensiv şəkildə silahlandırsa da, lakin bu yerlərdən keçən bölmələrimiz silahları müsadirə etmirlər. Bölmələrimizin arxa cəbhəsində hər cür silahlı aksiyaların təşkili imkanı vardır. Eyni zamanda, bölmələrimiz sürətlə irəlilədiyi üçün hərbi qulluqçular əhali arasında izahat işlərini lazımınca apara bilmirlər".*

M.C.Bağırov nəzarəti ələ keçirmək üçün "Əziz Əliyev qrupu"nu tez bir zamanda Təbrizə göndərməyə çalışırdı. M.C.Bağırov Mərkəzi Komitənin aparatında keçirilən iclasda deyirdi (ARPİİİSSA, f. 1, siy. 162, iş 30, səh. 6): *"Naxçıvana gedərkən 3-4 saat Təbrizdə də oldum... Təbrizin bir neçə yerində 7-8 oğlan və qızla görüşüb onlarla söhbət etmək istədim. Lakin onlar avtomobilimi görən kimi qaçmağa başladılar. Mən onlara Azərbaycan dilində "Bura gəlin" - dedim. Azərbaycan dilində danışdığımı görüb yanıma qayıtdılar... Güney Azərbaycan torpağı bizim əsl Vətənimizdir. Respublikamızın sərhəddində yaşayan vətəndaşlarımız qohumlarından ayrı düşüblər... İran hökuməti ölkəni bölgələrə bölərək Azərbaycanı çox kiçildib (xəritədə göstərir). Bu, yalandır. Tehran da Azərbaycan torpaqlarına daxildir"* - dedim.

Nəhayət, sentyabrın ilk günlərində M.C.Bağırov Güney Azərbaycan məsələsini müzakirə etmək üçün Moskvaya çağırılır. Moskvada söhbət zamanı Azərbaycan SSR-də səfərbər olunmuş qrupun mərhələli şəkildə Cənubi Azərbaycana göndərilməsinə başlanılması barədə razılıq əldə olunur. Sentyabrın ikinci yarısından etibarən "Əziz Əliyev qrupu"nun Təbrizdə fəaliyyətə başlaması qərara alınır. Alt qrupların rəhbərləri də təsdiq edilir: təbliğat üzrə Süleyman Rəhimov, inzibati-təsərrüfat üzrə Mehbalı

Əmiraslanov, xüsusi əməliyyat üzrə Ağasəlim Atakişiyev, sanitar-tibb üzrə Mustafa Quliyev, eləcə də Mirzə İbrahimov *(o, Azərbaycan dilində nəşr olunması nəzərdə tutulan "Ordu" qəzetinin redaktoru təyin edilir).*

2-3 ay ərzində "Əziz Əliyevin qrup"nun sayının 2-2,5 min nəfərə çatdırılması üçün Moskvadan razılıq alınır. Dövlət Müdafiə Komitəsinin qərarı və Zaqafqaziya Cəbhəsinin komandanı, general-leytenant D.Kozlovun 16 sentyabr 1941-ci il tarixli əmri ilə polkovnik-komissar Əziz Əliyev 47-ci Ordunun Hərbi Şurasının üzvü təyin edilir. Sərəncamda deyilirdi (ARPİİİSSA, f. 1, siy. 89, iş 10, səh. 32):

*"Ezam edilmiş bütün yoldaşlar Azərbaycan K(b)P MK katibi və hərbi şuranın üzvü Əziz Əliyevin göstərişlərini rəhbər tutmalıdırlar. Müvəkkillər və hərbi-siyasi hakimiyyət "Əziz Əliyev qrupu"nun işlərinə qarışa, ona əmr edə bilməz. Eyni zamanda, hərbçilər onun işlərinə qarışa və hərbi xarakterli göstərişlər verə bilməzlər. 47-ci Ordunun Hərbi Şurası Azərbaycan SSR-in planlaşdırdığı tədbirlərin həyata keçirilməsi üçün bütün lazımi şəraiti yaratmağı öhdəsinə götürür".*

M.C.Bağırov iki həftə ərzində Cənubi Azərbaycana ezam olunan qrupun üzvləri ilə hər gün görüşlər keçirir və onları təlimatlandırırdı. (Arxiv sənədləri də bunu təsdiq edir.)

Bu görüşlərin birində M.C.Bağırov deyirdi (ARPİİİSSA, f. 1. siy. 162, iş. 28, səh. 1–19): *"Biz birinci dəstədə 500 nəfəri göndəririk. Amma "ay yarımdan sonra kiçik birliklər göndərməklə bu rəqəmi 3000-ə çatdıracağıq... Bilirsiniz ki, bizim Qızıl Ordumuz qısa müddətdə Şimali İranın böyük ərazisini tutmuşdur. Bu ərazilər tarixi Cənubi Azərbaycan torpaqlarıdır. İranın ən böyük şəhərləri - Qəzvin, Urmiya, Miyanə, Marağa, Təbriz, Ərdəbil, Salmas, Xoy, Ənzəli və başqaları bizim əcdadlarımızın*

*vətəni olub. Əgər həqiqəti bilmək istəyirsinizsə, Tehran da qədim Azərbaycan şəhəridir.*

*Bunu da əlavə etmək istərdim ki, Qızıl Ordu orada olduğu halda, biz yüzlərlə insanın gözümüzün qabağında aclıqdan ölməsinə razı ola bilmərik. Əgər içimizdə bir damla belə Azərbaycan qanı qalıbsa, onda biz bir zamanlar zorla parçalanmış xalqın - torpaqlarımızın birləşməsinə nail olmalıyıq...*

*Bunun üçün gücümüz və bacarığımız var... Güney Azərbaycanın zəhmətkeş xalqına kömək etməliyik, nə qədər çətin olsa da. Vəzifə, vicdan, namus, sədaqət bizi buna çağırır... Ona görə də biz liderimiz, yoldaş Stalinə məktubla müraciət edərək, Güney Azərbaycan zəhmətkeşlərinə yardım göstərməsini xahiş etdik... Bu işə cəmi 4-5 gün əvvəl başlamışıq. Məni Moskvaya çağırıb, nə istədiyimi soruşdular. Cavab verdim ki, Güney Azərbaycandakı qardaşlarımıza kömək etmək istəyirik, buna icazə verməlisiniz. Moskvadakı yoldaşlar bizə bunu etməyə icazə verdilər. Güney Azərbaycana yardım elə şəkildə aparılmalıdır ki, nə şah hökuməti, nə də ingilislər bizi İranın daxili işlərinə qarışmaqda ittiham etməsinlər. Sizin vəzifəniz çox məsuliyyətli və şərəflidir. Bu işin öhdəsindən gəlsəniz, parçalanmış xalqın, Azərbaycan xalqının əzəli və əbədi arzusunu həyata keçirmiş olacaqsınız.*

*Bölünmüş ürəkləri, sevgiləri, hissləri birləşdirəcəksiniz ("Türkməncay" ilə bölünmüş xalqımız birləşməlidir!)!*

*Bu, şərəf məsələsidir!"*

Beləliklə, Böyük Azərbaycan layihəsinin əməli icrasına start verilir.

* * *

Bağırov Cənubi Azərbaycana ezam olunmuş qruplarla

görüşlərdə Əziz Əliyevin göstərişlərinə ciddi əməl olunmasını tələb edirdi.

Əziz Əliyevin başçılığı altında fəaliyyət göstərən qrup Cənubi Azərbaycana ezam olunduqdan sonra çox ciddi vəzifələri yerinə yetirməyə başladılar.

Əziz Əliyevin Təbrizdəki ilk işi Cənubi Azərbaycana göndərilən əməkdaşları müxtəlif şəhərlərdə yerləşən hərbi hissələrə yerləşdirmək oldu.

Ezam olunmuş əməkdaşların birinci dəstəsindən Makuya 16, Urmiyaya 22, Zəncana 15, Pəhləviyə 27, Xoya 16, Ərdəbilə 15, Noşəhrə 15 nəfər göndərilir. Birbaşa təyinat almayanların çoxu isə Təbrizdə qalır. İlkin tədbirlər başa çatdıqdan sonra sentyabrın 22-də Əziz Əliyev Tehrana gedərək SSRİ-nin səfiri A.Smirnova görülən işlər haqqında məlumat verir.

Əziz Əliyevin Təbrizdə apardığı ciddi işlərdən biri də şəhərdə şəkər ticarətinə nəzarət edən Budaqyan adlı erməninin pozuculuq fəaliyyətini neytrallaşdırmaq olur.

O, əhali arasında narazılıq yaratmaq üçün şəkərin satışına qadağa qoymuşdu. Bu təxribatı dayandırmaq üçün Təbriz şəhərinin meri və polis rəisi hərbi qərargaha dəvət edilir və onlardan asayişi bərpa etmək tələb olunur.

Aclığın qarsısını almaq məqsədilə sentyabrın 24-də Sovet Azərbaycanından Təbrizə ərzaq karvanı göndərilir. Bakıdan göndərilən ərzaq yardımının siyahısına 800 ton şəkər, 360 ton un, 105 ton buğda, 300 min metr parça daxil idi. 1941-ci ilin sonunadək Cənubi Azərbaycana Bakıdan ümumilikdə 1.484.053 metr parça, 2.548 ton şəkər, 1.371 ton un, 1.814 ton buğda və ümumi dəyəri 2 milyon rubl olan başqa mallar da göndərilir. Əziz Əliyev Cənubi Azərbaycanda həmçinin tayfa liderləri ilə görüşür, onları milli azərbaycançılıq ideyasının ətrafında birləşməyə dəvət edir.

* * *

SSRİ-nin İrandakı səfiri Andrey Smirnov 1941-ci il üçün illik hesabat məruzəsində İran hökumətinin müttəfiqlərə münasibəti ilə bağlı belə yazırdı: *"Qızıl Ordunun işğal etdiyi ərazilərdə demokratik qüvvələrin sərbəst buraxılması ehtimalından qorxaraq, İranın hakim dairələri daha çox ingilislərə yaxınlaşır".* İngilislərin 1941-1942-ci illərdə İranda hərbi-strateji fəaliyyəti aşağıdakılardan ibarət idi (ARDA. f. 28, siy. 4, s.v. 2, vər. 46–62):

1. Hərbi məqsədlər üçün Fars körfəzindən İranın içərilərinə doğru yolların və müdafiə istehkamlarının tikintisi (Zahidan - Məşhəd; Bəndər – Buşir - Tehran, Əhvaz - Təbriz);

2. Yeni ordu qrupunun yaradılması (12 diviziyaya qədər);

3. Kirmanşah, Kuramabad, Həftkel, Ram Hörmüz və Bəndər Diləmin işğalı.

İngilislər işğal etdikləri ərazilərin düşmən ünsürlərindən təmizlənməsini (ingilislərə etiraz edən yerli hakimiyyət orqanlarının həbsləri və dəyişdirilməsi) siyasətini həyata keçirirdilər. Onlar dayanmadan antisovet zəmində şahı və hökuməti *"şimal əyalətlərinin bolşevikləşdirilməsi"* təhlükəsi ilə qorxudurdular.

Britaniyanın keçmişinə söykənən aqressiv siyasətindən müəyyən qorxunun varlığı, eləcə də SSRİ-dən mümkün "bolşevik təhlükəsi" ilə bağlı müəyyən narahatlığın olması İran hökumətinin Amerika Birləşmiş Ştatları ilə dostluq münasibətlərini inkişaf etdirmək xəttini intensivləşdirməsinə səbəb oldu.

Hələ Qəvvam (İranın Baş nazırı) 1942-ci ildə ABŞ nümayəndəsi Uilk qarşısında ingilis və sovet qoşunlarının Amerika qoşunları ilə əvəzlənməsi ilə bağlı təkliflə çıxış

etmişdi. Sovet İttifaqı Hərbi Baş Kəşfiyyat idarəsi xəbər verirdi ki, 1942-ci ilin ortalarından İrana intensiv olaraq Amerika məsləhətçiləri (iqtisadi və hərbi) gəlməyə başlamışdı və s.

10 fevral 1942-ci ildə İran-ABŞ İttifaq müqaviləsinin imzalanması münasibətilə şah və Ruzvelt arasında teleqramların mübadiləsi oldu (teleqramda şah, mahiyyət etibarilə Ruzvelti İranın ərazi bütövlüyü və müstəqilliyinin təminatçısı kimi görürdü).

29 mart 1943-cü il tarixdə ABŞ-İran ticarət müqaviləsi də imzalandı. Bu müqavilə iki dövlət arasında ticarətin inkişafını nəzərdə tutur, gəmiçilik və digər müharibə şərtlərinin təmin edilməsinə imkan verirdi.

İran ABŞ-dan idxal edilən bir çox mallara rüsumları azaltmağa razılaşdı və digər malları, xüsusən də avtomobil məhsullarını inhisar vergisindən 15% azad etdi. ABŞ isə öz növbəsində İrandan idxal etdiyi mallara, xüsusən də xalçalara rüsumları aşağı saldı.

1942-ci ilin ikinci yarısında Amerikanın Tehrandakı missiyası ciddi şəkildə dövlət xadimləri və mətbuatla əlaqə yaratmağa başladı. Eyni şey yerlərdə də müşahidə edilirdi, məsələn, Azərbaycanda amerikalıların yerli dövlət aparatını özünə tabe etdirmək istəyi və ziyalıları təsir altına salmağa cəhd olundu.

Ölkənin iqtisadi və siyasi həyatının bütün sahələrinə nüfuz edən nazirliklərdə və xüsusən də İran ordusunda amerikalı müşavirlər yerləşdirildi. Amerika qoşunlarının yeridilməsi üçün trans-İran dəmir yolunun cənub hissəsi istifadəyə verildi, dəmir yolunun imkanlarının genişləndirilməsi üçün böyük sərmayə qoyuluşları ilə irimiqyaslı layihələrin həyata keçirilməsinə başlanıldı. Bütün bunlar Amerikanın İranda mövqelərinin güclənməsi demək idi.

Aydındır ki, ABŞ-ın İrana belə geniş şəkildə nüfuz etməsi İngiltərənin maraqlarına cavab vermirdi. Bu da şübhəsiz ki, ümumilikdə İngiltərə-Amerika ziddiyyətlərinin artmasına səbəb olmuşdu.

Sovet İttifaqı Hərbi Baş Kəşfiyyat İdarəsinin 14 sentyabr 1942-ci il tarixli arayışından öyrənirik ki, (ARDA, f. 28, siy. 4, s. v. 2, vər. 46-62) Türkiyə də İranda baş verən bu proseslərə laqeyd deyildi. Kürd məsələsi ilə bağlı ingilislərlə türklər arasında müəyyən gərginlik yaşanırdı. Türklər Cənubi Azərbaycanda təbliğat işlərini xeyli gücləndirir, Azərbaycanın hər yerində intensiv kəşfiyyat işləri aparmağa başlayırlar; Azərbaycanda öz təsirlərini gücləndirmək üçün azərbaycanlılarla kürdlər arasındakı ziddiyyətlərdən yararlanaraq bəyan edirdilər ki, Azərbaycan əhalisini kürdlərin soyğunçuluğundan yalnız Türkiyə xilas edə bilər.

Bu istiqamətdə M.C.Bağırovun Əziz Əliyevə təlimatları belə idi (ARPİİİSSA, f. 1, siy. 89, iş. 10, səh. 9-11): *"İndi bir çoxları Güney azərbaycanlılarına sahib çıxmağa başlayıblar, Bunlardan da biri Osmanlı türkləridir. Yəqin ki, onlara belə bir əmr gəlib və onlar Güney azərbaycanlılara qohum olduqlarını təbliğ etməyə başlayıblar. Onlar indiyə qədər harada olublar? Onların yolunu kim kəsmişdi? İş o yerə çatıb ki, Tehranla Ankara arasında mübahisə başlayıb. Sanki beş milyonluq Azərbaycan xalqı kimsəsiz qalıb. Məqsədlərimiz bizə aydındır, yolumuz aydındır... Biz sovet azərbaycanlıları deyə bilərik ki, artıq biz məqsədimizə nail olmuşuq... qədim dövlətçiliyə, min illik tarixə malik olan insanlar, azərbaycanlılardır".*

Eyni zamanda sovet hərbi kəşfiyyatının nümayəndəsi yazırdı (ARDA, f. 28, siy. 4, s. v. 2, vər. 46–62): *"Güman etmək olar, türklər müharibədən sonra Azərbaycanın Türkiyəyə birləşdirilməsi üçün zəmin hazırlayırlar. Lakin türklər, məsələn,*

*Makinsk bölgəsində kürdlərə daha çox diqqət yetirir. Cəlali qəbiləsinin başçılarından biri olan Ömər xanı güclü şəkildə dəstəkləyirlər. Şahpur bölgəsinin kürd liderlərindən biri Kotasda türklərlə sıx bağlıdır".*

Cənubi Azərbaycanda həyata keçirilən "*Böyük Azərbaycan*" layihəsi nəinki İran irticasını, həm də regionda aktivləşən bir çox qüvvələri narahat etməyə başlamışdı.

Əziz Əliyev M.C.Bağırova rəhbərlik etdiyi "Qrup"un işi və Cənubi Azərbaycanın vəziyyəti haqqında ilk olaraq geniş hesabat göndərir .

**Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova**
**"Cənubi Azərbaycanda vəziyyət haqqında"**
(ARPİİİSSA, f. 1, siy. 89, iş. 4, səh. 33–45).

*Əhali sovetlərin İrana daxil olmasını sovetləşmənin elementi kimi qəbul edirdi. Amma biz siyasi işçilərimizə tapşırmışıq ki, hansısa şübhəli qüvvələrin törətdiyi bu təxribatı dayandırsınlar. Sovet ordusunun hissələrinin yerləşdiyi bütün şəhərlərdə və yaxın kəndlərdə əhali arasında geniş təbliğat işlərinə başladıq. Yayılan təbliğat vərəqələrinin əhaliyə güclü təsiri var.*

*Bizə bir çox yerlərdə kəndlilər açıq şəkildə deyirdilər: "Əgər siz getmək istəsəniz belə, biz Qızıl Ordunun İran Azərbaycanını tərk etməsinə icazə verməyəcəyik". Artıq Azərbaycanın bütün bölgələrində əhali İranın dövlət orqanlarının törətdiyi qanunsuzluqlardan bizə şikayət etməyə başlayıblar. Biz onları hər cür qoruyuruq. Əhali tərəfindən hərarətlə qarşılanan "Vətən yolunda" qəzetinin artıq iki nömrəsini Azərbaycan dilində nəşr etmişik. Urmiya və Pəhləvidə Azərbaycan dilində qəzetin nəşrinə böyük ehtiyac var".*

*Təbrizdə 15 il ərzində Azərbaycan dilində bir dənə də olsun elm, texnika, poeziya və ədəbiyyat sahəsində ali, yazıçı və şairlərin yaradıcılığının inkişafı üçün şərait yaradılmayıb; hamısı şah rejimi tərəfindən təqib olunublar. Zeynal Gənci, Turxan*

*Gənci, Nadir Fitrət, Ruhi, Sadiq Naxçıvan, Qeybullah Cavid və başqaları kimi Təbriz şair və yazıçıları heç bir əsərini çap etdirə bilmirdilər.*

*Məktəblərdə bir qayda olaraq, rəhbər vəzifələr farslar tərəfindən zəbt edilibdir. Professor-müəllim heyətinin əsas hissəsi mövcud nizam-intizamın əleyhinə çıxıb, xalq təhsili sistemində köklü dəyişiklik, məktəblərdə dərslərin Azərbaycan dilində keçirilməsini, farslara görə imtiyazların aradan qaldırılması tələblərini irəli sürür.*

*Şəhərlər və kəndlər son dərəcə antisanitar vəziyyətdədir. Hazırda həkim qrupları rayonlar üzrə sanitar xəritələrin tərtib edilməsi üzərində işləyirlər. Oktyabrın 6-da professor Fəxrinin rəhbərliyi ilə Təbriz şəhərinin yerli həkimləri ilə qarnizonun hərbi həkimləri arasında görüş keçirildi. Qadınlar arasında işləmək üçün mama və qadın həkimlərdən ibarət orta səviyyəli tibb kadrlarına təcili ehtiyac var.*

*İqtisadi cəhətdən də bizə qarşı təxribatlar intensivləşmişdir. Təbriz vilayətinin valisi özü təxribatçıların himayədarıdır. Bir çox sənaye müəssisələrinin işləmədiyini, iri tacirlərin bir hissəsinin Tehrana və ingilislərin işğal etdiyi ərazilərə getdiyini bilən qubernator bizim tələblərimizə baxmayaraq, son vaxtlara qədər iqtisadi həyatı normallaşdırmaq üçün heç bir tədbir görmürdü və hər dəfə bundan çəkinirdi. Yalnız bu yaxınlarda onun əməlləri ilə bağlı məsələnin Tehrandakı səfirliyimiz vasitəsilə İran hökumətinin diqqətinə çatdırılacağı barədə ciddi xəbərdarlıq edildikdə, hiss olunur ki, İran hökuməti daha qətiyyətli tədbirlər görməyə başladı.*

*Yoldaş Bağırov!*

*Təbrizdə və digər şəhərlərdə Qızıl Ordu əsgərləri tərəfindən ayrı-ayrı məntəqələrdə talanlar da baş veribdir, onlar gecələr silah axtarışı adı ilə ev-ev gəzib pul tələb edirlər. Belə faktlar çox olur və biz belə halların qarşısını almaq üçün müvafiq tədbirlər*

*görürük. Digər tərəfdən , Ermənistan SSR Xalq Daxili İşlər Komissarının müavini Gözəlyan trofey avtomobili mənimsəyibdir və geri qaytarılması ilə bağlı təkrar tələblərimiz nəticəsiz qalıbdır.*

**47-ci Ordunun Hərbi Şurasının üzvü polkovnik-komissar Əziz Əliyev,**

**24.10.1941-ci il.**

* * *

SSRİ-nin İrandakı səfiri A.Smirnov 1941-ci il üçün illik hesabat məruzəsində yazırdı (ARDA, f. 28, siy. 4, s. v. 2, vər. 46-62):

*İranda - Kürdüstan və Luristanda ingilislər kürd tayfalarının başçılarını və lurları İngiltərə ilə əməkdaşlığa razı salmağa çalışırdılar. Eyni zamanda Qaşqaylar və Bəxtiyarilərlə də iş aparılırdı. Xuzistan Şeyxinin rüşvətə meyilliliyindən istifadə edib, onunla sıx əlaqələr qurmuşdular. Onlar Xuzistan ərəblərinə müharibədən sonra müstəqillik vəd edirdilər. Müstəqil Kürdüstan istəyən məşhur kürd hərəkatının liderlərinə ingilislərin gizli dəstəyi də var idi. İngilislər İranın dövlət aparatına öz adamlarını yerləşdirmək üçün hər cür səy göstərir və kino, radio verilişləri, kitab mağazaları, jurnallar və s. ilə böyük təbliğat aparırdılar.*

Ona görə də M.C.Bağırov digər təlimatında Əziz Əliyevə xəbərdarlıq edirdi ki, kürd məsələsində diqqətli olmaq lazımdır (ARPİİİSSA, f. 1, siy. 89, iş. 4, səh. 91-92): *"Kürd məsələsi İran və Türkiyə siyasətində ən həssas nöqtə və ingilislərin əlində ən sevimli silahdır. Biz bunu heç vaxt unutmamalıyıq, xüsusən də bu dəqiqə. Kürdləri Güney Azərbaycanın azərbaycanlıları ilə barışdırmaq üçün hər şeyi etməliyik və bunun əsasında bütün vasitə və qüvvələrlə kürdləri özümüzə yaxınlaşdırmalı, azərbaycanlılara kömək etdiyimiz kimi onlara da kömək etməliyik".*

Digər bir tərəfdən M.C.Bağırova ünvanlanmış Sovet İt-

tifaqı Hərbi Baş Kəşfiyyat İdarəsinin arayışında (ARDA, f. 28, siy. 4, s. v. 2, vər. 46-62) göstərilirdi:

*"Kürdlərin muxtariyyət və müstəqillik uğrunda mübarizəsi öz ictimai məzmununa görə feodal-tayfa qruplaşmalarının siyasi mərkəzləşməyə qarşı mürtəce müdafiəsidir. İranda kürd separatizmi həmişə xarici qüvvələrin silahı olub. Kürdlərin bu səhv xəttindən qəti şəkildə imtina etməliyik... Bu, o demək deyil ki, biz kürdlərlə hər cür təmasdan və bu əlaqələrdən öz maraqlarımıza görə istifadə etməkdən əl çəkməliyik, lakin Şimali İranda siyasi işimizdə azərbaycanlılara xüsusi önəm verilir və verilməlidir. Kürd soyğunlarının aradan qaldırılmasında azərbaycanlılara kömək göstərilməlidir. Bu, müvafiq olaraq İrandakı digər qəbilələrin separatçı hərəkatlarına da aiddir".*

Məhz bu ziddiyyətlərə son qoymaq üçün təlimata uyğun olaraq Əziz Əliyev yerli tayfalarla iş aparmağa başlayır və qısa müddətdə bu iş öz nəticəsini verir. Biz bunu M.C.Bağırovun Əziz Əliyevə yazdığı məktubdan da başa düşürük (ARPİİİSSA, f. 1, siy. 89, iş. 4, səh. 93): *"Assuriyalılar, məsələn, həmişə ingilis yönümlü olublar və eyni zamanda Britaniya kəşfiyyatının agentləri olublar, ona görə də onların bugünkü fəaliyyəti müəyyən dərəcədə şübhəlidir. Sizin (Əziz Əliyev nəzərdə tutulur - A.M.) Təbriz ziyalılarının, şahsevən və kürd tayfalarının başçılarının Bakıya gəlməsi ideyanızı bəyənirəm, lakin onların görüşünü yüksək səviyyədə təşkil etmək lazımdır".*

Bu göstərişə əsasən noyabrın 18-də Şahsevən tayfalarının başçıları, noyabrın 20-də Təbriz ziyalılarının nümayəndələri, 27-də isə kürd tayfalarının başçıları Bakıya gəlirlər. M.C.Bağırov hər üç nümayəndə heyətini yüksək səviyyədə qəbul edir. Bu görüşdə Bağırov vurğulayır (ARPİİİSSA, f. 1, siy. 89, iş. 10, səh. 137-138):

*"İran hökuməti Azərbaycandan götürdüyü sərvətin heç ol-*

*masa bir hissəsini bu regionun abadlaşdırılmasına xərcləməmişdir. Ona görə də biz səsimizi ucaltdıq və dedik ki, bəsdir, beş milyonluq xalqı yoxdan saymaq.*

*Görünür, nəinki İranda yaşayan azərbaycanlı qardaşlar, hətta İran hökumətinin özü də bunu başa düşüb; lazım gəlsə, yenə səsimizi ucaldacağıq. Hanı məktəblər, hanı Azərbaycan dili, hanı təhsil, hanı Azərbaycan dilində qəzetlər, kitablar?*

*Bu sualları onlara verəcəyik. Amma indi vaxtı deyil... Biz istəyirik ki, Azərbaycan xalqına öz üzərində sərəncam vermək hüququ verilsin. Biz azərbaycanlı olduğumuza görə fəxr etməliyik. Biz şərəfin nə olduğunu bilirik. Qul olmağı dayandırın, onilliklər, əsrlər boyu Azərbaycan xalqı əsarətdə olub... Sözdə, əməldə bir olsanız, böyük işlər görərsiniz... Sizə kömək etmək bizim borcumuzdur. Burada gördüyünüz hər şey Azərbaycan xalqına məxsusdur. Sizin də Azərbaycan övladları olaraq burada öz payınızı tələb etmək hüququnuz var. Amma siz də hərəkət etməlisiniz. Millətin qanı qaynamalıdır".*

Təsadüfi deyil ki, İranın daxili işlər naziri Cahanbani Azərbaycan vilayətinin məmurlarının və imkanlı şəxslərinin iştirakı ilə keçirdiyi iclasda azərbaycançılıq ideyasının İran dövlətçiliyinə nə qədər ziyanlı olduğunu və bu ideyanın qarşısını almaq üçün şiə birliyinin təbliğinə güc verməyi əsas təlimat hesab edirdi.

**Qeyd:** Təəssüf ki, bu gün də belə təhdidlər davam edir. Azərbaycan xalqı varlıq tarixi ərzində belə təhdidləri, hədələri çox görmüş və bundan böyük əziyyətlər, iztirablar çəkmişdir. Belə təhdidlərin qarşısında duruş gətirmək üçün hər bir oturuşmuş dövlətin mütləq təhlükəsizlik konsepsiyası olur. Təhlükəsizlik konsepsiyasının bir çox elementləri var. Onların da ən vacib elementlərindən biri milli ideologiyadır. Bizim milli ideologiyamız məhz azərbaycançılıqdır. Qısaca olaraq milli ideologiya ölkə

vətəndaşlarını birləşdirən, onların həyat qayələri, hansı məqsədlərə çatmaları və bunun üçün nələr etmələri barədə konsepsiyadır. Bunun da baza prinsiplərindən biri milli identifikasiyadır.

Azərbaycan xalqı multikultural, multikompenentli bir xalqdır, buna görə də milli ideologiyadan və milli identifikasiyadan danışanda biz həm də bu fakta xüsusi diqqət yetirməliyik, çünki müxtəlif xarici qüvvələr, ayrı-ayrı təbliğat və təşviqat mərkəzləri, ideoloji təxribatlar yolu ilə Azərbaycan xalqını içəridən parçalamağa çalışırlar və ona qeyri-elmi, yad ideyalar yeritməyə çalışmaqdadırlar. Bununla da ictimai şüurda çaşqınlıq yaratmağa cəhd edirlər. Milli identifikasiya barəsində biliklər siyasi mübarizə mövzusu olmalı deyil. Əlbəttə, plüralizm demokratik cəmiyyətin elementidir və bunun olması təbiidir. Ancaq milli identifikasiya və milli ideologiya milli təhlükəsizliyin elementi olduğu üçün daha ciddi yanaşmanı tələb edir. Elmi cəhətdən milli identifikasiya üçün baza olaraq antropoloji status və millətin genetik statusu əsas götürülür.

Birinci milli antropoloji status dedikdə, milli antropologiyanın öyrənilməsi, ikinci element isə etnogenetik tədqiqatların (buna bəzən populyasiya genetikası deyirlər) aparılması nəzərdə tutulmalıdır.

Biz Azərbaycan ərazisindən tapılan qədim insan qalıqlarını paleoantropoloji və genetik cəhətdən təhlil etməklə, Azərbaycanın dünya paleoantropoloji genetik tədqiqatlar dövriyyəsinə və fazasına daxil olmasına şərait yaradacağıq. Azərbaycan ərazisində ən qədim, dünya arxeologiya elmi tərəfindən qəbul olunan və təsdiqlənmiş mədəniyyətlərdən biri də qədim Kür-Araz mədəniyyətidir. Kür-Araz mədəniyyətinin qalıqları müsair Azərbaycan Respublikasında, Qərbi Azərbaycanda (indiki Ermənistan

ərazisində), eləcə də Cənubi Azərbaycan istiqamətində mövcuddur və hətta Xəzər dənizi boyunca şimala doğru Dağıstana qədər uzanır və bu ərazini əhatə edir.

Kür-Araz mədəniyyətinə aid qazıntılardan biri də Saatlı rayonunun Seyidlər kəndi yaxınlığında aparılmış və orada qədim insan məskəni tapılmışdır.

Antropoloji elmlər kompleksinə daxil olan sahələrdən biri də antropoloji odontologiyadır. Antropoloji odontologiya dişlərin üzərindəki qırışların öyrənilməsi, bunların təhlilidir, bununla fərdin bu və ya digər antropoloji qrupa aid olması müəyyənləşdirilir. Eləcə də hər hansı antropoloji qrupun daxilində odontoloji əlamətlər, onun alt sisteminin təşkilini öyrənir. Bu, antropologiyanın bir sahəsi olmaqla, onun əlavə tədqiqat istiqamətlərindən sayılır. Müasir dünya elmi buna çox geniş diqqət yetirir və bunun üçün böyük maliyyə vəsaiti xərclənir.

Sovet dövründə Zaqafqaziya ərazisində aparılmış antropoloji tədqiqatlar nəticəsində tapılmış materialların odontoloji xüsusiyyətlərinin tədqiqi bunların sırf Azərbaycan antropoloji tipinə, Azərbaycan əhalisinə aid olduğunu təsdiq etdi və eləcə də göstərdi ki, vaxtı ilə Qafqaz Albaniyası tərkibində olan etnoslar, hansı ki, onlardan bəziləri gürcüləşiblər (məsələn, Kaxetiya əhalisi) odontoloji baxımdan azərbaycanlılarla eynilik təşkil edir. Odontoloji xüsusiyyətlərinə görə azərbaycanlılara yaxın, azərbaycanlılarla eyni olan digər əhali qrupları Azərbaycan ərazisində yaşayan avtoxton kiçik xalqlardır. Üstəlik Cənubi Dağıstanın bəzi etnosları da odontoloji baxımdan azərbaycanlılarla eyni populyasiyanı təşkil edirlər.

Bu da bizim həmin torpaqlarda 5000 il əvvəl yaşayan qədim əhalinin varisi olmağımız barədə tam əminlik yaradır. Yəni, burada biz antropoloji və genetik xüsusiyyətlə-

rin korelyasiyası əsasında çox vacib elmi nəticələr, məlumatlar əldə edirik.

Azərbaycan xalqının antropoloji və etnogenetik məlumatlarını özündə əks etdirən bir bazanın olması bizə qarşı edilən təhdidlər, şantajlar, böhtanlar kampaniyasına, xüsusən də düşmənlərimizin durmadan bizim bu çoğrafiyaya yad insanlar olmağımız barəsindəki uydurmalarına biryolluq nöqtə qoyur. Bununla da milli ideologiyamız və milli təhlükəsizliyimiz üçün əlavə bir ciddi komponent əldə etmiş oluruq.

Azərbaycanın antropoloji və genetik baxımından populyasiyasının tədqiqatlarının bu gün Azərbaycan üçün həm də ona görə böyük əhəmiyyəti var ki, əldə olan bu faktlar Azərbaycanın geopolitik durumuna və strateji moddelləşməyə yeni nəzəriyyələr verəcək və bizə qarşı müxtəlif qonşu etnoslardan, ölkələrdən səslənən, guya Azərbaycan əhalisinin bura gəlmə olması barəsində iddialarını elmi əsaslarla cavablandıracaqdır.

Həmçinin, Azərbaycan əhalisinin indiki antropoloji və genetik xüsusiyyətləri və Azərbaycan ərazisindəki qədim əhalinin poleogenetik və poleoantropoloji tədqiqatı Azərbaycan xalqının həm ideoloji, həm də öz milli indentifikasiyası üçün də çox böyük əhəmiyyət kəsb edir. Belə tədqiqatların aparılması və bu istiqamətdə nəticələrin əldə olunması ilk növbədə azərbaycanlıların milli identifikasiyası haqqında, onların əcdadları və bu yerdə qədim xalq olması barədə elmi əsaslara söykənərək tam dolğun təsəvvür yaratmağa imkan verdi...

Yenidən əsərimizin qəhramanlarına qayıtsaq, biləcəyik ki, Əziz Əliyevin qrupu var gücləri ilə milli qüvvələrin formalaşması istiqamətində işlərini daha da intensivləşdirirdi. Əlbəttə ki, bu fəaliyyət artıq bir çox dairələri narahat

etməyə başlamışdı.

SSRİ Xarici İşlər Xalq Komissarının müavini Vladimir Dekanozov 17 yanvar 1942-ci il tarixində Sovet İttifaqının İrandakı səfiri A.Smirnovun hesabatına istinad edərək M. C.Bağırova ünvanladığı teleqramında bunları qeyd edirdi (ARPİİİSSA, f. 1, siy. 89, iş. 10, səh. 137-138):

**1.** Əziz Əliyev 1941-ci il dekabr ayının əvvəllərində yerli sakinlərin adından Urmiyadakı sovet qarnizonunun komandiri polkovnik Selivanova məktub göndərərək yerli əhalidən silah-sursat götürməməyi, artıq götürülənləri geri qaytarmağı tələb edibdir. Bu məktub isə İran səlahiyyətliləri tərəfindən ələ keçirilmiş və Urmiya valisi bu barədə bəyanatla çıxış etmişdir;

**2.** Ə.Əliyevin müavini Əmiraslanov 1941-ci il dekabr ayının 16-da Urmiya valisinin müavinini həbs edərək Təbrizə gətirib və müavin orada sərbəst buraxılıb. Həbslərə səbəb kürdlərin döyülməsi olub. İndi Əmiraslanov iddia edir ki, qubernator müavininin həyatı təhlükə altında olub və onu həbs adı ilə oradan çıxarıblar;

**3.** Azərbaycan SSR Xalq Daxili İşlər Komissarının müavini Atakişiyev dekabrın 30-da Sərabda torpaq sahibini həbs edib, qubernator bu məsələ ilə bağlı bəyanat verib.

Əslində Dekanozovla M.C.Bağırov dost idilər, amma İrandakı səfir dayanmadan Əziz Əliyev qrupundan Moskvaya şikayət edirdi.

Səfir A.Smirnov yazırdı (ARPİİİSSA, f. 1, siy. 89, iş. 35, səh. 138): "Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi kimi burada geniş tanınan Əziz Əliyev və onun qrupunun işinin belə deşifrə edilməsi bizim üçün faydalı deyil. Onun bu işə rəhbərlik etməsi artıq iranlılar, türklər və ingilislər arasında inamsızlıq və qorxu yaradır. Əliyevin qrupunun işindən təkcə Soheili-

nin deyil, hətta Boulardın və Türkiyə səfirinin də xəbəri var".

Elə həmin gün - 1942-ci il yanvar ayının 17-də M.C.Bağırov V.Dekanozovun teleqramına cavab verir (ARPİİİSSA, f. 1, siy. 89, iş. 35, səh. 3): "Sizinlə danışıqlar apardıqdan sonra Ə.Əliyevdən xahiş olundu ki, yerli idarəetmənin işlərinə qarışmasın, A.Smirnovla sıx əlaqə saxlasın, bütün tədbirləri onunla əlaqələndirsin və yalnız onun razılığı ilə yerli hakimiyyət orqanları qarşısında müəyyən məsələləri qaldırsın.

Bu gün təklif olunub ki, Ə.Əliyev dərhal Tehrana getsin və A.Smirnova bütün məsələləri, o cümlədən Kulajenkovun məruzəsinin mahiyyətini izah etsin.

Yazılı və şifahi izahatlarımla yanaşı, A.Smirnovun Ə.Əliyev qrupunun işini qeyri-obyektiv şəkildə işıqlandırdığını bildirməyi zəruri hesab edirəm.

Bu qərəz Ə.Əliyevin bəzi məmurlarımızla, o cümlədən hərbçilərlə təmasda olmaması, onlarla içki içməməsi, əksinə, onları az-çox təmkinli olmağa sövq etməsi ilə bağlı ola bilər.

Görünür, bütün bunlar yoldaşların xoşuna gəlməyib. Ə.Əliyevin ingilis, türk və digər nümayəndələr qarşısında deşifrə edilməsinə gəlincə, mən qorxuram ki, Ə.Əliyev deyil, onun qrupu deyil, onları deşifrə edən bəzi işçilərimiz özləri deşifrə olunur, tez-tez fərq qoymadan içki içir, şübhəli şəxslərlə əlaqə saxlayırlar. Mövcud vəziyyət, orada başladığımız nəhəng müsbət işin davam etdirilməsi görünür, səfir A.Smirnov tərəfindən birmənalı qarşılanmır".

Burada bir haşiyə çıxıb qeyd edim ki, çox təəssüf, Boyük Azərbaycan layihəsində bizə dedikcə ciddi dəstəyi olan V. Dekanozovu L.P.Beriyanın işi ilə bağlı güllələyirlər.

1953-cü ilin iyununda hərbçilər əvvəl Kabulovun evinə

zorla soxuldular və onu həbs etdilər. Sonra Dekanozov Vladimir Georgiyeviçi, Meşikov Pavel Yakovleviçi, Vladimirski Lev Yemelyanoviçi və Qoqlidze Sergey Pavloviçi götürdülər. Sonra Merkulov Vsevolod Nikolayeviçi həbs etdilər.

Əlbəttə, Beriyaya qarşı qurulan tələsik, qeyri-obyektiv aparılan istintaq, o vaxtların ölçüləri ilə götürsək, şübhəsiz ki, sifarişli və olduqca siyasi idi. Ona görə ki, bu ittihamçılar və onların sifarişçilərinin böyük əksəriyyəti özləri müxtəlif cinayətlər törədərək, günahsız insanları güllələnməyə məhkum etmişdilər. Sanki, onlar bu cinayətlərin şahidi olmuş Beriyanı fiziki cəhətdən məhv etməklə, törətdikləri cinayət əməllərini və niyyətlərini güllələnmiş insanların məzarlarında "gizlətmək" istəyirdilər.

Onu da qeyd edim ki, Stalin dövrünə aid siyasi repressiya haqqında arxiv sənədlərini əldə etmək son dərəcə çətindır. Lakin tarix göstərdi ki, onlar istəsələr də, çalışsalar da, bu sirlərini gizli saxlaya bilmədilər.

Əslində Beriyanın və Bağırovun israrlı, çox vaxt isə aşkar əməlləri müəyyən mənada həmçinin milli maraqlara da xidmət edirdi. Beriya və Bağırov siyasi karyeraları boyunca daha çox yerli kadrlarla işləməyə üstünlük verirdilər. Sovet Azərbaycanında dövlət kargüzarlıq işləri rus və Azərbaycan (türk) dillərində aparılırdı, müharibə vaxtı yerli əsgərlər milli hərbi hissələrdə qulluq edirdilər. Bu iki şəxsin ən böyük xidmətləri isə "Türkmənçay" müqaviləsinə əsasən Rusiya (sonra sovet) və İran tərəfindən (Çar Rusiyası ilə Şah İranı) bölünmüş Azərbaycanın iki hissəsinin birləşdirilməsi ilə bağlı ("qafqazlılar" - onları farslar və amerikanlar belə adlandırırdılar) uzun prosesin başlanğıcını qoydular (bu barədə isə müəllifi olduğum və tam arxiv sənədlərinə söykənən "M.C.Bağırov. Siyasi portret"

kitabımda geniş bəhs etmişəm - A.M.)

Əminəm ki, Beriya və Bağırovun həyatlarının yeni, bilinməyən səhifələri, onların gizli fəaliyyətləri bundan sonra da tədqiqatçılar tərəfindən öyrənilib-işlənilərək açılacaqdır (A.M.).

* * *

1942-ci ilin yanvarında M.C.Bağırov "Əziz Əliyevin qrupu"nu müdafiə etmək məqsədilə yaxın dostları - SSRİ Xalq Daxili İşlər Komissarının müavini V.Merkulova və Xalq Xarici İşlər Komissarının müavini V.Dekanozova müraciət edir.

O yazırdı (ARPİİİSSA, f. 1, siy. 89, iş. 40, səh. 37–40):

*"İngilislər tərəddüd etmədən bütöv qruplar halında təkcə ingilis qoşunlarının yerləşdiyi ərazinin ətrafında deyil, həm də bizim qoşunların yerləşdiyi ərazinin ətrafında gəzişirlər. Üstəlik, hər yerdə əhaliyə, xüsusən də kürdlərə İran hökumətinə qarşı çıxmağı, onlara silah paylamağı tövsiyə edirlər. Maraqlıdır ki, silahları birbaşa kürdlərə təhvil vermirlər, məskunlaşdıqları yerlərdən yük maşınlarında gətirirlər və yaxınlıqda səpələyir, sonra da kürdlərə "filan yerdə silah var", niyə də götürməyəsiniz" deyərək onları istiqamətləndirirlər.*

*Onlar bütün fəaliyyətlərində həm kürdlərə, həm də azərbaycanlılara "biz silahlı üsyanlarla da olsa, müstəqillik əldə etməyinizə qarşı deyilik, ancaq sizin işinizə qarışmırıq, biz İran hökumətinin tərəfdarıyıq" - deyirdilər.*

*Nəticədə, bildiyiniz kimi, bütün bunları bizim Cənubi Azərbaycanda fəaliyyət göstərən siyasi əməkdaşlara aid edərək, onları yerli tayfalara silah verməkdə ittiham edirdilər. Yoldaş Smirnov da sadəlövhcəsinə, faktları yoxlamadan və izahat tələb etmədən, bizim əməkdaşların guya nəzakətsiz və pis davranışları barədə Moskvaya tamamilə əks mövqedən məlumat verir.*

*Halbuki, əslində bizim əməkdaşlarımız özlərini nəinki təmkin-*

*li və təvazökar aparır, hətta bütün bu müddət ərzində onlardan heç biri bölmələrimizin yerləşdiyi ərazidən kənarda olmayıbdır. O ki, qaldı İrandakı bəzi hərbi qulluqçularımızın davranışlarına, Moskvaya bir vaxtlar dolğun materiallar göndərilib... Məsələ burasındadır ki, Sovet İttifaqının Güney Azərbaycan əhalisi, o cümlədən kürdlər arasında artan nüfuzu ingilisləri, türkləri, farsları dəhşətli dərəcədə qorxudur. Ona görə də bütün xarici kəşfiyyat xidmətləri adamlarımızın orada işləməsinə mane olmaq üçün hər əmələ əl atırlar. Mənə elə gəlir ki, bəzi yoldaşlarımız, xüsusən də yoldaş A.Smirnov bütün bunları səhv başa düşür. İkinci bir tərəfdən Güney Azərbaycan əhalisi arasında bir çox işçi qruplarımızın işində paralellik və təkrarçılıq müşahidə olunur.*

*Mən kəşfiyyat idarəsinin işini, İttifaq Xalq Daxili İşlər Komissarlığının göstərişinə baxmayaraq, görünür, orada işləməkdə davam edən Ermənistan XDİK-nin işçilərini nəzərdə tuturam. Onların hamısı yeni agentlər cəlb etmək üçün bir-birini mahiyyətcə deşifrə edirlər".*

Moskvadan səfir A.Smirnova müvafiq göstərişlər veriləcəyi və Ə.Əliyev qrupu ilə münasibətlərdə yaranmış gərginliyin aradan qaldırılacağı vəd edilmişdi. Buna görə də M.C.Bağırov A.Smirnovla əvvəlcədən razılaşaraq Ə.Əliyevə vaxtaşırı Tehrana getməyi tövsiyə edir. Məsələnin mahiyyət baxımından A.Smirnovu bütün işlərdən xəbərdar etmək tövsiyə olundu.

1942-ci ilin yanvar ayının 18-də Qaradağda, Mərənddə, Culfada silahlı basqınlar baş verir. Münaqişələri həll etdikdən sonra vəziyyəti aydınlaşdırmaq üçün yanvarın 21-də Ə.Əliyev Tehrana gələrək, səfir A.Smirnova həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verir, həmçinin onun nöqsanlarının konkret göstərilməsini xahiş edir. A.Smirnov Ə.Əliyevə Bakıya qayıtmağı və Təbrizdəki işə

oradanrəhbərlik etməyi tövsiyə edir. Ə.Əliyev bütün bunlar haqqında məlumatı Bağırova göndərir.

**Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova**

(ARPİİİSSA, f. 1, siy. 89, iş. 40, səh. 37–40).

*"Yoldaş Bağırov!*

*SSRİ-nin İrandakı səfiri yoldaş A.Smirnovun anlaşılmaz və qəribə davranışı barədə mərkəzə məlumat verdiyimizə inanaraq, onun bir daha bizim gördüyümüz böyük siyasi işimizi hər vəchlə gözdən salmağa və bizim fəaliyyətimizin dayandırılmasının zəruriliyini sübut etməyə çalışdığını bildirmək istəyirəm. Sovet - İngiltərə - İran müqaviləsinin imzalanmasının gecikdirilməsinin əsas günahkarı Forudi və Soheilinin (xarici işlər naziri) mürtəce hökuməti olmasına baxmayaraq, A.Smirnov hökumətimizin qarşısına bu hökuməti dəstəkləmək məsələsini qoyur, onu bir hökumət kimi xarakterizə edir.*

*Yeddi ay səfir işlədiyi müddətdə A.Smirnovun heç bir məlumat mənbəyi yoxdur. Onun məlumatlarının əsas təsdiqlənmiş mənbələri Boulard - İngilis səfiri, İranın baş naziri Forudi və xarici işlər naziri Soheili, həmçinin Beloshapkinin (ticarət nümayəndəsinin müavini) qeydləri, eləcə də, onların rəsmi görüşlərindən, danışıqlarından və mətbuat məlumatlarından ibarətdir.*

*Hətta Məclisin Xarici Əlaqələr üzrə Parlament Komissiyasının sədri İqbal 1942-ci il yanvar ayının 14-də A.Smirnovu fəaliyyətsizliyinə, ölkənin ictimai rəyindən təcrid olunmasına, demokratik qüvvələrə dəstək vermədiyinə görə qınamışdı. O, A.Smirnovu həmçinin bədnam faşist agentinin, keçmiş baş nazir Mənsurun Xorasan valisi təyin edilməsinə icazə verdiyinə görə qınadı. İş o yerə çatdı ki, sovet işçilərinin yaşadığı evlərin divarlarına faşist svastikaları və şüarları yapışdırıldı.*

**47-ci Ordunun Hərbi Şurasının üzvü polkovnik-ko-**

**missar Əziz Əliyev,**
**28.01.1942-cı il.**

* * *

Amma çox keçməyəcəkdi ki, SSRİ-nin İrandakı səfiri A.Smirnov və bu oyunun iştirakçıları M.C.Bağırovun zəhmindən qurtula bilməyəcəkdilər. Bir müddətdən sonra ümumiyyətlə, A.Smirnov Tehrandan geri çağırılır...

İranın yeni rəhbəri Məhəmməd Rza şah daha çox ingilislərə arxalanaraq SSRİ - İran, İran - Böyük Britaniya dövlətləri arasında ittifaq sazişinin bağlanması istiqamətində müzakirələri hökumətdən yekunlaşdırmağı tələb etdi. Sovet rəhbərliyi müharibənin kritik dönəmində ABŞ və İngiltərədən aldığı hərbi dəstəyi nəzərə alaraq müttəfiqləri ilə münasibətləri pozmamaqdan ötrü çox da sovet tərəfi üçün əlverişli olmayan müqaviləyə sürükləndi. Məhz bu müqavilənin şərtlərinə əsaslanaraq, sonradan sovet ordusu Təbrizdən çıxmaq məcburiyyətində qalacaqdı…

26 yanvar 1942-ci ildə İran Məclisi Sovet - İngilis - İran ittifaqının müzakirəsini yekunlaşdırdı. Nəhayət, 29 yanvar 1942-ci il tarixində SSRİ tərəfindən səfir A.Smirnov, Böyük Britaniya adından R.Boulard, İran tərəfindən xarici işlər naziri Süheyli Böyük Britaniya, SSRİ və İranın ittifaqı haqqında müqaviləni imzaladılar. Bu müqaviləyə əsasən bəyan edilirdi ki, müttəfiqlikləri İranda heç bir işğal xarakteri daşımır və müharibə qurtardıqdan 6 ay sonra bu əraziləri tərk edəcəklər.

10 fevral 1942-ci ildə Məhəmməd Rza şah Pəhləvi və ABŞ prezidenti Ruzvelt arasında bu müqavilənin bağlanması ilə əlaqədar olaraq təbrik teleqramlarının mübadiləsi baş verir. İran şahı ABŞ prezidentinə göndərdiyi məktubda qeyd edirdi ki, o, ABŞ-ı İranın ərazi bütövlüyünün qarantı kimi görür.

Yuxarıda qeyd etdiyim kimi, bu hadisələr müharibənin ən qızğın günlərində baş verirdi. Sovet rəhbərliyi İngiltərə və ABŞ tərəfindən 2-ci cəbhənin açılmasını planlaşdırırdı. Buna görə də Sovet rəhbərliyi İrandakı fəaliyyətini bir qədər zəiflətməyə məcbur oldu. 1942-ci ilin martı ayından başlayaraq Ə.Əliyev başda olmaqla Sovet Azərbaycanından göndərilən böyük bir dəstə vətənə qayıdır. Amma sovet qoşunları hələ də İranda qalmaqda idi.

Əziz Əliyev Cənubi Azərbaycanda özünü böyük təşkilatçı kimi göstərmişdi.

Təbrizdən qayıtdıqdan sonra o, Azərbaycan K(b)P Mərkəzi Komitəsinin üçüncü katibi (1941-ci ilin sonundan 1942-ci ilin sentyabrına kimi) vəzifəsində çalışır.

Və Əziz Əliyev tezliklə Dağıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilir.

Əziz Məmmədkərim oğlu Əliyevin çoxşaxəli həyatının təxminən yeddi ili Dağıstanla bağlı olur.

Mən kitabımın "Ön söz" hissəsində Dağıstan xalqını sürgündən xilas etmək üçün Dağıstan ağsaqqallarının M. C.Bağırovun qəbuluna gələrək ondan kömək istəmələri və M.C.Bağırovun Stalinə zəng edərək məsələnin həlli ilə bağlı Dağıstanı öz himayəsinə götürməsi barədə yazmışdım.

Əziz Əliyevdən sonra Dağıstanın rəhbəri olmuş Əbdürrəhman Daniyalov o günləri belə xatırlayırdı: (**Абдурахман Даниялов.** *Воспоминания. Махачкала: Даг. кн. изд-во. 1991. с. 222-254)*.

23 sentyabr 1942-ci il tarixdə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XIV plenumunda N.İ.Linkun vəzifəsindən uzaqlaşdırıldı. O, Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsindən və Vilayət

Komitəsinin büro və plenumunun üzvlüyündən çıxarıldı. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsinə Əziz Əliyev təsdiq edildi. Əziz Əliyev "Dövlət Müdafiə Komitəsinin 15 sentyabr 1942-ci il tarixli qərarı ilə əlaqədar Dağıstan partiya təşkilatının mövcud vəziyyəti və vəzifələri haqqında" geniş məruzə ilə çıxış etdi. Sonra plenumda Əziz Əliyev yoldaşın məruzəsi ciddi müzakirə edildi.

Bu baxımdan mən o dövrdə müzakirə mövzusu olan Dağıstandakı fərariliklə bağlı fikirlərimi demək istərdim. Fərariliyə bir çox cəhətdən rayon hərbi komissarlıqlarının, partiya, sovet və komsomol təşkilatlarının işlərinin zəif təşkil olunması şərait yaradırdı...

Bütövlükdə respublikadakı bu hal Dağıstan partiya təşkilatı qarşısında ciddi vəzifələr qoymuşdu *(səfərbərlikdən yayınanların könüllü olaraq hərbi komissarlığa gələrək ordu sıralarına cəlb olunması və bununla da dağlılara vurulmuş ləkənin və rüsvayçılığın aradan qaldırılması).*

Əziz Əliyevə qədər Dağıstan Vilayət Komitəsinin birinci katibi olmuş N.Linkunun müsbət və zəif tərəflərindən artıq danışmışam. Almanlar yaxınlaşdıqca o, demək olar ki, fəaliyyətini dayandırdı, Mahaçqala Müdafiə Komitəsinin sədri kimi vəzifələrini mənə tapşırdı və mənim Hərbi Şurasının üzvü kimi təsdiqlənməyimdən sonra bu proseslərdə aktiv iştirak etmədi.

Etiraf edirəm ki, Mərkəzi Komitə onun bu davranışından xəbər tutdu, çünki tezliklə onların nümayəndə heyəti – Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Xalq Komissarları Soveti sədrinin müavini L.P.Beriya, Zaqafqaziya Cəbhəsinin komandanı İ.V.Tyulenev, Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının üzvü, Azərbaycan Kommunist (bolşe-

viklər) Partiyasının birinci katibi M.C.Bağırov və onları müşayiət edən şəxslər Dağıstana gəldilər. Bu, 1942-ci il iyulun ikinci yarısında idi.

Mən DMSSR Xalq Daxili İşlər Komissarı A.P.Medvedevlə birlikdə Botlixdə idik. Biz rayon partiya komitəsinin katibi M.Taqir Untsukulskinin evində gecələdik.

Gecə saat üçdə Mahaçqaladan gələn zəngə oyandıq. A.P.Medvedevə məlumat verildi ki, L.P.Beriya və Zaqafqaziya Cəbhəsinin Hərbi Şura üzvləri səhər saatlarında Mahaçqalaya yarım günlüyünə səfərə gəlirlər.

Geyinməyə başladım və A.P.Medvedevə şəhərə getməyi təklif etdim. DMSSR Xalq Daxili İşlər Komissarı A.P. Medvedev gecə Mahaçqalaya getməkdən imtina edəndə təəccübləndim.

Onun gecə bizə yolda quldurların mümkün hücumundan, yoxsa Beriyadan qorxduğunu hələ də anlamıram. Mən onu inandıra bilmədim və Tagir Untsukulski ilə biz onu fikrindən daşındırmağa çalışsaq da, o getməkdən imtina etdi. Buna baxmayaraq, Yoskayla *(İosif Aleksandroviç Dzheraşvilinin qısa adı idi; o, demək olar ki, 30 il daimi sürücüm oldu)* gecə saat dörddə Mahaçqalaya yola çıxdıq.

Gündüz saat 12-də artıq Mahaçqalada evdə idim, telefonla öyrəndim ki, 44-cü ordunun qərargahında (indiki Pedaqoji İnstitutun inzibati binası) Hərbi Şura respublikadakı işlərin vəziyyəti haqqında iclas keçirir. Qatar gəlib və onlar Bakıya yola düşürlər. Tez paltarımı dəyişib stansiyaya yollandım.

Məni vaqona buraxdılar. Vaqondakılar Beriya, Merkulov və Bağırov idilər. Məndən fərariliyin səbəbləri və hansı köməyə ehtiyac olduğunu soruşdular. Çörəklə bağlı çətin vəziyyətdən qısaca danışdım (Stavropol diyarından və Çeçenistandan taxılın tədarükü dayanmışdı, dağlıların

öz taxıl ehtiyatları hətta altı aya belə çatmırdı; insanlar bir çox yerlərdə gicitkən və başqa göyərti yeyirdilər). Hərbi xidmətdən yayınanların leqallaşdırılması və cəbhəyə könüllülərin qəbulunun elan edilməsi üçün icazə istəyirik - dedim. Bir dağıstanlıya Sovet İttifaqı Qəhrəmanı adının verilməsi bizim üçün yaxşı stimul olardı - fikrini söylədim.

Beriya, çörək məmulatı istehsalçılarının vergidən azad edilməsinə və könüllülərin leqallaşdırılmasına icazə verdi, Sovet İttifaqı Qəhrəmanı adının verilməsi ilə bağlı rəsmi müraciət etməyi təklif elədi: “Müzakirə edərik”.

O vaxta qədər susmuş M.C.Bağırov mənə bir sual verdi: “Düzdürmü ki, Linkun dağ məskənlərinə getmir?”. Cavab verdim: “Bəli”. Dedim ki, birinci katibin davranışı aktivə mənfi təsir edir.

Sonra Beriya sual verdi: “Sizcə nə etmək lazımdır?” Mən deyirəm: “Linkunu geri çağırın, bizə ondan daha üstün bir adam verin, onda respublikada nizam-intizam olacaq”. Beriya dedi: “Müharibə gedir, belə bir adamı tapmaq olduqca çətindir, bir sınanmış yoldaşımızı vilayət komitəsinin birinci katibi vəzifəsinə göndərəcəyik.

Azərbaycandan gələcək Əziz Əliyevlə işləyəcəksən. Sən onu tanıyırsan”. Bu zaman söhbətimiz bitdi və mən anladım ki, birinci katibin taleyi hələ Beriyanın Mahaçqalaya gəlişindən əvvəl müəyyənləşibmiş.

Sonradan öyrəndim ki, Hərbi Şuranın yığıncağında Linkun dağlıların çətin vəziyyətini gizlətməyə çalışıb, soruşduqda: “Dağlıların gicitkən yedikləri doğrudurmu?” O cavab verib ki, “Burada təəccüblü nə var, mən özüm də həvəslə gicitkən yeyirəm...”

Beləliklə, 1942-ci il sentyabr ayının 16-da SSRİ Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstana rəhbər təyin edilir.

**Dövlət Müdafiə Komitəsinin 16 sentyabr 1942-ci il tarixli qərarından:**

Dövlət Müdafiə Komitəsi qərara alır:

**Dağıstan Muxtar Sovet Sosialist Respublikası haqqında**

N.Linkun Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi vəzifəsindən uzaqlaşdırılsın və Mərkəzi Komitənin sərəncamına göndərilsin.

Yoldaş Əziz Əliyev Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsindən azad edilərək Dağıstan Vilayət Komitəsinin katibi vəzifəsinə təyin edilsin.

**Dövləti Müdafiə Komitəsinin sədri İ.Stalin.**

*(Dağıstan Dövlət Mərkəzi Partiya Arxivi – DDMPA, f. 1, s. 23, iş. 3, s. v. 1).*

23 sentyabr 1942-ci il tarixində Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XIV Plenumunda Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin nümayəndəsi N.V.Kiselev da iştirak edirdi.

Plenumda Dövlət Müdafiə Komitəsinin 16 sentyabr 1942-ci il tarixli qərarı müzakirə edilir və bu qərar əsasında Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsinə əvvəllər Azərbaycan Kommunist Partiyası (bolşeviklər) Mərkəzi Komitəsinin üçüncü katibi işləmiş Əziz Məmmədkərim oğlu Əliyev seçilir.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin plenumunda Kiselev məruzə ilə çıxış edərək plenum üzvlərini Dövlət Müdafiə Komitəsinin qərarı ilə tanış edir. O, respublikadakı vəziyyət və N.İ.Linkunun Vilayət Partiya Komitəsinin birinci katibi

vəzifəsindən azad edilməsinin səbəbləri barədə ətraflı məlumat verir və Dağıstan Vilayət Partiya Komitəsinin yeni birinci katibi Ə.M.Əliyev haqqında fikirlərini bildirir.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi kadrlar şöbəsinin müdir müavini N.V.Kiselevin Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XIV plenumundakı məruzəsindən;**

23 sentyabr 1942-ci il.

*"Çox təəssüf ki, partiyada siyasi iş zəif təşkil olunubdur. Xarakterik haldır ki, 1942-ci ildə 13 rayonda (əsasən dağlarda) partiya komitəsinin katibi yox idi. Təkcə raykom katiblərinin deyil, digər əməkdaşların, şöbə müdirlərinin, təlimatçıların da yerlərdə olması son dərəcə nadir hadisədir. Rayonlara gedərkən səfərlər əksər hallarda ancaq rayon mərkəzinə getməklə məhdudlaşır, rayon partiya komitəsində danışır, çıxıb gedirlər. Onlar kolxozlara nadir hallarda gedirlər və kolxozçularla demək olar ki, heç vaxt görüşmürlər.*

*Dağ qadınları arasında kütləvi siyasi iş xüsusilə zəif aparılır. Partiya-siyasi işin zəif təşkili ucbatından bir çox kənd və aullar, xüsusən də dağlıq rayonlar müxtəlif növ antisovet ünsürlərin yaydığı şayiələrə inanırlar.*

*Kolxozların təsərrüfat zəifliyi, ciddi ərzaq çətinliyi yaradır; həm də əhali arasında kütləvi-siyasi işlərin zəif aparılması dağ kəndlərində ciddi siyasi fəsadlar törədir. Dağlarda fərarilərin sayı artır, quldurluq güclənir, düşmən ünsürlərin antisovet fəaliyyəti güclənir. Deyə bilərik ki, Dağıstanda yüzlərlə fəraridən ibarət, kolxozçuları soyan, mal-qara oğurlayan, fəalları öldürən onlarla dəstə var.*

*Bu günlərdə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Xasavyurt rayon komitəsinin birinci katibi quldurların əlində öldü. Digər ərazilərdə də sovet və partiya işçilərinə qarşı terror*

*aktları törədilir. Quldurlar, fərarilər kolxozlarımızı dağıdırlar. Vilayət partiya komitəsinin işi bərbaddır və yoldaş Linkunun şəxsən özünün çoxlu səhvləri və çatışmazlıqları olmuşdur.*

*Buna görə də partiyanın Mərkəzi Komitəsi və Dövlət Müdafiə Komitəsi bu səhv və çatışmazlıqlara daha dözə bilməyib və Linkunu vəzifəsindən uzaqlaşdırmaq qərarına gəlib və yoldaş Əziz Əliyevi Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsinə təyin edilib.*

*Yoldaş Əliyev Əziz güclü partiya işçisidir. O, yaxşı, güclü təşkilatda - Azərbaycanda - Bakı təşkilatlarında tərbiyə alıb, Azərbaycan K(b)P MK-nın üçüncü katibi işləyib, MK-da bacarıqlı və güclü partiya işçisi kimi tanınıb. Əmin olmaq mümkündür ki, Dağıstan partiya təşkilatı yeni rəhbərliklə, yoldaş Əziz Əliyevin rəhbərliyi altında öz qüvvələrini səfərbər edəcək və respublikadakı vəziyyəti düzəldəcək..."*

(DDMPA, f. 1, s. 23. iş. 3).

1942-ci ilin sonunda vəzifəsinin icrasına başlayan Əziz Əliyev Dağıstanı düşdüyü ağır vəziyyətdən çıxarmaq və Stalinin gözündə Dağıstan xalqına inam hissini bərpa etmək üçün təcili və təsirli tədbirlər görməyə başlayır.

Əziz Əliyev ümumi vəziyyəti və hərbi əməliyyatların intensivləşməsi ilə bağlı Qafqazdakı mürəkkəbləşən vəziyyəti ətraflı təhlil edirdi.

**Respublika ərazisində partizan dəstələrinin yaradılması haqqında**

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun Qərarı:

8 oktyabr 1942-ci il.

Yoldaş Stalinin bu il sentyabrın 5-də verdiyi göstərişə uyğun olaraq, Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qərar verir:

**1.** Respublika ərazisində hər birində 30-50 nəfərdən ibarət 13 partizan dəstəsi yaradılsın.

**2.** Partizan dəstələrinin əsasən ən mühüm yollarda və şəhərlərdə fəaliyyət göstərməli olduğunu nəzərə alaraq, dəstələrin aşağıdakı ərazilərdə yerləşdirilməsi təsdiq edilsin: Xasavyurt, Kumtorkalinski, Buynaksk, Qarabudaxkənd, Botlix, Qunib, Serqokalinski, Dərbənd, Qasumkənd, Axvax və Buynaksk, Mahaçqala, Dərbənd şəhərlərində.

**3.** Müəyyən edilsin ki, hərəsi 5-10 nəfərdən ibarət olmaqla, Babayurqovski, Kazbekovski, Untsukulski, Qumbetovski, Levaşinski, Akuşinski, Daxadayevski, Tsuntinski, Tlyaratinski, Kaxibski, Axvaxski, Lakski, Kulinski, Aqulski və Kuraxski ərazilərində də partizan dəstələri yaradılsın.

**4.** Yakovlev və Semyonov yoldaşlar oktyabrın 10-dək partizan dəstələrinin komandanlığını və siyasi tərkibini seçib Vilayət komitəsinin bürosunun təsdiqinə təqdim etsinlər.

**5.** Partizan dəstələrinin təchizatı üçün məsul şəxslər təsdiq edilsin:

a) Silah və sursat - yoldaş Semyonov P.M.;

b) Yemək, uniforma, alətlər və mətbəx qabları yoldaş B. Snegireva həvalə edilsin.

Dəstələri lazım olan hər şeylə tam təchiz etmək üçün məsul şəxs yoldaş Yakovlev təyin edillsin!

**6.** DMSSR XDİK (Medvedev yoldaş) partizan dəstələrini hazırlamağa cavabdeh şəxs hesab edilsin!

**7.** DMSSR Rabitə şöbəsinin qarşısında (rəis yoldaş Tarasov) öhdəlik qoyulsun ki, radio operatoru hazırlasın.

**8.** Yakovlev və Semyonova yuxarı kurslara keçmək üçün partizanlara təlimat vermək və onların arasından

namizədlər seçilməsi həvalə edilsin.

**9.** Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsindən xahiş edilsin ki, xüsusi ehtiyaclar üçün 10 milyon rubl məbləğində pul, həmçinin Xalq Ticarət Komissarlığı vasitəsilə ərzaq və geyim forması üçün vəsait ayırsın. İkinci məsələ ilə bağlı Mərkəzi Komitəyə teleqram təsdiq edilsin.

**10.** Partizan dəstələrini müvafiq silah və sursatla təmin etmək üçün 58-ci Ordunun Hərbi Şurasından xahiş edilsin.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.

(DDMPA, f. 1, s. 1, iş. 5274, s, v. 115–116).

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin**

QƏRARINDAN:

**Xalq Hərbi Birliklərinin tərkibi haqqında**

13 oktyabr 1942-ci il.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qərar verir:

1. Dagıstanın hərbi komissarı yoldaş Bıçkov, Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Mahaçqala, Dərbənd, Buynaksk şəhər komitələrinin və Xasavyurt rayon katibləri beş gün ərzində Mahaçqala, Dərbənd, Buynaksk və Xasavyurt şəhərlərində 18 yaşdan 30 yaşa qədər silah daşıya bilən qadınlardan və kişi əhalisinin 17 yaşdan 60 yaşa qədər hamısını qeydiyyata alsınlar, aşağıdakı bölmələri təşkil etsinlər:

a) Mahaçqala, Dərbənd və Buynaksk şəhərlərində hər biri üç batalyondan ibarət bir polk;

b) Xasavyurt dağlarında bir batalyon yaradılsın.

2. Kommunist Partiyasının şəhər və rayon komitələri-

nin katiblərinə tapşırılsın ki, on gün müddətində birlik və birləşmələrdə iştirak etməyən 17 yaşdan 60 yaşadək kişi və 18 yaşdan 30 yaşadək qadınları qeydiyyata alsınlar. Onlardan döyüş dəstələri, ümumi hazırlıq, hərbiləşdirilmiş, yanğın təhlükəsizlik və daxili işlər orqanlarında istifadə olunsun.

3. Mahaçqalanın Müdafiə Komitəsinə tövsiyə edilsin ki, xalq milislərinin respublika qərargahını aşağıdakı tərkibdə təsdiq etsin:

1) Xalq milis komandiri Bıçkov Dag-hərbi qeydiyyat və qəbul idarəsi.

2) Xalq milislərinin qərargah rəisi Ladonkin Osoaviaxim Mərkəzi Şurasının sədri.

3) Yoldaş Yakovlev Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Vilayət Komitəsinin katibi.

4) Yoldaş Raciev, Rayon Komsomol Komitəsinin katibi

5) Yoldaş Maqomedov, baş hərbi şöbə...

6) Sov. İK(b)P Vilayət Komitəsinin təsdiqi üçün şəhər/rayon komitələrinin katibləri və Dağıstan hərbi komissarı yoldaş Bıçkov beş gün müddətində yaradılmış Xalq milis hissələri üçün siyasi işçilərdən komanda seçib təqdim etsinlər.

7) Şəhər və rayon komitələrinin katiblərinə tapşırılsın ki, Xalq milis hissələri təlim mərkəzləri, qərargahlar, binalar ilə təmin edilsinlər.

8) Xalq milislərinin hissələrində hərbi hazırlıq 110 saatlıq kompleks təlim proqramı, döyüş vəziyyətinə yaxın şəraitdə formalaşdıqdan dərhal sonra həyata keçirilməlidir.

9) Mərkəzi və vilayət şuralarına tapşırılsın ki, bütün tədris və maddi bazalarını xalq milislərinin qərargahının sərəncamına versinlər.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Da-**

**ğıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 1, iş. 5274, s. v. 127-129).

**Döyüşçü batalyonlarının vəziyyəti haqqında** Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsi Bürosunun qərarından:

13 oktyabr 1942-ci il.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qeyd edir ki, hərbi batalyonlar quldurluğa, fərariliyə və digər düşmən elementlərinə qarşı mübarizədə böyük işlər görmüşlər.

1941-ci ilin noyabr ayının 1-dən 1942-ci ilin oktyabrınadək respublikanın bir sıra rayonlarında hərbi batalyonların iştirakı ilə quldur dəstələri məhv edilib, xeyli sayda fərari və Qızıl Ordu sıralarına çağırışdan yayınanlar saxlanılıb.

Banditizm və fərariliyə qarşı mübarizədə fərqlənmiş altı döyüşçü və komandir Hökumət tərəfindən "İgidliyə görə" medalı, dörd nəfər DMSSR Ali Soveti Rəyasət Heyətinin diplomu və 34 nəfər pul mükafatı ilə təltif edilmişdir.

Kayakentski döyüşçüləri öz işlərinin ən yaxşı nümunələrini göstərdilər. Akuşinski, Kaxibski, Kazbekovski, Xunzax və Buynakski döyüşçü batalyonları da həmçinin.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qərara alır:

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin rayon və şəhər katibləri DMSSR XDİK və XDİK rayon şöbə rəhbərləri aşağıdakı vəzifələri həyata keçirsinlər:

a) On gün müddətində hərbi dəstələrin bütün şəxsi heyətinə baxış keçirmək, onların arasından yad, şübhəli və etibarsız şəxsləri çıxarmaq;

b) Hərbi dəstələrin komandanlığından və siyasi işlər

aparan sınanmış partiya və sovet fəallarının tərkibindən rayon şəhər komitələrinin büro üzvlüyünə namizədliyini müzakirə edib təsdiqləsinlər;

c) Hərbi dəstələrin şəxsi heyəti arasında partiya-siyasi işi gücləndirmək;

q) Hərbi dəstələrdə ciddi hərbi intizam yaratmaq və nizam-intizamı pozanları, qorxaqları və şaiyə yayanları ciddi şəkildə cəzalandırmaq;

e) Hərbi batalyonları at və avtomobil nəqliyyatı ilə təmin etmək;

f) Hərbi batalyonların yataqxanalarında mədəni-məişət şəraiti yaratmaq, bu binalara telefon, radio çəkilişini və müntəzəm olaraq qəzet və jurnalların çatdırılmasını təmin etmək;

6. XDİK DMSSR hərbi batalyonlarının qərargah rəisi yoldaş İsayev döyüş dəstələrinin şəxsi heyətinin silah (tüfənglər, pulemyotlar, qumbaralar, Molotov kokteylləri və s.) əldə etməsini sürətləndirmək üçün qəti tədbirlər görsün. Tankları məhv etmək, hücum və müdafiə döyüşləri və kəşfiyyat aparmaq bacarığı təlimləri intensivləşdirilsin.

7. Xalq Komissarlığının, idarələrin, müəssisələrin, kolxozların, sovxozların rəhbərlərinə, döyüşçüləri və döyüş dəstələrinin komandirlərini operativ iş və növbətçilik üçün sərbəst buraxmaq tapşırılsın.

8. Bu qərarın icrasına nəzarət Sov. İK(b)P Vilayət Komitəsinin hərbi şöbəsi yoldaş Maqomedova həvalə edilsin.

9. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Bürosu Kommunist Partiyasının rayon və şəhər komitələrinin katiblərindən hərbi dəstələrin işini qətiyyətlə yaxşılaşdırmağı, gündəlik nəzarət etmələrinin tələb edir.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 5274, s. v. 121–124).

Həmçinin Zaqafqaziya Hərbi Şurasının və Mahaçqala şəhərinin müdafiə komitəsinin sədri kimi Əziz Əliyev yenicə azad olunmuş Qafqaz torpaqlarından yerli müsəlman xalqlarının sürgününün qarşısını almaq üçün ictimai-siyasi əhəmiyyətli ağsaqqallar qrupu yaradır və bu istiqamətdə xeyli işlər görür.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun Qərarı:**

16 oktyabr 1942-ci il.

**Alman işğalçılarından azad edilmiş Kabardin-Balkar Sovet Sosialist Respublikasının kəndlərinə qocaman alpinistlərdən ibarət nümayəndə heyətinin göndərilməsi haqqında.**

Alman işğalçılarından azad edilmiş Kabardin-Balkar Sovet Sosialist Respublikasının kəndlərinə Dağıstandan ağsaqqalardan ibarət olan aşağıdakı nümayəndə heyəti göndərilsin:

1. Rəhimov Narkomfin - DMSSR-dən nümayəndə heyətinin rəhbəri (dağ yəhudisi);
2. Sadasa Həmzət - Dağıstanın xalq şairi (avar);
3. Xryuqski Tatr - Axtinski, kolxoz sədri (şair, ləzgi);
4. Ömər Əliyev - Mahaçqala (keçmiş qırmızı partizan, dargin);
5. Əhmədov Murtuzəli – Canqa Levaşinski rayonu, Maxinski kənd Sovetinin sədri (dargin);
6. Xaşkalayev Ustarxan, kolxozçu, Mahaçqala rayonu (kumık);
7. Qafurov Abutalıb - Dağıstanın xalq şairi (lak).
8. Voronyuk, "Daqestanskaya Pravda" qəzetinin işçisi

(rus);

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.

(DDMPA, f. 1, s. 23, iş. 13, s. v. 46–47).

Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin bürosunda və plenumlarında sənayenin inkişafı, xalq təsərrüfatı üçün ixtisaslı yerli kadrların hazırlanması məsələlərini qaldırır və həll edir. 1943-cü il yanvar ayının 8-də Dağıstan Vilayət Partiya Komitəsinin Bürosu **"Dağıstanın yerli xalqlarından kadrların hazırlanması, yetişdirilməsi və irəli çəkilməsi haqqında"** qərar qəbul edir.

**Ümumittifaq Kommunist *(bolşeviklər)* Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun Qərarı:**

8 yanvar 1943-cü il.

**Yerli kadrların hazırlanması və təşviqi haqqında**

Sovet hakimiyyəti illərində respublikanın yerli millətlərindən olan kadrlarının hazırlanması, yetişdirilməsi və irəli çəkilməsi istiqamətində xeyli iş görülmüşdür. Yerli millətlərdən olan xeyli sayda işçi sənayeyə və milli iqtisadiyyatın digər sahələrinə cəlb edilmişdir. Yeni sovet ziyalıları yetişdirildi. Partiya ilə sıx bağlı olan, işi irəli apara bilən, düşüncəni oyandıran, qərəzlərlə mübarizə apara bilən minlərlə yeni insan yetişdi.

Lakin respublika idarə və təşkilatlarının rəhbərləri tərəfindən respublikanın yerli əhalisinin sənayeyə və xalq təsərrüfatının digər sahələrinə cəlb edilməsi və onların yetişdirilməsi və təşviqi məsələlərinə kifayət qədər diqqət yetirilməməsi nəticəsində yerli kadrlar hələ də kənarda qalırdı. ÜK(b)P XII qurultayının qərarı ("Milli respublikaların və vilayətlərin orqanları ilk növbədə müvafiq xalqların əxlaq və adətləri dili və həyat tərzini bilən yerli insanlardan qurulsun") hələ də tam mənada yerinə yeti-

rilməmişdir.

Fəhlələrin, partiya, sovet və əksər sənaye və digər təsərrüfat idarə və müəssisələrinin tərkibində Dağıstanın bəzi millətləri tamamilə yoxdur və ya olduqca qeyri-kafi təmsil olunur.

DMSSR (Dağıstan Muxtar Sövet Sosialist Respublikası) ali və sənaye orta təhsil müəssisələrinin tələbələri arasında yerli millətlərdən olan tələbələrin sayı son dərəcə azdır (cəmi 13 faiz).

**Dağıstanın yerli millətlərindən olan kadrların hazırlanması, təbliği və yetişdirilməsi işini gücləndirmək məqsədi ilə Dağıstan Vilayət Komitəsinin Bürosu QƏRARA alır:**

1. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin, Şəhər Komitəsinin və Rayon Komitəsinin kadrlar şöbəsini, bütün xalq komissarlıqlarının və mərkəzi idarə və təşkilatların, sənaye, nəqliyyat və digər təsərrüfat müəssisələrinin rəhbərləri, təhsil müəssisələrinin direktorları yerli milli kadrların seçilməsi, yetişdirilməsinə və yerli millətlərdən olan kadrların irəli çəkilməsi məsələsinə maksimum nail olsunlar, mümkün olan hər şeyi təmin etsinlər;

2. Xalq Komissarlıqlarının, mərkəzi idarələrin, habelə sənaye, nəqliyyat və digər təsərrüfat müəssisələrinin, səlahiyyətli sənaye kooperasiyasının, təhsil müəssisələrinin direktorları və s. rəhbərlərinə 1943-cü ildə aşağıdakı işləri həyata keçirmək tapşırılsın;

a) yerli millətlərdən olan kadrların hazırlanması və irəli çəkilməsi üçün konkret planlar hazırlayır və 1943-cü il yanvar ayının 20-dək onları Sov.İK(b)P Dağıstan Vilayət Komitəsinin kadrlar şöbəsinə baxmaq üçün təqdim etsin;

b) namizədliyi irəli sürülmüş bütün şəxslərin yeni

peşələrə tez və hərtərəfli yiyələnməsi və daha da yüksəlməsi üçün lazımi şəraiti təmin etsin;

c) Dağıstanın dağlıq rayonlarından sənaye, nəqliyyat və digər təsərrüfat təşkilatlarında işləmək üçün işçi qüvvəsinin cəlb edilməsini sadələşdirmək;

ç) işə qəbul olunanlar üçün müvafiq mədəni-məişət şəraiti yaratmaq, yeni işə qəbul olunmuş işçilərlə sistemli şəkildə texniki minimum üzrə dərslər keçirmək, sənətkarlara himayədarlıq etmək;

d) bu kateqoriyadan olan işçilərə rus dilini öyrətmək üçün tədbirlər həyata keçirmək;

e) DMSSR-in yerli millətlərindən olan tələbələrin sayının hər cür artmasına və yaxşılaşmasına nail olmaqla, məktəblərə, texnikumlara və ali məktəblərə yeni qəbul planlarının həyata keçirilməsini təmin etmək;

ə) milli tələbələr üçün rus dilində əlavə dərslər təşkil etmək;

f) dağlı gənclərin ali məktəblərə və orta ixtisas təhsili müəssisələrinə daxil olmaq imkanını təmin etmək, institut və texnikumlarda hazırlıq kursları təşkil etmək.

3. DMSSR Xalq Maarif Komissarlığını - yoldaş Maqomedovu və təhsil müəssisələrinin direktorlarını 1943-cü il yanvar ayının 15-dək Dağıstan Vilayət Komitəsinə kursların açılması qaydası və vaxtı ilə bağlı əməli təkliflər verməyi tapşırsınlar.

a) yerli millətlərdən olan kadrların hazırlanması, irəli çəkilməsi və inkişafı planlarını hazırlayarkən onların tərkibində dağ qadınlarının maksimum sayını təmin etmək;

b) Ən azı 20 qadın dağ işçisini balıqçılıq kooperasiyasında rəhbər iş üçün hazırlamaq;

c) Yüngül Sənaye Xalq Komissarlığı və DMSSR Xalq Sənaye Komissarlığı 1943-cü il yanvarın 20-dək dağ qadınla-

rının işə cəlb edilməsi üçün tədbirlər hazırlayıb Sov. İK(b)P Dağıstan Vilayət Komitəsinə təqdim etsinlər.

ç) Şəhər və rayon komitələrinin katibləri və Fəhlə Xalq Deputatları Sovetlərinin rayon icraiyyə komitələrinin sədrləri dağ qadınlarının kolxozlarda, kənd sovetlərində rəhbər vəzifələrə irəli çəkilməsini təmin etsinlər. Qadınların kurslara və təhsil müəssisələrinə işə cəlb edilməsinə respublika təşkilat və idarələri hər cür kömək göstərsinlər.

4. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsindən və SSRİ Xalq Komissarları Sovetindən xahiş edilsin ki, Dağıstanın ali və orta təhsil müəssisələrində respublikanın dağlıq rayonlarından olan tələbələrini təhsil haqlarından azad edilsin, akademik göstəricilərindən asılı olmayaraq ali məktəblərdə və texniki məktəblərdə təhsil alanlar üçün təqaüd ayrılsın.

5. DMSSR Xalq Maarif Komissarlığını, yerli xalq maarifi orqanları aşağıdakı vəzifələri həyata keçirməyə təhkim olsunlar;

a) son bir ildə ümumtəhsil məktəbinin VIII və IX siniflərini tərk etmiş şagirdlərin təhsilə qayıtmasını təmin etsinlər;

b) ibtidai məktəblərdə tədrisin ana dillərində aparıldığını nəzərə alaraq, pedaqoji texnikumların kadr təminatı əsasən Dağıstanın yerli millətlərindən olan mütəxəssislərin hesabına həyata keçirilsin;

c) qeyri-rusdilli məktəblər üçün müəllimlər hazırlamaq, 1943/1944-cü tədris ilinin əvvəlinə onların buraxılış vaxtını təyin edərək 6-8 aylıq kurslar təşkil etmək. I-IV sinif müəllimləri üçün pedaqoji texnikumlarda və V-VII siniflər üçün isə pedaqoji institutda kurslar təşkil etmək;

ç) 1943-cü il yanvar ayının 15-dək DMSSR məktəbləri üçün ana və rus dilləri müəllimlərinin hazırlanması üçün

praktiki təkliflər verilsin;

6. Kadr hazırlığı ehtiyacları üçün partiya kurslarını təmin etmək və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin kadrlar şöbəsi bir həftə müddətində kadrlar evinə direktor seçilməsini təmin etsin;

7. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin təbliğat və təşviqat şöbəsinə tapşırılsın ki, bir ay müddətində şəhərlərdə partiya-komsomol işinin siyasi səviyyəsini yüksəltmək üçün istehsalatda marksizm-leninizm kursları təşkil etsin;

1943-cü ildə bu ehtiyaclar üçün lazımi məbləğin ayrılması Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsindən xahiş edilsin;

Yoldaş Ələkbərova tapşırılsın ki, bu il yanvar ayının 15-dək lazımi xərclərin hesablanmasını və bununla bağlı Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə təqdim ediləcək məktubun mətninin hazırlanmasını təmin etsin;

8. DMSSR Xalq Maliyyə Komissarlığına tapşırılsın ki, 1943-cü ilin büdcəsində respublika büdcəsindən maliyyələşən xalq komissarlıqları və idarələri, idarə və müəssisə rəhbərləri vasitəsilə yerli millətlərdən kadrların hazırlanması planının həyata keçirilməsi üçün lazımi vəsait ayırsın;

İttifaq və federal tabeliyində olan təşkilatlar 1943-cü ildə öz xalq komissarlıqlarından və qərargahlarından kurs fəaliyyətləri üçün vəsaitin ayrılmasına nail olsun;

9. Respublika və rayon qəzetlərinin redaktorlarına tapşırılsın ki, respublikanın yerli millətlərindən olan kadrların hazırlanması və irəli çəkilməsi məsələlərini sistemli şəkildə işıqlandırsınlar;

10. Komsomolun şəhər komitələri və rayon komitələri, tələbələr, komsomolçular və gənclər arasında kütləvi maarifləndirmə işini hərtərəfli gücləndirməyə, bununla da gənc kadrların yetişdirilməsi və təbliğatı işinin uğurla həyata keçirilməsinə töhfə versinlər;

11. Bu qərarın icrasına nəzarət Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin kadrlar şöbəsinə həvalə edilsin;

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibləri, rəhbər işçiləri, xalq komissarları, müəssisə və təşkilatlar, Xalq Deputatları Sovetlərinin rayon İcraiyyə Komitələrinin sədrləri yerli xalqlardan olan kadrların hazırlanması, yetişdirilməsi və irəli çəkilməsi işini kökündən yaxşılaşdırsınlar;

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu xəbərdarlıq edir ki, milli kadrların yetişdirilməsi və irəli çəkilməsi üzrə işin gücləndirilməsi, heç də yerli olmayan millətlərdən olan kadrlara qayğının zəifləməsi demək deyildir. Milli mənşəyindən asılı olmayaraq, Lenin-Stalin partiyasının işinə sadiq olan bütün vicdanlı, bacarıqlı, sınanmış yoldaşların rəhbər işlərdə qətiyyətlə irəliləməsi təmin olunacaqdır.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 24, iş. 13, s. v. 28–31).

Belə çətin dövrdə cəbhənin insan və maddi ehtiyatlara olan tələbatının ödənilməsi, qaçqın və təxliyə edilmiş vətəndaşların problemlərinin həlli ən birinci məsələ olmasına baxmayaraq Əziz Əliyev mədəniyyət və incəsənət insanlarına da qayğı göstərməyi unutmurdu. Vilayət Partiya Komitəsinin plenum və bürolarında, iclaslarda məktəblərin, teatrların, filarmoniyaların, ali məktəblərin, elmi

müəssisələrin işinə dair məsələlərə daim baxılır və problemləri həll edilirdi.

Milli dildə təbliğat aparan incəsənət qpruplarına çox ciddi şəkildə böyük dəstək verilirdi. Ən çətin vaxtlarda belə Əziz Əliyev mədəniyyət sahəsində aşağıdakı işləri görürdü:

Mahaçqala şəhərində M.Qorki adına Dağıstan Dövlət Teatrı, Kumık Teatrı və Rus Dram Teatrı fəaliyyət göstərir, Buynakskda Avar Respublika Dram Teatrı açılır, Lak Teatrının işi bərpa olunur və 1944-cü ildə Darginsk Teatrı yaradılır. Həmçinin M.Qorki adına Dağıstan Dövlət Teatrında 20, Respublika Avar Teatrında 10 nəfərlik teatr studiyaları yaradılır.

1943-1944-cü tədris ilindən Dağıstan Radio Komitəsinin orkestrinin, mahnı və rəqs ansamblının kadrlarla təmin edilməsi, musiqi məktəbinin işinin bərpası, Xalq Yaradıcılığı Evinin işinin bərpası və emalatxana təşkil etmək üçün Rəssamlar İttifaqına yerlərin ayrılması.

1943-cü ilin iyun ayında rayon və respublika bədii özfəaliyyət kollektivlərinin tamaşalarının keçirilməsi nəzərdə tutulurdu. DMSSR Xalq Komissarları Sovetinin İncəsənət İdarəsinə Kubaçi, Untsukul və Balxar xalqlarının sənətinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi üçün tədbirlər planını hazırlayıb DMSSR Xalq Komissarları Sovetinə təqdim etmək tapşırılmışdı. Qərarda digər tədbirlər, o cümlədən rəssamların və incəsənət xadimlərinin səhnə geyimləri və sarə ilə təmin olunması göstərilirdi.

**Dağıstan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun Qərarı:**

6 fevral 1943-cü il.

**İncəsənətin inkişafı haqqında**

DMSSR Xalq Komissarları Soveti və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qeyd edir ki, son vaxtlar Dağıstan xalqlarının incəsənətinin inkişafında mühüm nailiyyətlər əldə edilmişdir.

Dağıstan Kumık Teatrı bir sıra vətənpərvər motivli tamaşaları səhnələşdirdi. Adjamatov Atkaya ilk dəfə olaraq xalqın lideri, böyük Stalinin obrazını milli teatrın səhnəsində nümayiş etdirdi.

Avar Teatrında Dağıstanın xalq şairi Həmzət Sadasanın "Bazalay" adlı yeni tamaşası nümayiş etdirilib.

Dağıstanın bütün dram teatrlarının repertuarını əsasən vətənpərvərlik tamaşaları təşkil edir.

Bəstəkarlar İttifaqı və Rəssamlar İttifaqı Böyük Vətən müharibəsinə həsr olunmuş musiqi və bədii əsərlər yaratmışlar.

Dağıstanın incəsənət xadimləri hərbi hissələrə, xəstəxanalara, müdafiə xətlərinin inşaatçılarına, müdafiə sənayesi işçilərinə, kolxozçulara əkin-məhsul yığımı və balıq ovu üçün bədii tərtibatlı xidmətləri həyata keçirir.

Eyni zamanda, DMSSR Xalq Komissarları Soveti və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu hesab edir ki, Dağıstan xalqlarının milli sənətinin inkişafı digər xalqların inkişaf sürətindən geri qalır. Milli dramaturgiyanın zəif inkişafı, milli yaradıcı kadrların azlığı, onların hazırlanması işinin qeyri-qənaətbəxş təşkili bu məsələdə ən böyük çatışmazlıqlardır. Dağıstan Radio Komitəsinin musiqi-bədii kollektivlərinin işi Dağıstan mövzusu baxımından son dərəcə qeyri-qənaətbəxşdir. Dağıstan xalqlarının zəngin folkloru, xalq musiqi alətləri nəinki təkmilləşdirilmir, onlar Ra-

dio Komitəsinin və Milli Ansamblın repertuarında hətta demək olar ki, yoxdur.

Bu nöqsanları qətiyyətlə aradan qaldırmaq və Dağıstan xalqlarının incəsənətini daha da inkişaf etdirmək üçün Dağıstan Xalq Komissarları Soveti və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin bürosu QƏRAR VERİR:

**I. Teatr sənəti sahəsində**

1. DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinin rəhbəri yoldaş Rəsulova təklif edilsin:

a) Kumık Teatrının və Rus Dram Teatrının tərkibində Dağıstan Dövlət Teatrını təşkil etsin;

b) Buynaksk şəhərində Avar Dram Teatrını təşkil etsin;

c) Respublikanın xalq teatrları üçün yaradıcı kadrların hazırlanması məqsədilə 1943-cü ildə Dağıstan Dövlət Teatrının nəzdində 20 nəfərlik teatr studiyası, Avar Teatrında isə 10 nəfər üçün teatr studiyası yaradılsın;

ç) 1943-cü ildə Lak xalq teatrının işini bərpa etsin, habelə 1944-cü ildə Dargin Xalq Teatrının yaradılması üçün hazırlıq tədbirləri həyata keçirsin;

d) Yazıçılar İttifaqı və Bəstəkarlar İttifaqı ilə birlikdə mövzu üzrə dramatik və musiqi əsərlərinin yaradılmasına yazıçılar, bəstəkarlar və teatrlar təşviq edilsin və aşağıdakı mövzular işlənilsin;

1) Böyük Stalin Sovet Dağıstanının yaradıcısıdır.

2) Sovet xalqının Vətən müharibəsində Dağıstan xalqlarının iştirakı.

3) Şamilin başçılığı ilə dağlıların milli azadlıq müharibəsi.

4) Dağıstan dağlarında kolxoz tikintisi.

2. İcraiyyə komitələrinin sədrləri, Lak Rayon Fəhlə Deputatları Soveti, Ümumittifaq Kommunist (bolşeviklər)

Partiyası Dağıstan Vilayət Komitəsinin Dərbənd Şəhər Komitəsi və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Lak Rayon Komitəsi teatrları müvafiq binalarla təmin edilsin;

3. DMSSR Xalq Komissarları Soveti yanında Dövlət Plan Komitəsinin sədri yoldaş Kinusa tapşırılsın ki, DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinin sifarişi ilə tamaşaların səhnə tərtibatı üçün incəsənət müəssisələrinə materialların verilməsini təmin etsin.

**II. Musiqi sahəsində**

4. DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinin rəhbəri yoldaş Razilova və Radio Komitəsinin rəhbəri yoldaş Temirxanova tapşırılsın:

a) milli folkloru öyrənmək və toplamaq üçün 1943-cü ildə ixtisaslı bəstəkarların rəhbərliyi ilə 4-5 ekspedisiya təşkil edilsin;

b) Dağıstan xalqlarının musiqi alətlərindən tam istifadə etməklə Radio Komitəsinin və Milli Ansamblın orkestrləri kadrlarla təmin edilsin;

c) musiqi məktəbinin işi bərpa edilsin və yeni 1943-1944-cü tədris ilinin əvvəlindən onların bazasında musiqi və teatr məktəbləri yaradılsın, Dağıstanın yerli xalqlarından tələbələrin buraya cəlb edilməsinə xüsusi diqqət yetirilsin;

5. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Mahaçqala şəhər komitəsinin katibi yoldaş Snegirev bu ilin 01 mart tarixindan gec olmayaraq musiqi məktəbinin fəaliyyəti üçün musiqi məktəbinin keçmiş yerlərinin boşaldılmasını təmin etsin.

**III. Təsviri sənət sahəsində**

6. DMSSR Xalq Maarif Komissarlığına (yoldaş Maqomedov) və DMSSR Xalq Komissarları Soveti yanında İn-

cəsənət İdarəsinə (yoldaş Rəsulov) təklif edilsin ki, Dağıstan rəssamlarına rəsm üçün sifariş versinlər. "Dağıstan xalqlarının Böyük Vətən Müharibəsində iştirakı" mövzusunda portretlər, səhnələr və plakatlar hazırlansın;

7. Mahaçqala Şəhər Deputatları Soveti icraiyyə komitəsinin sədri yoldaş Kazhlayev və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Mahaçqala şəhər komitəsinin katibi yoldaş Snegirev bir ay müddətində DMSSR Rəssamlar İttifaqına emalatxananın təşkili üçün yer ayırsınlar;

8) DMSSR Xalq Ticarət Komissarlığına (Yoldaş Bultanov) Rəssamlar İttifaqına lazımi materialların (boya, kətan və s.) verilməsini təmin etmək tapşırılsın;

9) DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinə təklif edilsin ki, (yoldaş Rəsulov) on gün müddətində Kubaçi, Untsukul və Balxar xalqlarının sənətinin qorunması və daha da inkişaf etdirilməsi üçün tədbirlər hazırlayıb DMSSR Xalq Komissarları Sovetinin müzakirəsinə təqdim etsin.

**Protokol**

1. Yerlərdə incəsənətin inkişafına konkret rəhbərliyi gücləndirmək üçün DMSSR Xalq Maliyyə Komissarlığına (Bədəlov yoldaş) təklif edilsin ki, 1943-cü ildə repertuara nəzarət üzrə Baş İdarənin səlahiyyətli nümayəndəsi vəzifəsi bərpa edilsin;

2. DMSSR Xalq Ticarət Komissarlığına (yoldaş Bultanov) tapşırılsın ki, rəssamların geyimləri üçün mövcud ehtiyatlardan DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinə ipək, ayaqqabı, üst geyim və başqa materialların verilməsini təmin etsin.

3. DMSSR Xalq Yüngül Sənaye Komissarlığına (yoldaş Maqomedov) tapşırılsın ki, rəssamlar üçün 75 cüt ayaqqa-

bı, 50 cüt çəkmə istehsal edib satış üçün Xalq Tıcarət Komissarlığına təhvil versin;

4. Rəssamlar üçün parça və kəmərli 50 ədəd milli geyim (başlıqlı çərkəzilər) və xəncər istehsal etmək "Tekstilpromsoyuz"a həvalə edilsin;

**DMSSR Xalq Komissarları Sovetinin sədri Ə.Daniyalov.**

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 24, iş. 13, s. v. 168–171).

Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi kimi fəaliyyətinin ilk aylarında hərbi hissələrin formalaşdırılması, döyüş batalyonlarının və partizan dəstələrinin yaradılması, səfərbərlik ilə bağlı ən mühüm büro qərarları verilmişdi. Bunun nəticəsində respublikanın bütün bölgələrindən 120 min insan orduya cəlb edilmiş, müdafiə obyektlərinin tikintisi ilə bağlı çoxlu işlər görülmüşdür.

Bu dönəmdə dağlılara inam artmış və sonradan Dağıstan Vilayət Komitəsinin birinci katibi Əziz Əliyevin təşəbbüsü ilə Dağıstan gənclərini Qırmızı Ordu sıralarında əsasən azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasına daxil etmişlər.

1943-cü ilin yanvar-iyul aylarında DMSSR Xalq Komissarları Soveti və partiyanın Dağıstan Vilayət PK Bürosu Dağıstan xalqlarından Qızıl Ordu sıralarına könüllülərin cəlb edilməsi haqqında bir sıra qərarlar qəbul etmişlər.

1943-cü il fevralın 17-dək cəbhəyə göndərilmək üçün 12 mindən çox müraciət daxil olmuşdur. Burada yuxarıda qeyd edildiyi kimi, ən vacib məqam isə budur ki, Əziz Əliyev əsasən azərbaycanlılardan formalaşdırılmış 416-cı Taqanroq diviziyasının tərkibində dağıstanlılardan ibarət süvari eskadrilya yaradılmasının təşəbbüskarı kimi çıxış

edir və buna nail olur.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun QƏRARI:**

10 sentyabr 1943-cü il.

**416-cı Taqanroq atıcı diviziyasının komandanlığının Dağıstan fəhlələrinə məktubu haqqında**

Dağıstan süvari eskadrilyasının daxil olduğu 416-cı Taqanroq atıcı diviziyası Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə Ali Baş Komandan, Sovet İttifaqı Marşalı yoldaş Stalin, Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsində əla hərbi əməliyyatlara görə diviziyaya minnətdarlığını bildirərək, bu diviziyaya 416-cı Taqanroq atıcı diviziyası adını vermişdir.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu QƏRARA alır:**

1. Dövlət Müdafiə Komitəsinə və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinə təklif edilsin ki, 416-cı Taqanroq atıcı diviziyasında olan Dağıstan xalqının igid oğullarının şücaətlərinin bütün sovet zəhmətkeşlərinə çatdırımasına kömək etsinlər;

Onların şücaəti "Daqestanskaya pravda" qəzetinin 1943-cü ilin sentyabr ayının 6-ı nömrəsində dərc edilmişdir.

416-cı Taqanroq atıcı diviziyasının komandanlığına cavab məktubu təsdiq edilsin;

3. Diviziya komandanlığına, Dağıstan süvari eskadrilyasının əsgər və zabitlərinə hədiyyələr təşkil edilsin;

4. Dağıstan süvari eskadrilyasının hərbi şücaətlərini təbliğ etmək üçün "Daqestanskaya pravda"nın baş redaktoruna icazə verilsin ki, Taqanroqun azad edilməsində Dağıstan oğullarının iştirakı ilə bağlı materiallar toplamaq

üçün diviziyaya xüsusi müxbir İ.Vinniki göndərsin;

5. Respublika qəzetlərinin redaktorlarını və radio Komitəsinin rəhbərini 416-cı Taqanroq atıcı diviziyasının komandanlığının Dağıstan zəhmətkeşlərinə məktubunu çap edib yayımlamaq üçün dəvət etsinlər;

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 24, iş. 15, s. v. 263).

Burada bir haşiyə çıxıb qeyd etmək istəyirəm ki, bu diviziyanın yaranması bir o qədər də asan olmamışdır. Azərbaycan K(b)P-nin ikinci katibi işləmiş Mirhəsən Seyidov öz xatirələrində bu barədə ağrı və acı ilə danışmışdır: *"Kerç faciəsini eşidən Mir Cəfər Bağırov çox narahat oldu və Mexlisə qarşı möhkəm qəzəbləndi. Çünki Mexlis, nəyin bahasına olursa-olsun Kerç körfəzi vasitəsilə Krım yarımadasına daxil olmaq əmrini vermişdi. Bu vəzifələri yerinə yetirməli olan diviziyalar isə əsasən azərbaycanlılardan formalaşdırılmışdı. Həmin cəhd zamanı açıq dənizdə alman bombardmançıları bu əsgərləri daşıyan bütün gəmiləri məhv etmişdi. Buna baxmayaraq, əməliyyatın davam etdirilməsi və Krım yarımadasına daxil olmaq üçün təkrar hücum əmri verilmişdi. Və bu dəfə alman bombardmançıları diviziyanın bütün heyətini darmadağın etmiş və köməksiz əsgərlər sadəcə dənizdə boğularaq həlak olmuşlar.*

*Mexlisin səriştəsiz əmri haqqında Sevastopolun müdafiəsi üzrə quru qoşunları komandanının müavini və sahilyanı ordunun rəhbəri İ.Petrov M.C.Bağırovu məlumatlandırır və deyir ki, "bir neçə gündən sonra soydaşlarınızdan heç kim sağ qalmayacaq və mən heç nə edə bilmirəm (Mexlisi nəzərdə tutur). Lütfən, müdaxilə edin və təcili tədbirlər görün. Xahiş edirəm, mənim adımı çəkməyəsiz".*

Azərbaycanlılar Sovet Ordusunun tərkibində faşist Almaniyasına qarşı qəhrəmancasına vuruşurdular. Amma

təəssüf ki, azərbaycanlıların əksəriyyəti rus dilini bilmir, döyüş zamanı verilən bir çox komanda və əmrləri başa düşmürdülər. Buna görə də onlar tez-tez nizamnaməni pozduqlarına və ya əmri yerinə yetirmədiklərinə görə hərbi tribunala verilirdilər.

O dövrün döyüş sınaqlarından çıxmış Ceyhun kişi xatırlayırdı: "Sürətləndirilmiş kurslarda bizə desant təlimləri keçir və paraşütdən tullanmağı öyrədirdilər. "Öyrədirdilər" də deyirəm, amma 5-10 günə nə öyrənmək olar ki? Sonra bizi Kerçə göndərdilər. Faşistlər çox güclü idilər. Üstəlik də bizim - cənubluların soyuğa dözümümüz yox idi. Almanlarla əlbəyaxa vuruşmaq bizə baha başa gəldi. Hər dəfə döyüşə gedəndə əllərimi yuxarı qaldırıb deyirdim: "Allahım, mənə ucuz ölüm vermə". S.Ştemenkonun sözlərinə görə 1942-ci il yanvar ayının sonunda Baş Komandanlıq L.Z.Mexlisi nümayəndə kimi Krım cəbhəsinə göndərdi, o isə öz adətinə uyğun olaraq, kömək göstərmək əvəzinə rəhbər kadrları qatıb-qarışdırmağa başladı. Və hər şeydən əvvəl, cəbhənin qərargah rəisi Tolbuxini general-mayor Veçni ilə əvəz etdi. Cəbhənin hazırladığı hücum dəfələrlə təxirə salındı, Mexlis yalnız komandirlərlə mübahisə etməkdəydi. Mayın 7-də almanlar özləri hücuma keçdilər və bir gün sonra cəbhənin müdafiəsini yardılar. Nəticədə Krım yarımadası Kerçlə birlikdə düşmən tərəfindən ələ keçirildi. (Avropadakı son hüdudlarda -http://militera.lib.ru/memo/russian/shtemenko/29.html)

Zaqafqaziya Hərbi Şurasının üzvü M.C.Bağırov bu məlumatı alcaq, cəbhənin ən qızğın olan cənub sahəsinə gəldi. O, azərbaycanlı əsgərləri toplayıb dedi: "Qartallarım, Azərbaycanın şanlı oğulları, sizə salam olsun!"

Əsgərlər M.C.Bağırovu gördükdə çox sevindilər. Onlar qürurlandılar, döyüşçülərdə ruh yüksəkliyi əmələ gəldi.

Ancaq onlar şikayət edərək deyirdilər ki, cəbhədə, hərbi hissələrdə və döyüş meydanlarında azərbaycanlı əsgərlərə aşağılayıcı münasibət göstərilir. Hərbi hissələrdə "Azərbaycanlıdan döyüşçü çıxmaz" söz-söhbəti yayılıb. Bu, əlbəttə ki, əsgərlərin mənfi reaksiyasına səbəb olur, onları təhqir edirdi. Bununla bağlı M.C.Bağırov Stalin qarşısında çıxış etdi və hər şeydə, o cümlədən də Kerçdəki uğursuz əməliyyatda Mexlisi günahlandırdı.

Mexlis Stalinə göndərdiyi hesabatda baş verənlərə görə cəbhə komandiri D.T.Kozlovu günahlandırırdı. Cavabında Stalin Mexlisə yazırdı: "Siz Krım Cəbhəsinin işlərinə cavabdeh olmayan qəribə bir kənar müşahidəçi mövqeyi tutmaqdasınız. Bu mövqe əlverişli, amma tamamilə çürükdür... Siz Krım Cəbhəsinə Dövlət Nəzarətçisi (L.Z. Mexlis Dövlət Nəzarəti Xalq Komissarı vəzifəsini tuturdu - A.M.) kimi yox, Baş Komandanlığın məsul nümayəndəsi kimi göndərilmisiz. Siz bizim, Kozlovu Hindenburq tipli birisi ilə əvəzləməyimizi tələb edirsiniz. Amma siz bilməyə bilməzsiniz ki, bizim ehtiyatda hindenburqlarımız yoxdur. Krımdakı işləriniz mürəkkəb deyil və bunların öhdəsindən özünüz də gələ bilərsiniz. Əgər siz hücum aviasiyasından əlavə işlər üçün deyil, düşmənin tanklarına və canlı qüvvəsinə qarşı istifadə etsəydiniz, düşmən cəbhəni yara bilməz, tanklar müdafiə xəttini aşıb keçməzdi. İki ay Krım cəbhəsində heç bir nəticəsiz oturaraq belə bir sadə şeyi başa düşmək üçün Hindenburq olmaq lazım deyil" (İ.V.Stalin, L.Z.Mexlisə teleqram, 9 may 1942-ci il. Mənbə: Stalin İ.V. Əsərləri. - T. 18. - Tver: "Soyuz" İnformasiya-Nəşriyyat Mərkəzi, 2006, s. 291).

İyin ayının 3-də Çadayev Stalinin qəbul otağında cəbhədən gəlmiş Mexlislə görüşdü. Çadayev danışırdı ki, o, Mexlislə qoşunlarımızın Kerç yarımadasındakı döyüş-

lərdə məğlubiyyətinin səbəbləri barədə söhbət edirkən, "Stalin qapıda göründü. Mexlis oturduğu yerdən sıçradı: "Salam, yoldaş Stalin! İcazə verin, Sizə məruzə edim". Stalin yerişinə haram qatıb, bir anlıq yuxarıdan aşağı Mexlisə baxdı, həyəcanlı səslə dedi: "Lənətə gələsiz sizi!" Və dərhal da kabinetə girib qapını arxasınca çırpdı. Mexlis yavaş-yavaş əllərini yanlarına endirdi və pəncərəyə tərəf çevrildi...

Sonralar Poskrebışevdən öyrəndim ki, Mexlis həmin gün bir müddət sonra nəhayət ki, Stalinin qəbulunda ola bilib. Krım fəlakətinin günahkarı sözün əsl mənasında rəhbərin ayaqlarına düşübmüş. (Ali Baş Komandan. Tarixçi Yuri Yemelyanovun "Pravda" qəzetindəki məqaləsi -https://kprf.ru/history/party/149992.html)

Cəbhə komandanı D.T.Kozlov, Hərbi Şuranın üzvü, diviziya komissarı F.A.Şamanin, cəbhənin qərargah rəisi P.P.Veçni və bir sıra başqa komandirlər tutduqları vəzifələrdən uzaqlaşdırılır, Kozlov və Şamaninin rütbələri də aşağı salınır.

L.Z.Mexlis Xalq Müdafiə Komissarının müavini və Qızıl Ordunun Baş Siyasi İdarəsinin rəisi vəzifələrindən kənarlaşdırıldı və rütbəsi korpus komissarınadək endirildi. Qızıl Ordunun Siyasi İdarəsinin rəhbəri ÜK(b)P MK-nın katibi və Siyasi Büro üzvlüyünə namizəd A.S.Şerbakov oldu.

Bundan sonra, cəbhəyə göndərilən Azərbaycan əsgərləri də daxil olmaqla 416, 77, 223-cü hərbi hissələr təşkil olundu. Eyni zamanda, hərbi hissələrin milli əlamət üzrə siyasi mülahizələrlə yaradılmasında məqsəd sovet xalqının Böyük Qələbəsinin beynəlmiləl səciyyəsini vurğulamaq idi.

Taqanroq şəhərinin 416-cı diviziya tərəfindən azad edil-

məsindən sonra o, artıq dediyin kimi, 416-cı Taqanroq diviziyası adlandırıldı...

Qızıl Ordunun dağlıların olduğu ayrı-ayrı hissələrində Dağıstan Vilayət Partiya Komitəsinin təşəbbüsü ilə respublika ziyalılarının müntəzəm tədbirləri təşkil olunurdu.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun Qərarı:**

**Kareliya cəbhəsində olan Sovet İttifaqı Qəhrəmanı Səid Əliyevlə görüşmək üçün təbliğat briqadasının göndərilməsi haqqında**

Kareliya Cəbhəsinə Sovet İttifaqı Qəhrəmanı yoldaş Səid Əliyevlə görüşmək üçün aşağıdakı siyahıda adları çəkilənlər göndərilsinlər:

1. Batırov A.K. - DMSSR Xalq Komissarları Soveti yanında İncəsənət İdarəsinin rəisi - komandanın rəhbəri.
2. Trunov D.M. - yazıçı.
3. Rəsul Həmzətov - şair.
4. Yusup Mollayev - rəssam.
5. Əli Əliyev - Sovet İttifaqı Qəhrəmanı Səid Əliyevin atası.
6. Əsgər Sarıca - DMSSR-nın əməkdar artisti - heykəltəraş.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.

**Dağıstan yazıçılarının 2-ci Qvardiya Süvari Korpusunda əsgərlər, komandirlər və siyasi işçilərlə görüşmək və dağıstanlıların Vətən uğrunda döyüşlərdə iştirakı ilə bağlı materiallar toplamaq üçün cəbhəyə göndərilməsi haqqında**

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin bürosunun Qərarı:**

12 aprel 1944-cü il.

1. Aşağıda göstərilən Dağıstan yazıçıları, əsgərlər, komandirlər və siyasi işçilərlə görüşmək və dağıstanlıların Vətən uğrunda döyüşlərdə iştirakı ilə bağlı materiallar toplamaq üçün 2-ci Qvardiya Süvari Korpusuna - cəbhəyə 2 ay müddətinə ezamiyyətə göndərilsin: T.Ədjmətov, R.Həmzətov, D.Trunov.

DMSSR Xalq Komissarları Sovetinə tapşırılsın - yoldaş Daniyalov yazıçıların səfəri ilə bağlı xərclər məsələsini həll etsin.

3. Ağababov yoldaşa göstəriş verilsin ki, cəbhəçilərə sovqatların vaxtında göndərilməsini təşkil etsin.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.

Dağıstan Vilayət Partiya Komitəsinin təşəbbüsü ilə respublikanın zəhmətkeşləri ilə Dağıstandan olan Qızıl Ordunun əsgərləri arasında müntəzəm yazışmalar təşkil olunurdu. Sovet əsgərləri Vilayət Partiya Komitəsinə göndərdikləri çoxsaylı məktublarda Dağıstan zəhmətkeşlərinin fədakar əməyinə, ümumi məqsədə - faşizm üzərində qələbəyə nail olmaq üçün göstərdikləri vətənpərvərlik fəaliyyətlərinə görə minnətdarlıqlarını bildirirdilər.

Dağıstanlılar müdafiə fonduna 500 milyon rubldan çox vəsait keçirmiş, əsgərlər üçün bir milyon ədəddən çox isti paltar, 200 minə yaxın qoyun dərisi və xəz palto, 300 min kq yun toplamış, 140 vaqon ərzaq və geyim hədiyyələri göndərmişdilər.

Müharibə illərində hərbi qulluqçuların ailələrinə yardımın göstərilməsi, təxliyə edilmiş əhalinin məşğulluğunun təmin edilməsi, maddi-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm işlər görülürdü. Bu məsələlərlə bağlı DMSSR Xalq Komissarları Soveti və Dağıstan Vilayət Komitəsi tərəfindən xüsusi qərarlar qəbul edilmişdi.

1 noyabr 1943-cü il tarixli qərarda sovet və partiya təşkilatlarından hərbçi ailələrinə müavinət və təqaüdlərin vaxtında verilməsini, onları tikinti materialları, sənaye malları və geyimlə təmin etmək, onlara tərəvəz bostanları üçün torpaq sahəsi ayırmaq və digər köməklər göstərmək xahiş olunurdu. Körpələr evlərinə, uşaq bağçalarına və uşaq evlərinə gündəlik diqqət yetirilməsi, onların ərzaq və yanacaqla təmin olunması məsələləri vurğulanırdı.

Məhz bu ağır müharibə illərində Dağıstandakı fəaliyyətinə görə Əziz Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Lenin ordeni", SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 yanvar 1943-cü il tarixli Fərmanı, "Qırmızı Əmək Bayrağı" Ordeni, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1 may 1944-cü il tarixli Fərmanı ilə "Qafqazın müdafiəsi uğrunda" medalı ilə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 iyun 1944-cü il tarixli Fərmanı ilə o, ikinci dəfə "Lenin ordeni" ilə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 may 1945-ci il tarixli Fərmanı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Almaniya üzərində qələbəyə görə" medalı ilə və 1945-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "I dərəcəli Vətən Müharibəsi Ordeni" ilə təltif edilmişdir.

Bütün bunlarla yanaşı Əziz Əliyev Cənubi Azərbaycandakı siyasi prosesləri də öz yetirmələri vasitəsi ilə ciddi izləyirdi. Məhz 1946-cı ildən başlayaraq İrandakı diplomatik korpuslara partiya və dövlət işlərində çalışan azərbaycanlı kadrlar sırasından namizədlər irəli sürülür. Bu sənəddə Cənubi Azərbaycanda yeni konsulluqların yaranması və oraya azərbaycanlı kadrların təyin edilməsi təklif olunurdu. Əziz Əliyevin yetişdirdiyi və Moskvaya fars dili üzrə Ali Diplomatik Akademiyaya (ADA) təhsil almağa göndərdiyi Bağır Seyidzadə barədə ilk rəsmi məlumatı buradan alırıq. Onu Makuda diplomatik fəaliyyətə

göndərirdilər. Bu insanların - Əziz Əliyevlə Bağır Seyidzadənin adı 1950-ci ildə M.C.Bağırov tərəfindən eyni ittihamlarla vəzifədən kənarlaşdırılanda yenidən gündəmə gələcəkdi. (Bu barədə kitabın digər bölməsində bəhs edəcəyəm - A.M.)

Məhz Bağır Seyidzadə vasitəsi ilə Əziz Əliyev Cənubi Azərbaycandakı prosesləri tam diqqət mərkəzində saxlayırdı. O, Əziz Əliyevin Cənubi Azərbaycanda təməlini qoyduğu işlərin nə qədər düz olduğunu və bu yoldan sapınmanın nə qədər ziyanlı olduğunu bildirərək yazırdı (ARDA: f. 28, siy. 4, s. v. 20, vər. 102-108.): "Cənubi Azərbaycan əhalisi Sovet Azərbaycanının incəsənətinə çox böyük maraq göstərir. Bizim artistlərin İran şəhərlərindəki çıxışları bunu əyani şəkildə sübut etdi. Artistlər Makuda cəmi bir gün oldular, yalnız bir konsert verdilər. Buna baxmayaraq, əhali bizim mahnıları misli görünməmiş qısa müddətdə öyrəndi. Hazırda çoxsaylı uşaqlar, gənclər, hətta yaşlı sakinlər də Sovet Azərbaycanı mahnıların ıöyrəniblər və ifa edirlər. Vətənpərvər ruhlu "Azərbaycan" mahnısı xüsusilə geniş yayılıb. Bu mahnını melodiyasının və sözlərini bizim konsul dairəsindəki şəhərlərin hər yerində eşitmək olar. Səciyyəvi haldır ki, hazırda Sovet Azərbaycanının musiqisi və mahnıları yazılmış qrammofon plastinlərinə böyük tələbat var, satışda belə plastinlər, demək olar ki, yoxdur.

Bununla əlaqədar, onu da qeyd etmək lazımdır ki, radio verilişləri Azərbaycan mahnılarının, Azərbaycan musiqisinin və ədəbiyyatının təbliği üçün çox böyük əhəmiyyət kəsb edərdi. Lakin bəzi yoldaşlar bunu lazımınca qiymətləndirmirlər. Bizim bir radio qovşağımız var – Xoy şəhərindədir, orada yalnız Moskva verilişləri translyasiya edilir. O biri respublika verilişlərini demirik, hətta Bakı-

dan məxsusi olaraq İran üçün yayımlanan verilişlər də translyasiya edilmir.

Bakıdan yayımlanan verilişlərin translyasiya edilməsinin zəruri olması barədə Xoy şəhərindəki qoşunların komandanlığına dəfələrlə müraciət etməyimizə cavab olaraq siyasi şöbənin rəisi yoldaş Çumakov və başqaları bildiriblər ki, yanacaq üçün maliyyə təxsisatı olmadığına görə onlar radioqəbuledicini qidalandıran elektrik stansiyasını gündüz vaxtı işə sala bilmirlər. Onların sözlərinə görə, yanacaq üçün maliyyə vəsaiti ayrılması məsələsi nədənsə indiyə qədər Hərbi Şura tərəfindən həll edilməyib.

Biz bu nöqsanı mümkün qədər tezliklə aradan qaldırmalıyıq ki, çoxdan bəri öz doğma mədəniyyətinə ehtiyac duyan və Azərbaycan mahnılarının hər bir təranəsinin, milli musiqinin hər bir melodiyasının, ana dilində olan hər kəlmənin həsrətində olan əhalinin ümdə tələbatını ödəyək.

Bakıdan yayımlanan, məxsusi olaraq İran üçün nəzərdə tutulan radio verilişlərinin keyfiyyətinin yaxşılaşdırılması da zəruridir. Radio Komitəsi adətən rəsmi materialları yayımlayır və Sovet İttifaqının zəhmətkeşlərinin həyatı və mübarizəsi haqqında söhbətlərə, demək olar ki, əsla yer ayırmır. Bundan əlavə, həmin verilişlər üçün yerli azərbaycanlı əhaliyə yabançı olan, fars sözləri ilə korlanmış hansısa xüsusi dil seçilmişdir. Azərbaycan dilinin bu şəkildə təhrif edilməsinin səbəbi İranda yaşayan azərbaycanlılara da aydın deyil. Buna görə də Azərbaycan dilinə çoxsaylı anlaşılmaz sözlərin daxil edilməsinə və ya Cənubi Azərbaycan dialektinin spesifik xüsusiyyətlərinin nəzərə alınması adı ilə tələffüzün həddən artıq dəyişdirilməsinə heç bir ehtiyac yoxdur. Bu baxımdan, "Vətən yolunda" qəzetinin (vaxtilə Əziz Əliyev tərəfindən əsası qoyulan

qəzet - A.M.) dilini daha məqbul hesab edirik.

Lakin, buna baxmayaraq qəzet yalnız şəhərlərdə yayılır, kəndlərə gedib çatmır. Redaksiyanın işçiləri redaksiya çərçivəsində qapanıb qalıblar, onlar yerlərə getmir, oxucularla əlaqə yaratmırlar. Redaksiya indiyə qədər bizim konsul dairəsində qəzetin ətrafında yerli əhalidən olan müxbirlər şöbəsi yarada bilməyib, buna görə də rayonların həyatına aid bəzi maraqlı məqamlar qəzetin səhifələrində öz əksini tapmır və bunlar işıqlandırılmır. Qəzetdə Maku qəzasının həyatına aid demək olar ki, heç bir yazı, heç bir informasiya yerləşdirilməyib. Bütün bunlar ona gətirib çıxarıb ki, qəzetin tirajı azalmağa başlayıb.

Qəzetdə Sovet İttifaqının Şərq xalqlarının həyatı, onların keçmişi və bu günü, onların sərkərdələri və qəhrəmanları haqqında tarixi və faktiki materiallar yetərincə işıqlandırılmır. Qəzetdə bəzən hətta bizim ünvanımıza xoşagəlməz söhbətlərə səbəb olan, uğursuz təqdim edilmiş şəkillər dərc edilir. Məsələn, kürdlərin qarətlər və özbaşınalıqlar törətdiyi kəndlərdə azərbaycanlılarla kürdlər arasında münasibətlərin ən çox kəskinləşdiyi gərgin bir vaxtda qəzetin son nömrələrindən birinin ilk səhifəsində "Kürd xalqının qəhrəman oğlu" rubrikasında bir kürd zabitinin portreti dərc edilib, sonra isə onun döyüş həyatından epizodlar verilib. Bununla əlaqədar, əhali arasında söhbətlər gedirdi: "Baxın, onlar öz kürdlərini necə tərifləyirlər. (Onlar "öz" sözünü ərazi mənsubiyyəti mənasında deyil, ümumiyyətlə kürdlərin və xüsusən iranlı kürdlərin dəstəklənməsi mənasında işlədirlər).

Bizim fikrimizcə, öz heyətində kifayət qədər təcrübəli və peşəkar işçiləri olan "Vətən yolunda" qəzetinin redaksiyası öz işində olan nöqsanları ən qısa müddətdə aradan qaldıra bilər və bunu etməlidir ki, qəzet həqiqətən əhali

arasında bizim nüfuzumuzu qaldırsın.

Qəzet haqqında danışarkən İran administrasiyasından olan xanların, tacirlərin və məmurların şəxsində onun əleyhdarlarının mövcudluğu faktı barədə susmaq olmaz. Bu insanlar hər vasitə ilə qəzetin nüfuzunu aşağı salmağa, onun əhali arasında yayılmasına mane olmağa çalışırlar. Qeyd etmək lazımdır ki, 17/III-1944-cü ildə, yəni Makudakı konsulluğun binası qarşısında antisovet nümayişinin ertəsi günü adətən yüz nüsxəsi satılan qəzetin cəmi 12 nüsxəsi realizə olunmuşdu.

6 oktyabr 1944-cü ildə Xoy qəzasının qubernatoru Nəvvab "Vətən yolunda" qəzetinin yayıcısı olan iranlını yanına çağırıb və ona bu qəzetdən ötrü qışqırmamağı və veyillənməməyi təklif edib. Qəzetçi "qışqıran mən deyiləm, qəzet özü qışqırır", – deyə cavab verəndə qubernator bu cavaba görə hiddətlənib, qəzetçini döyüb, onun qoltuğundakı bir qucaq qəzeti dartıb əlindən alıb, onları cırıb və öz kabinetində tapdalayıb.

Bu faktlar onu göstərir ki, bizim qəzetin ətrafında ona müqavimət göstərən qüvvələr var. Lakin qəzetin tirajının tədricən azalması təkcə bununla deyil, həm də redaksiyanın işindəki, yuxarıda göstərilən nöqsanlarla izah edilir.

Onu da qeyd etmək lazımdır ki, Cənubi Azərbaycan əhalisi arasında Azərbaycan ədəbiyyatının yayılması tamamilə qeyri-qənaətbəxş vəziyyətdədir (demək olar ki, yox dərəcəsindədir).

Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyəti (Moskva mərkəzli və diplomatik statusa malik xarici ölkələrlə "Dostluq" cəmiyyətinin İran nümayəndəliyinin Maku şöbəsi nəzərdə tutulur - A.M.) adətən, rus, fransız dillərində və başqa dillərdə olan ədəbiyyat göndərir, amma fars və Azərbaycan dillərində ədəbiyyat göndərilmir. Lakin mü-

şahidələrimiz göstərir ki, bizim konsul dairəsində bu ədəbiyyata çox böyük tələbat var. Bizə dəfələrlə, xüsusən yerli ziyalılar tərəfindən müraciətlər olub. Azərbaycan dilində ədəbiyyat, məsələn, M.S.Ordubadinin "Dumanlı Təbriz" əsərini, Səməd Vurğunun şeirlərini, "Hophopnamə"ni və başqa kitabları əldə etməkdə onlara kömək göstərilməsini xahiş ediblər. Biz təbliğat və təşviqat işində olan bütün bu nöqsanları nəzərə almışıq, SSRİ-nin İrandakı Səfirliyinin I Katibi yoldaş Qoryaçev Makuda ezamiyyətdə olarkən bu nöqsanların aradan qaldırılması məsələsini konkret təkliflər şəklində ona təqdim etmişik".

Görünür, həm də Əziz Əliyevin təşəbüssü ilə Bağır Seyidzadənin Makudakı məhsuldar fəaliyyəti M.C.Bağırovun nəzərindən qaçmır. Hətta o, onun rus dilində göndərdiyi məktubların çox savadlı yazıldığını xüsusi vurğulayırdı. Çünki, Makudakı konsul M.Mustafayev rus dilini orta səviyyədə bilirdi, ona görə bütün yük fars və rus dilinə daha mükəmməl yiyələnmiş Bağır müəllimin üzərinə düşürdü. Məsələn, M.C.Bağırov yazırdı: "Təcili. Həsənova, Gildinə, Yemelyanova… Yoldaş Mustafayev və Seyidzadənin hazırladıqları hesabat Cənubi Azərbaycan haqqında ümumi icmalın yaradılması üçün böyük əhəmiyyət daşıyır…" və sair və ilaxır.

1945-ci ilin avqustunda SSRİ-nin Tehrandakı səfirinin (Mixail Alekseyeviç Maksimovun) vəzifəsini müvvəqəti icra edən Əhəd Yaqubov Təbrizə gəlir. Onun missiyası İran Xalq Partiyasının ("Tudə") Azərbaycan şöbəsini Demokrat Partiyası ilə birləşdirməkdən ibarət idi. 3 sentyabr 1945-ci ildə Azərbaycan Demokrat Firqəsi (Partiyası - A.M.) yarandı. Sentyabrın 6-da M.Bağırov Stalinə aşağıdakı məzmunda məktub göndərir: "Bu gün İran Xalq Partiyasının Təbriz komitəsinin plenumu keçiriləcək. Xalq

Partiyasının Azərbaycan şöbəsi Azərbaycan Demokrat Partiyası ilə birləşəcək".

Artıq Sovet qoşunları İrandan çıxana qədər Cənubi Azərbaycanın İrandan ayrılması istiqamətində işlərə start verilmişdi.

Noyabrın 18-də Təbrizdə 20 min nəfərlik mitinq keçirildi. Mitinqdə Seyid Cəfər Pişəvəri, Məhəmməd Biriya və İlhami çıxış edərək polislərə, jandarmlara, əsgərlərə müraciət etdilər: "Siz Azərbaycan xalqının oğulları və bizim qardaşlarımızsınız. Satqın adamlara qulaq asmayın, öz xalqınıza əl qaldırmayın".

Eyni zamanda Təbriz və Azərbaycanın digər şəhərlərində SSRİ-dən gətirilmiş silahla yerli sakinlər silahlandırılır və üsyançı dəstələr yaradılırdı. Bakı "üçlüyündən" Bağırova üsyançıların silahlandırılması üçün 10 min vahid hərbi sursat göndərilməsi xahişindən ibarət məktublar göndərilirdi.

1945-ci il noyabr ayının ikinci yarısında xalq yığıncaqları vasitəsilə Azərbaycan Milli Konqresinə 687 nümayəndə seçilir.

20 noyabr 1945-ci il saat 10-da Şiri-Xurşid teatrında Azərbaycan Milli Konqresi öz işinə başladı. Demokrat Partiyasının sədri Seyid Cəfər Pişəvəri və Səttarxanın qardaşı Hacı Əzimxan Milli Konqresin işini açıq elan etdilər. Konqresdə Azərbaycanın muxtariyyətinin və Milli Məclisə seçkilərin əsası qoyuldu.

Milli Konqres iştirakçıları tərəfindən Müəssislər Məclisi elan olundu. Eyni zamanda Milli heyət təsis edildi və tezliklə Milli hökumət yaradıldı.

12 dekabr 1945-ci ildə Təbriz şəhərində Azəbaycan Milli Məclisi açılır. Məclis elə həmin gün Seyid Cəfər Pişəvərini baş nazir seçir və o da 10 nəfərdən ibarət hökumət yaradır.

Məclisi ən yaşlı deputat Nizamüddövlə Rəfii açıq elan etdi. Daha sonra səlahiyyətlər, vəzifələr, iş qaydaları, həmçinin daxili nizamnamə qəbul olundu. Ali hakimiyyət orqanı olan Milli Məclis qanun yaradıcılığı fəaliyyətini və qanunların icrasına nəzarəti həyata keçirməyə başladı. Artıq deyildiyi kimi, Milli Məclis tərəfindən ali icra orqanı – Azərbaycan Hökuməti yaradıldı. S.C.Pişəvəri baş nazir, doktor Salamulla Cavid daxili işlər naziri, Cəfər Kaviyan xalq qoşunları naziri, doktor Məhtaş kənd təsərrüfatı naziri, Məhəmməd Biriya maarif naziri, doktor Övrənci səhiyyə naziri, Qulamza İlham maliyyə naziri, Yusif Əimi ədliyyə naziri, Mirzə Rəbi Kəbiri yollar, poçt, telefon və teleqraf naziri, Zeynalabdin Qiyami Ali Məhkəmənin sədri, Firudin İbrahimi Baş Prokuror təyin olundu.

Milli Məclis nümayəndələri Milli hökumətdən və onun ayrı-ayrı orqanlarından hesabat tələb etmək hüququna malik idilər.

Elə birinci iclasda gizli səsvermə ilə Məclisin Rəyasət Heyəti seçildi. İki il müddətinə seçilən Rəyasət Heyəti 9 nəfərdən ibarət idi: Hacı Mirzəli Şəbüstəri – Məclis sədri, Sadıq Padeqan, Rəfii və Həsən Vilayi – sədrin müavinləri, Məhəmməd Əzimi və Muradəli Teymuri – Rəyasət Heyətinin üzvləri. Rəyasət Heyəti Milli Məclisin razılığı ilə dövlət idarəçiliyi üzrə ən mühüm işlərin yerinə yetirilməsini həyata keçirirdi. Azərbaycan Milli Məclisi Azərbaycan xalqının hüquq və azadlıqlarını təmin etmək və onun muxtariyyətini müdafiə etməklə yanaşı, milli azlıqlara da sərbəstlik hüququ verdi.

Azərbaycan Milli Məclisi bir illik fəaliyyəti ərzində 100-dək mütərəqqi qanun və qərar qəbul etdi və bu qanunlar ardıcıl şəkildə Milli hökumət tərəfindən icra olundu. Milli Məclis tərəfindən qəbul olunmuş mühüm qanunlardan

biri Məclisə qadınların da seçilə bilməsini nəzərdə tutan qanundur. (Yaxın və Orta Şərqdə ilk dəfə olaraq).

Bu ərəfələrdə erməni-daşnak qruplarına qarşı mübarizəni gücləndirmək üçün Makudakı məhsuldar fəaliyyəti nəzərə alınan Bağır Seyidzadəyə Təbrizdəki Baş konsulluqda ciddi işlər tapşırılmışdı. Bağır Seyidzadənin qızı Dilarə xanım bu barədə deyir: "İrana gedəndə mənim cəmi 5 yaşım vardı, qayıdanda isə 10 yaşında idim. Atam müəyyən müddət Makuda işlədi, sonra onu Təbrizə vitse-konsul göndərdilər".

Yeni qurulmuş Azərbaycan hökumətinin çox ciddi şəkildə təbliğatına ehtiyac duyulurdu. Həm də yerli ermənilərin Azərbaycan Demokrat Partiyasına münasibətləri birmənalı deyildi. İstənilən halda çox ciddi təbliğat boşluğu hiss olunurdu. Bunun öhdəsindən Əziz Əliyevin yetişdiriyi komanda çox məhsuldar formada gələ bildi. Bu komandaya kimlər daxil idi?

Azərbaycan SSR Xarici İşlər Nazirliyinin protokol konsul şöbəsinin müdiri Orucovun məxfi məktubundan (ARDA: f. 28, siy. 3, s. v. 6, vər. 47) aydın olur ki, Bağır Seyidzadə ilə çiyin-çiyinə bir çox diplomatlarımız (ictimayyət üçün hələ də bəlli olmayan - AM) Təbrizdə çox ciddi işlər aparmışlar. Tarixi ədalət naminə ilk dəfə olaraq onların adlarını qeyd etmək istəyirəm: Mirəbdülhəsən Mirəbdülkərim oğlu Nəsirzadə, Fəridə Mirəbdülhəsən qızı Nəsirzadə, Asi Nəcəfovna Məmmədova, Ağarza Ələkbər oğlu Zeynalov, Sona Hüseynqulu qızı Zeynalova, Hüseyn Novruz oğlu Tağıyev, Əlisəftər Əliqulu oğlu Şirinzadə, Firuzə Əbülqasım qızı Şirinova, Hacıağa Hacıbaba oğlu Bağırov, Yelena Alekseyevna Bağırova, Nəriman Məcid oğlu Əbilov, Südabə İbiş qızı Əbilova, Cəlil Abbas oğlu İbrahimov, Ələkbər Hüseyn oğlu Qədimov, Müzəffər Aslan

oğlu Hacıyev.

Bağır Seyidzadənin qızı Dilarə Seyidzadə xatırlayır: "Təbrizdə böyük və çox nüfuzlu sovet xəstəxanası vardı, anam ginekoloq kimi orada işləyirdi. Baş həkim Səmədov idi. Elə həkimlərin hamısı azərbaycanlılar idi. Orada, həmçinin sovet məktəbi yaradılmışdı. Anam həm də həmin məktəbdə biologiyadan dərs deyirdi. Biz orada oxuyurduq. Bakıdan dəvət edilən incəsənət xadimləri və təşviqat qrupları Cənubi Azərbaycanda yaşayan xalqlar, o cümlədən də, Azərbaycan türkləri ilə görüşür və onlarda milli özünüdərk şüuru formalaşdırırdılar. İran Azərbaycanında ilk dəfə olaraq milli dil haqqında qərar qəbul olunmuşdu (6 yanvar 1946-cı il). Qərarda deyilirdi: "Bu gündən Azərbaycanda rəsmi dövlət dili Azərbaycan dilidir", Atam buna çox sevinirdi".

Burada kiçik bir haşiyə çıxaraq onu da qeyd etmək istəyirəm ki, Dilarə xanım mənə danışırdı ki, "Ümummilli liderimiz Heydər Əliyevin başçılığı altında İrana səfər edəcək nümayəndə heyətinə daxil edilmişdim. Amma xəbər verildi ki, İran tərəfi mənim adımı siyahıdan çıxarmışdır. Səbəb də onu göstərirdilər ki, mənim atam Cənubi Azərbaycanda Pişəvəri hərəkatı zamanı diplomatik korpuslarda müəyyən fəaliyyət göstərmişdir. O baxımdan İran tərəfi məni Tehranda görmək istəmirdi. Heydər Əliyev rəhmətlik atam Bağır Seyidzadəni yaxından tanıyırdı və ona rəğbətlə yanaşırdı. Hətta atam sonralar Bakıda haqsız olaraq vəzifədən uzaqlaşdırılandan sonra da onunla tez-tez görüşər və çox səmimi söhbətlər edərdi. Heydər Əliyev bu xəbərdən çox hiddətlənmişdi və qətiyyətli mövqe ortaya qoydu. Məsələ kəskin şəkildə (təfərrüatı Dilarə xanımın razılığı olmadığına görə yaza bilmirəm - A.M.) qoyulduqdan sonra mənə icazə verildi. Tehranda Böyük Öndərimiz

Heydər Əliyevlə İranın Ali dini lideri Seyidəli Xameneyi ilə görüşdə, o (Seyidəli Xameneyi), mənim məsələmin ona çatdırıldığını və bu problemin birbaşa onun göstərişi ilə həll olunduğunu dedi".

Yenidən əsərimizin qəhramanının Dağıstandakı fəaliyyətinə qayıtsaq biləcəyik ki, Əziz Əliyevin təşəbbüsü ilə müharibə illərində Mahaçqalada yeni elmi müəssisələr – Elmi-Tədqiqat İnstitutu, Qadın Müəllimlər İnstitutu, Qadın Pedaqoji Məktəbi açıldı. Həmin illərdə Tibb İnstitutunun, DMSSR Xalq Maarif Komissarlığı nəzdində Tarix, Dil və Ədəbiyyat İnstitutunun, pedaqoji məktəblərinin açılması barədə, Dağıstan Partiya Bürosu tərəfindən qərarlar qəbul edildi. Dövlət Nəşriyyatı və uşaq kitab nəşriyyatının yaradılması qərara alındı.

Qafqaz xalqlarının adət-ənənələrini yaxşı bilən Əziz Əliyev çoxmillətli respublikanın yerli xüsusiyyətlərini xüsusi nəzarətə alırdı. O, qədim zamanlardan Dağıstanda yaşlı nəslin malik olduğu təsir və nüfuzu nəzərə alaraq, onların həyati vacib məsələlərin həllinə cəlb edilməsinin zəruriliyinə diqqət çəkirdi. Bölgələrə səfər edən partiya işçilərinin təlimat müşavirələrində onlara kəndlərin ən yaşlı sakinləri ilə söhbət etməyi, onları cəbhəyə kömək göstərilməsi, gənclərin maarifləndirilməsi ilə bağlı məsələlərin həllinə cəlb etmək tövsiyəsini verirdi. Əziz Əliyevin Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi kimi göstərdiyi titanik işi həm də onunla sübut edilir ki, bu müddət ərzində (1942-ci ilin sentyabrından 1948-ci ilin dekabrına kimi) Vilayət Partiya Komitəsinin 24 plenumu (hər biri üçün bir iclas) keçirilmiş və Vilayət Partiya Komitəsi Bürosunun 388 iclası (orta hesabla ayda 5 iclas) olmuşdu. Bu iclaslar gecə saatlarına qədər davam etmişdir.

1946-cı ildə Əziz müəllim Dağıstan MSSR Mahaçqala

seçki dairəsindən SSRİ Ali Sovetinin ikinci çağırış deputatı seçilir (1946-1950).

14 oktyabr 1947-ci il tarixdə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin plenumunda Əziz Əliyev yenidən Dağıstan VK-nin birinci katibi seçilir; elə həmin il İkinci çağırış Dağıstan MSSR Ali Sovetinə deputat seçilir. Dağıstan partiya təşkilatının və respublikanın zəhmətkeşlərinin faşist Almaniyası üzərində qələbədə böyük töhfəsini qeyd edən Əziz Əliyev 1947-ci il oktyabr ayının 11-12-də keçirilmiş XVIII partiya konfransındakı (müharibədən sonrakı birinci) çıxışında deyirdi: "Bizim Dağıstan partiya təşkilatı Böyük Vətən müharibəsi illərində partiyamızın əzmkar və vahid dəstəsi kimi özünü göstərdi və cəbhədəki vəziyyət şəraitində o, mənfur düşməni tez məğlub etmək, döyüşən orduya yardımı artırmaq üçün bütün qüvvələrini, bütün kommunistləri, şəhər və kəndin bütün zəhmətkeşlərini səfərbər etdi. Müharibənin ilk günlərindən çoxmillətli respublikamızın xalqları bütün sovet xalqı ilə birlikdə öz sevimli Vətəninin müdafiəsinə qalxmış, Vətən müharibəsi cəbhələrində düşmənə qarşı qəhrəmancasına vuruşmuş, aramsız olaraq fədakarlıqla, yorulmadan çalışmış, cəbhəni silah, sursat, texnika və ərzaqla təmin etmişdir".

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XVIII konfransında görülən işlər haqqında aşağıdakı fikirlər qeyd edilirdi:**

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XVIII konfransının hesabatı üzrə qərarından.**

14 oktyabr 1947-ci il.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi yoldaş Əziz Əliyevn

məruzəsini dinləyib müzakirə etdikdən sonra Sov.İK(b)P Dağıstan Vilayət Komitəsinin 1940-cı ilin mart ayından 1947-ci ilin oktyabr ayına qədər olan dövrdəki işi haqqında - Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin XVIII konfransı qeyd edir:

Müharibədən əvvəlki dinc quruculuq illərində bolşeviklər partiyasının Lenin-Stalin milli siyasəti nəticəsində və yoldaş Stalinin daimi atalıq qayğısı və diqqəti sayəsində Dağıstan MSSR xalq təsərrüfatının, elmin, mədəniyyətin və incəsənətin bütün sahələrində çox böyük uğurlar qazanmışdır.

Böyük Vətən Müharibəsi illərində Dağıstan partiya təşkilatı özünü bolşevik partiyasının monolit, əzmkar və vahid dəstəsi kimi göstərərək Dağıstan xalqlarını birləşdirməyə, bütün qüvvə və vasitələri Vətənin müdafiəsinə yönəltməyə nail olmuşdur. Respublikanın on minlərlə kommunisti və partiya üzvü olmayanlar əl-ələ verib Vətəni müdafiə etdi, öz borcunu şərəflə yerinə yetirdi.

Müdafiə qurğularının tikintisində, fabriklərdə, kolxoz və sovxoz tarlalarında, müəssisə və təhsil ocaqlarında minlərlə fəhlə, qulluqçu, kolxozçu, alim, mütəxəssis, rəssam və yazıçı fədakarlıqla çalışıblar. Cəbhənin silah, sursat, texnika və ərzaqla təchizatında iştirak ediblər.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi və Sovet hökuməti respublikamızın zəhmətkeşlərinin düşmənə qalib gəlməyindəki xidmətlərini yüksək qiymətləndirmiş, 40 nəfər dağıstanlı Sovet İttifaqı Qəhrəmanı fəxri adına, 12 min nəfər isə Sovet İttifaqının müxtəlif orden və medallarına layiq görülmüşdür. 25 min nəfər Qafqazın "Müdafiəsinə görə" medalı ilə, 90 min nəfərdən çoxu isə "Böyük Vətən Müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.

İndi, müharibədən sonrakı dinc quruculuq illərində respublikanın zəhmətkeşləri Stalinin dördüncü beşillik planını artıqlaması ilə yerinə yetirmək üçün fədakarlıqla mübarizə aparırlar.

Hesabat dövründə partiya təşkilatımız xeyli yüksəlmiş, partiya təşkilatı möhkəmlənmiş, partiya-siyasi və ideoloji iş yaxşılaşmışdır.

1940-cı il yanvar ayının 1-də partiya təşkilatında 14637 kommunist var idisə, 1947-ci il sentyabr ayının 1-də onların sayı 24327 təşkil edir. Partiya üzvlərinin 5091 nəfəri (21,2 faiz) qadınlardan ibarətdır.

Ümumi təhsil səviyyəsinə görə partiya təşkilatının tərkibi yaxşılaşmışdır. İbtidai təhsili olmayan və savadsız partiya üzvlərinin və namizədlərin faizi 1940-cı il yanvar ayının 1-də 39,9 %-dən 1947-ci il yanvar ayının 1-də 23,2%-ə enmişdir.

Sənayedən, kənd təsərrüfatından, sovet ziyalılarından qabaqcıl şəxslərin partiya sıralarına seçilməsi istiqamətində xeyli iş görülmüşdür.

İlk partiya təşkilatlarının şəbəkəsi iki dəfə artmışdır. 1940-cı il yanvar ayının 1-də respublika üzrə 815 ilk partiya təşkilatı var idisə, 1947-ci il sentyabr ayının 1-də onların sayı 1602-ə çatmışdır.

İlk partiya təşkilatlarının gücləndirilməsi, onların avanqard təşkilatçılıq rolunun artırılması istiqamətində xeyli iş görülmüşdür.

İstər müharibə illərində, istərsə də müharibədən sonrakı dövrdə, xüsusən SSRİ, RSFSR və DMSSR Ali Sovetlərinə seçkilər zamanı əhali arasında çoxlu təbliğat-təşviqat işləri aparılmışdır.

1946-1947-ci illərdə İlk partiya təşkilatlarının nəzdində 350 siyasi məktəb fəaliyyət göstərirdi ki, bunlarda 6000-

dən çox insan təhsil almışdır. Təhsilsiz kommunistlərin savad alması üçün 116 orta məktəb (1500 nəfərlik) yaradıldı. 8000-ə qədər insan ideoloji-siyasi səviyyəsini yüksəltmək üçün öz üzərində müstəqil işləyir.

Respublikanın partiya təşkilatı Ali Sovetlərə seçkilərə hazırlıq dövründə və seçkilərin keçirildiyi günlərdə əhali arasında geniş siyasi iş aparmış və beşillik planı əməkçilərə izah etmişdir.

Məktəblərin, xəstəxanaların, poliklinikaların sayı artmışdır. Elmi-mədəni quruculuq sahəsində respublikada Elmlər Akademiyasının bazası təşkil olundu. Respublikada minlərlə gənc kadr yetişdi. Kurs və məktəblərdə 800-dən çox aparıcı rayon partiya və sovet işçisi hazırlanır. Bu il ikiillik rayon partiya məktəbi və rəhbər partiya və sovet işçiləri üçün doqquz aylıq yenidənhazırlanma kursları açıldı.

Respublikanın ali məktəbləri 1600-dən çox mütəxəssis hazırlayıb. Orta və istehsalat təhsili müəssisələrində 2000-dən çox mütəxəssis hazırlanmışdır. Staxanov məktəblərində, peşə kurslarında və fərdi təlimlərdə 55 minə qədər insan hazırlandı, onlardan 21 341 nəfəri qadınlardır. Qısamüddətli kütləvi ixtisas kurslarında 25 444 nəfər heyvandarlıq, 36 565 nəfər isə tarla təsərrüfatları üzrə mütəxəssislər hazırlanmışdır.

Təşkilat-partiya və partiya-siyasi işinin təkmilləşdirilməsi, kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyəsi respublikanın xalq təsərrüfatının və mədəniyyətinin bütün sahələrinin yüksəlişinə şərait yaratdı.

Hesabat dövründə respublikada neft sənayesi də yüksəlmişdir. Stalinin yeni beşillik planının birinci ili olan 1946-cı ildə respublika sənayesi 1945-ci illə müqayisədə 12 milyon rubldan çox məhsul istehsal etdi. 1946-cı ildə

dəmir yolu nəqliyyatı ümumi daşıma planını 115,1 faiz yerinə yetirmişdir.

Hesabat dövründə 33 yeni rabitə şöbəsi açılmış, 10 telefon stansiyası tikilmiş, radio mərkəzlərinin tutumu artırılmışdır.

Böyük Oktyabr Sosialist İnqilabının 30 illiyinə Stalin beşilliyinin ikinci ilinin planını yerinə yetirmək üçün Ümumittifaq Sosializm Yarışına qoşulan respublikanın müəssisələri 1947-ci ilin 8 aylıq planını ümumi məhsul üzrə yerinə yetirərək, məhsul buraxılışını 102,1 faiz artırmışdır. Dəmir yolu nəqliyyatı ilə daşımaların ümumi planı 122 faiz yerinə yetirilmişdir.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin fevral Plenumunun "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatının inkişafı tədbirləri haqqında" qərarı respublikanın zəhmətkeşlərində müstəsna siyasi və ruh yüksəkliyi yaratdı.

1947-ci ildə yaz səpinləri daha mütəşəkkil və qısa müddətdə aqrotexniki qaydada aparılmışdır.

Yoldaş Stalinə verilən sözü yerinə yetirərək, bir çox kolxoz və sovxozlar 1947-ci ildə taxıl və digər kənd təsərrüfatı sahəsində bol məhsul yetişdirdilər. Bu il respublika SSRİ-də taxıl tədarükü planını birinci olaraq yerinə yetirdi.

Dağıstanın bir çox rayonlarının heyvandarları mal-qaranın baş sayını artırmaq, mal-qaranın cins və məhsuldarlığını yaxşılaşdırmaq sahəsində üzərlərinə götürdükləri öhdəlikləri şərəflə yerinə yetirirlər.

Ümumilikdə, respublikada heyvandarlığın illik inkişaf planı 1947-ci ilin oktyabr ayının 1-nə yerinə yetirilmişdir: bu, atlar üzrə 100,2 faiz, qoyun və keçilər üzrə 103,4 faiz, mal-qara üzrə isə 97,3 faiz təşkil edib.

Dövlət və kooperativ ticarətində müəyyən uğurlar əldə edilmişdir. Nazirlər Sovetinin və KP MK-nın taxılın qənaəti və xərclənməsi, ticarət orqanlarının işinə nəzarətin gücləndirilməsi tədbirləri haqqında qərarının icrası istiqamətində xeyli iş görülmüşdür. Son bir ildə ticarət orqanlarını kadrlarla gücləndirmək üçün 176 kommunist göndərilib...

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 83, iş. 3, s. v. 466-469).

Əziz Əliyev 15 noyabr 1948-ci il tarixində SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Moskvanın 800 illiyi" xatirə medalı ilə təltif olunmuşdur.

Çox məşğul olmasına baxmayaraq, Əziz Əliyev insanları, peşəkar kadrları heç vaxt unutmamış, elmli və yaradıcı ziyalılara daim qayğı göstərmişdir. Əziz Əliyev elmə xüsusi diqqət ayırırdı. Əgər müharibədən əvvəl Dağıstanda 8 elmlər doktoru var idisə, Əziz Əliyevin rəhbərliyi dövründə 16 elmlər doktoru və elmlər namizədlərinin sayı 62 nəfərə yüksəldi, onlardan 16 nəfəri Dağıstandan idi.

Respublikanın ali məktəblərində 1600-dən çox ali təhsilli mütəxəssis hazırlanmışdı. Bundan əlavə, 1947-ci ildə respublikaya digər bölgələrdən 1200 nəfər ali və orta ixtisas təhsilli mütəxəssis qəbul edilmişdi. 84 nəfər Moskva və Leninqrad universitetlərinə oxumağa göndərilmişdi. SSRİ Elmlər Akademiyasında 10 nəfər aspiranturada, 5 nəfər isə doktoranturada təhsil alırdı.

Əziz Əliyev Dağıstan ziyalılarının bir çox nümayəndələrini şəxsən tanıyırdı. Dostluq münasibətləri onu Dağıstanın xalq şairi Həmzət Sadasa, ədəbiyyatşünas Kamil Sultanov, məşhur alim-tarixçi, respublikanın o vaxtkı Xalq Maarif Komissarı Rəsul Maqomedov və digərləri ilə

bağlayırdı. Müharibə illərində, 1944-cü il fevralın 20-də Dağıstan Vilayət Partiya Komitəsinin qərarı ilə Dağıstanın xalq şairi Həmzət Sadasanın yaradıcılığının 50 illik yubileyi respublikanın mədəni həyatında xüsusilə əlamətdar hadisə kimi qeyd olunmuşdu. Əziz Əliyev Dağıstanın digər rəhbərləri ilə birlikdə xalq şairinə təbrik məktubu göndərmiş və respublikanın bu hadisəyə həsr olunmuş ictimai yığıncağında iştirak etmişdir.

İnsanlara belə diqqət və qayğı Əziz müəllimin təbiətindən irəli gələn daimi xüsusiyyətləri idi. 1948-ci ilin dekabr ayında Moskvaya oxumağa getməsi ilə əlaqədar Mahaçqalanı tərk etdikdə, Böyük Vətən müharibəsində qazanılan qələbə şərəfinə dağıstanlılar onları vaxtilə sürgündən xilas etdiyinə görə yüksək hörmət və etimad əlaməti olaraq öz liderləri Əziz Əliyevə hazırda Milli Azərbaycan Tarixi Muzeyində qiymətli eksponat kimi qorunub saxlanılan möhtəşəm xəncər hədiyyə etmişlər. Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edildikdən sonra Bakıda işlədiyi müddətdə də Əziz müəllim Dağıstanla, işlədiyi şəxslərlə əlaqəsini kəsməmişdir. Dağıstanlılar da ona eyni rəğbət və hörmətlə cavab verirdilər. Bu barədə Əbdürrəhman Daniyalov yazır **(Абдурахман Даниялов.** *Воспоминания. Махачкала: Даг. кн. изд-во. 1991. с. 222-254): "1942-ci ilin sentyabrında Azərbaycandan gələrək Sov.İK(b)P Dağıstan Vilayət Komitəsinin birinci katibi olmuş Əziz Əliyev, Dağıstan xalqına tam güvənən və onlara tam arxalanan bir adam oldu. O, respublikanın partiya təşkilatında birlik, dostluq, yaradıcılıq mühitini yenidən bərpa etdi.*

*Tibb elmləri doktoru Əziz Əliyev Dağıstana qədər Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi işləmiş və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası*

*MK birinci katibi, Zaqafqaziya Hərbi Şurasının üzvü M.C.Bağırovun tövsiyəsi ilə Dağıstana rəhbər təyin edilmişdi. O, polkovnik rütbəli hərbi geyimdə idi, lakin gələn kimi hərbi formasını mülki geyimə dəyişdi. Yaraşıqlı, şən, təvazökar, səbrli Əliyev olduqca məsuliyyətliliyi, xeyirxahlığı, istiqanlılığı ilə seçilirdi. Vilayət Komitəsində işlədiyi ilk aylarda Əziz dağıstanlıların vəziyyətini, xarakterini və adət-ənənələrini öyrənirdi.*

*Mənə tam etibar etdi və dəstək oldu. Birlikdə şəhərlərə, rayonlara getdik, iclaslar, konfranslar keçirdik və iştirak etdiyimiz tədbirlərdə Vilayət Komitəsinin bürosunda olduğu kimi çıxış etmək istəyənlərə icazə verirdi, son sözü bir çox hallarda mənə verir və sonra yığıncağı yekunlaşdırırdı. Mən Əzizdən çox şey, ilk növbədə yoldaşlarını səbrlə və tam şəkildə dinləmək, yüksək vəzifədən, tabeliyində olanlarla münasibətdə bilik və bacarığının üstünlüyündən istifadə etməmək, işçinin ləyaqətini alçaltmamaq, məsələnin mahiyyətini dərindən araşdırmağı və sözünü yarımçıq kəsməməyi öyrəndim. Onunla işləmək, ünsiyyət qurmaq çox asan idi, təkəbbür və özünü tərifləmə elementləri ona yad idi. O, "özünəvurğun" adam deyildi, insanları güldürməyi, gülməyi də sevirdi.*

*Əliyevin həyat yoldaşı Leyli xanım kifayət qədər dolğun qadın idi. Əziz onunla zarafat etməyi sevirdi, o da heç incimirdi. Bir dəfə Əziz balıqçılıq mövsümündə səyahətə çıxır və onun təkidi ilə Leyli xanımı da özü ilə aparır. Balıqçılıq təsərrüfatına yaxınlaşan Əziz maşından düşür, balıqçılığın rəhbərliyi ilə salamlaşıb, Leyli xanımı onlara təqdim edib: "Balıqçılıq sənayesi naziri bizə gəlib, vəziyyəti ona bildirin" - deyir. Bu hadisə sonralar həmkarlarımız arasında xoş təbəssümlə xatırlanırdı.*

*Gərgin, çətin iş dönəmində Əliyev iş yoldaşlarını ruhlandırmaq üçün həmişə bir səbəb tapırdı. Əliyevlə birlikdə Azərbaycandan daha 16 kommunist gəlmişdi, o cümlədən: Sov. İK(b)P*

*Vilayət Komitəsinin ikinci katibi Ərşavir Ağababov, DMSSR Xalq Komissarları Soveti sədrinin birinci müavini Tixon İvanoviç Rixirev, Dərbənd şəhər komitəsinin katibi Məmmədov, Qasımkənd rayon katibi Bağırov, Vilayət Partiya Komitəsinin Təşkilat və Təbliğat şöbəsinin müdiri Salam Aydınbəyov. Bütün bu yoldaşlar sonradan Dağıstanı tərk etdilər, bəziləri öz istəkləri ilə, bəziləri də məcburən..."*

## AZƏRBAYCAN, BAKI

Beləliklə, Əziz Əliyev 29 noyabr 1948-ci il tarixində təhsilini davam etdirmək üçün Moskvaya - Sov. İK(b)P MK-nın İctimai Elmlər Akademiyasının nəzdindəki Ali Partiya Məktəbinə göndərilir.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin büro iclasının 74 №-li protokolundan ÇIXARIŞ.**

Mahaçqala, 29 noyabr 1948-ci il.

İştirak edirlər: Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Vilayət Komitəsinin büro üzvləri Əliyev Ə. M., Daniyalov Ə. D., Taxtarov G. A., Aydinbəyov S. M., Ququchia A. İ., Rixirev T. İ.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 17 noyabr 1948-ci il tarixli qərarı.**

Daniyalov Ə.D. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi təyin edilsin. Ümumittifaq Kommunist (b) Partiyası Vilayət Komitəsinin birinci katibi Əziz Əliyev Sov. İK(b)P MK-nın İctimai Elmlər Akademiyasının nəzdindəki Ali Partiya Məktəbinə göndərilməsi ilə əlaqəli vəzifəsindən azad edilsin.

Təşkilati məsələlərə baxmaq üçün 1948-ci il dekabr ayının 3-də Sov.İK(b)P Vilayət Komitəsinin beşinci plenumu çağırılsın.

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin katibi Ə.Əliyev.**

(DDMPA, f. 1, s. 1, iş. 7182, s. v. 435-436).

**Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin beşinci plenumu QƏRARA alır:**

1. Yoldaş Əliyev Əziz Məmmədkərim oğlu Sov.İK(b)

P MK-nın İctimai Elmlər Akademiyasının nəzdindəki Ali Partiya Məktəbinə göndərilməsi ilə əlaqədar Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad edilsin.

2. Yoldaş Daniyalov Ə.D. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin birinci katibi seçilsin.

(DDMPA, f. 1, s. 1, i. 6772, s. v. 58).

Əziz Əliyev təhsilini başa vurduqdan sonra, 15 yanvar - 16 fevral 1950-ci il tarixləri dövründə Sov.İK(b)P MK-da inspektor vəzifəsində işləyir; 30 fevral 1950-ci il tarixdən isə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin olunur. O, 1950-1954-cü illər üçüncü çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Keçən əsrin 50-ci illərindən başlayaraq, rəhbər vəzifələrdə azərbaycanlaşdırma siyasətinin daha əhatəli həyata keçirilməsinə başlanıldı. Məhz bu dövrdə həm Bağır Seyidzadənin Kinematoqrafiya naziri kimi, Azərbaycanın tanınmış alimlərindən biri, geologiyanın inosemerlər sahəsi üzrə ilk Azərbaycan alimi Musa Əliyevin Elmlər Akademiyasının Prezidenti seçilməsi kimi təyinatlar oldu *(onu da qeyd etmək istəyirəm ki, M.C.Bağırova Musa müəllimin Elmlər Akademiyasının prezidenti olması təklifini tanınmış cərrahımız - Akademiyanın ilk prezidenti Mirəsədulla Mirqasımov vermişdi - A.M.).*

Vəli Axundovu Səhiyyə nazirinin müavini təyin etdilər, digərləri də irəli çəkilirdilər. İcraedici strukturlarla yanaşı, eyni zamanda qanunverici və nəzarətedici orqanların yüksək vəzifələrinə də gənc azərbaycanlılar irəli çəkilirdi. Amma siyasi rəhbərlikdə gəncləşmə və bir çox hallarda azərbaycanlaşma siyasəti çox ciddi qısqanclıqla qarşıla-

nırdı. Yəni, faktiki olaraq Azərbaycan rəhbərliyinə qarşı kommunist qiyafəsində gizlənmiş daşnak erməni siyasi elitasının total hücumu başlamışdı. Anonim məktublar daha çox Moskvaya ünvanlanırdı. Moskvada da bəzi qüvvələr bundan Bağırovu vurmaq üçün istifadə etməyə çalışırdılar. Məsələn, məktubların birində yenicə irəli çəkilən Vəli Axundovdan yazırdılar:

"Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov yoldaşa!

Biz bolşevik sayıqlığımızı itirmədiyimiz üçün bir məsələni bilən kimi Sizə yazmalı olduq.

Azərbaycan səhiyyə nazirinin müavini vəzifəsinə müsavatçı və xalq düşmənlərinin içərisindən çıxmış Vəli Axundov adlı birisi soxulmuşdur. Bu adamın əmisi oğlu Əkbər Axundovu Siz yaxşı tanıyırsınız.

**1.** Əkbər Axundov kiçik yaşlarından Saray kəndində təşkil olunan Müsavat Partiyasının 1920-ci ilə kimi katibi olmuşdur. Sonradan Kommunist Partiyası sıralarına daxil olmuş, nəhayət, Narkomzem Vasilkinin, Həmid Sultanovun vasitəsilə Naxçıvan Ölkə Partiya Komitəsinin rəhbərliyinə soxulmuşdur. Bu xalq düşməninin nə kimi işlər gördüyü və ailəsinin ifşa olunduğu Sizə çoxdan məlumdur.

**2.** Əbülfəz Axundov da keçmişdə Müsavat Partiyasının üzvü idi. Sonralar Bolşeviklər Partiyası sıralarına daxil olmuş, kolxoz quruluşuna ziyan verdiyindən deputat Nəriman Məmmədova sui-qəsd hazırlamaq üstündə, nəhayət, ifşa olunmuşdur.

**3.** Əsgər Axundov öz qardaşlarının işini davam etdirdiyindən 1941-ci ildə ifşa olunmuşdur.

**4.** Əli Axundov kiçik qardaş olmaqla ardıcıllıq edirdi. Nəhayət, bu da 1941-ci ildə Qazaxıstana sürgün edilmişdir.

Qəhrəman Sadıxlı Axundovların böyük bacısı Sayad

Axundovanı alaraq bunlarla qohum olmuşdur. Qəhrəman Sadıxlı 1920-ci ilədək Saray kəndində Müsavat Partiyasının sədri olmuşdur. Qaynı Əkbər Axundov isə bu partiyanın katibi idi. Sonralar Bolşevik Partiyası sıralarına soxulan Sadıxlı, nəhayət, 1937-ci ildə qaynı A.Əkbər ilə birlikdə kolxoza vurduğu ziyan üstündə ifşa olundu.

Vəli Axundov belə bir müsavatçı və xalq düşməni ailəsindən çıxmışdır. İndi isə öz siyasi sayıqlığını itirən səhiyyə naziri Kübra Fərəcovanın qadınlığından istifadə edərək, birinci müavin olmuşdur. Deyildiyinə görə, Fərəcova onun yaxşı "natiq" olduğuna aldanıb özünə müavin götürmüşdür..."

Məktubdakı faktlar təsdiqlənsə də, Bağırov Mərkəzi Komitənin katibi Qəzənfər Məmmədov vasitəsi ilə Vəli Axundova başa salır ki, bu "donosçuların" ucbatından Moskvadan gələ biləcək mənfi reaksiyanı neytrallaşdırmaq üçün onun ünvanına izahedici bir məktub yazsın.

24 noyabr 1949-cu il tarixində Bakı şəhəri Voroşilov rayon Partiya Komitəsi və Səhiyyə Nazirliyinin ilk partiya təşkilatı tərəfindən "müsavatçı qohumları haqqında məlumatları partiyadan gizlətdiyi üçün" Vəli Axundova şəxsi uçot vərəqəsinə yazılmaqla töhmət elan olundu.

Yaxud, Elmlər Akademiyasının ilk prezidenti, Azərbaycanın tanınmış cərrahı, Azərbaycan Tibb Universitetinin kafedra müdiri Mirəsədulla Mirqasımovdan da Moskvaya kütləvi şəkildə məktublar yazılırdı. Məktublarda, – necə olur ki, siyasi əhəmiyyətli strateji bir müəssisə kommunist partiyasının mənsubu olmayan bir şəxsə etibar edilir, - deyilirdi. Sovet cəmiyyətinə zidd olan bəy nəslinin nümayəndəsi Elmlər Akademiyasının prezidenti seçilir və Mir Cəfər Bağırovu isə ittiham atəşinə tutaraq, necə olur ki, Azərbaycan rəhbəri buna imkan yara-

dır, - suallarını yazırdılar.

Vəziyyət o həddə gəlib çatmışdı ki, artıq Azərbaycan rəhbərliyində təmsil olunan seyidlərin siyahısı verilirdi. Məsələn: Mərkəzi Komitənin ikinci katibi Mirhəsən Seyidov, MK-nın katibi Mirteymur Yaqubov, Elmlər Akademiyasının prezidenti Mirəsədulla Mirqasımov, sonradan yeni təyin olunmuş kinematoqrafiya naziri Bağır Seyidzadənin seyidliyə bağlılığı bu qüvvələri lap hövsələdən çıxartdı. Moskvaya yazırdılar ki, Mir Cəfər Bağırov sovet cəmiyyətinə, sovet əxlaqına, bolşevik ideyalarına zidd bir seyidlər hakimiyyəti qurmuşdur. Hətta Mir Cəfər Bağırova o ittihamı da edirdilər ki, güya Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində seyid qruplaşması formalaşdırmışdır...

Moskvaya yazılan digər anonim məktublarda Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində çalışan Mirhəsən Seyidov qohumları olan həm Bağır Seyidzadənin, həm də Əziz Əliyevin havadarı kimi göstərilirdi...

Əslində Əziz müəllim bütün nailiyyətlərini özünün yenilikçi xüsusiyyəti və zəhməti ilə əldə etmişdi. Bağırovun Əziz müəllimə yaxşı münasibətinə çox qısqanclıqla yanaşanlardan biri də Nazirlər Sovetinin sədri Teymur Quliyev idi.

Burada mən bir məsələni qeyd etmək istəyirəm ki, faktiki olaraq Moskvada yeni vəzifəyə getməyə hazırlaşan Mircəfər Bağırov artıq o dövrdən başlayaraq özünə bir siyasi varis axtarışında idi. Ən ciddi namizədlərdən biri də sözsüz ki, Əziz Əliyev idi. Məhz ona görə də Əziz Əliyevi o, Moskvadan Bakıya dəvət etmişdi. Moskvaya göndərilən və ardı-arası kəsilməyən məktublarda Mirhəsən Seyidovun nazir işləyən əmisi oğlu Bağır Seyidzadənin və yaxın qohumu Əziz Əliyevin də tərcümeyi-halı ilə bağlı "tapılan" xırda faktlar *(xüsusilə xaricdə yaşayan qohumlarla*

*bağlı faktın gizlədilməsi - A.M.)* xatırladılır və onların cəzalanması tələb olunurdu.

M.C.Bağırov bu söz-söhbətlərə son qoymaq üçün Mirhəsən Seyidovu Mərkəzi Komitədən çıxarır və Nazirlər Sovetinə sədr müavini göndərir. Çox illər sonra Mirhəsən Seyidov Mərkəzi Komitənin ikinci katibliyindən üzaqlaşdırılmasını belə xatırlayırdı:

*"Gecə yarısından xeyli keçmişdi, Bağırov mənə zəng edib otağına dəvət etdi. Mən onun kabinetinə girəndə o, məni qeyri-adi nəzakət və hərarətlə qarşıladı, sonra mətbəxdə işləyən xanım içəri girib bizə çay gətirdi. Bağırov öncə Moskvaya edəcəyi səfəri və Stalinlə görüşünün əhəmiyyəti barədə bir-iki cümlə fikir mübadiləsi etdikdən sonra dedi: "Həsən, biz uzun illərdir bir yerdə işləyirik, bir-birimizi yarım sözdən başa düşürük, mənim rəhbərliyim dövründə Mərkəzi Komitədə səndən güclü ikinci katibimiz olmayıb. Bilirsən ki, Stalinlə görüşə böyük bir layihə ilə gedirik. Bu layihədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi təkcə kənd təsərrüfatını deyil, respublikanın bütün iqtisadiyyatını kəskin şəkildə yüksəldəcək və əsas yük Nazirlər Sovetinin çiyninə düşəcəkdir. Ona görə bu ağır yükü qaldırmaq üçün Nazirlər Sovetini hərtərəfli gücləndirmək lazımdır. Buna əsaslanaraq mən Stalindən Rusiya və Ukraynada olduğu kimi, bizdə də Nazirlər Sovetində sədrin birinci müavini vəzifəsinin təsis olunmasını xahiş etmək qənaətinə gəldim. Mən sənin bu vəzifəyə təsdiqini xahiş etsəm, hesab edirəm ki, Stalin bizim xahişimizə hörmətlə yanaşacaq. Həm də o sən yaxşı tanıyır, bunun haqqında nə düşünürsən?"* - deyərək soruşdu.

Sözün doğrusu, Bağırovun gözlənilməz və ustalıqla etdiyi bu təklifinə müsbət cavab verməkdən başqa çarəm qalmamışdı: *"Mən sizinlə tam razıyam yoldaş Bağırov, Siyasi Büronun və SSRİ Nazirlər Sovetinin qərar layihəsində nəzərdə tutulmuş bu ciddi problemlərin uğurla həyata keçirilməsi üçün*

*Nazirlər Sovetini gücləndirmək lazımdır. Əgər seçim mənim üzərimə düşsə, bu işə böyük məmnuniyyətlə gedəcəyəm və bunu partiyanın mənə göstərdiyi böyük etimad kimi qiymətləndirəcəyəm" - deyərək cavab verdim.*

*Çox yaxşı başa düşürdüm ki, mənim əleyhimə baş verənlərdən sonra Mərkəzi Komitənin ikinci katibi vəzifəsində qalmağım mümkün olmayacaq. Şikayət ediləcək bir şey yox idi və mənim tərcümeyi-halımla bağlı "tapılan" xırda faktlara görə (xüsusilə xaricdə yaşayan qohumlarla bağlı faktın gizlədilməsinə görə - A.M.) Bağırov məni cəzalandırmır, digər bir vəzifə təklif edirdi. Bəli, bəzilərinin tələb etdiyi kimi, məni məhv etmək üçün onun əlində hər cür səbəb var idi, amma o, bu sərt tədbirlərə getmədi və məni qorudu".*

Birtəhər Mirhəsən Seyidovu qoruya bilən M.C.Bağırov Bağır Seyidzadəni və Əziz Əliyevi vəzifədən kənarlaşdırır.

Ümumiyyətlə dövrün ictimai-siyasi mühitini daha dərindən anlamaq üçün gəlin o günlərə qısa bir ekskurs edək. Həmin günlərdə bir tərəfdən də Heydər Hüseynov məsələsi gündəmdəydi...

Heydər Hüseynov M.C.Bağırovun ən etibar etdiyi şəxslərdən biri olmuşdur. M.C.Bağırov həmişə Heydər Hüseynov yaradıcılığına hörmətlə yanaşmışdır. 1948-ci ildə M.C.Bağırovun təqdimatına əsasən, H.Hüseynov, Y.Mirbabayev, A.Orucov "Rus-Azərbaycan lüğəti"nin tərtibatına görə Stalin mükafatına layiq görülmüşdülər. O, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının müstəqil Elmlər Akademiyası kimi formalaşdırılmasına dair Moskva ilə danışıqların aparılmasını da H.Hüseynova tapşırmışdı.

Heydər Hüseynov əsasən Mirzə Kazım bəyin yaradıcılığına müraciət edərək onu tədqiq edirdi. Xüsusən də

Azərbaycanda birləşdirici simvol kimi Şirvanşah İbrahim Dərbəndinin təbliğ olunduğu dövrdə o, Mirzə Kazım bəyin Şirvanşahlar tarixi ilə bağlı araşdırmalarına və tərcümələrinə müraciət etmişdi və ondan yararlanaraq, yeni "Böyük Azərbaycan" konsepsiyasının formalaşmasında iştirak etmişdi.

Burada bir haşiyə çıxıb onu da qeyd etmək istəyirəm ki, dünən də, bu gün də Cənubi Azərbaycanda bir çox Azərbaycan əsilli ruhanilər sözdə "şiə həmrəyliyi" göstərərək, dini şüarlarla irançılıq təbliğatı aparırlar. S.C.Pişəvəri hərəkatı zamanı bu ruhanilər azərbycanlılarla farsların şiə olduğunu qeyd edərək, İran dövlətinə sədaqətli olmağa və kafirlərin məkrli planlarına uymamağa səsləyirdilər. Sonrakı dövrlərdə də biz dəfələrlə şahidi olduq ki, bu sözdə "şiə həmrəyliyi" Azərbaycan milli dövlətçiliyinin əleyhinə olan, rüşeym halında onu boğan və özülünün altında qazılmış lağımdır. Bunu biz illər sonra – 1979-1986-cı illərdə böyük din alimi təbrizli Ayətullah Məhəmməd Kazım Şəriətmədariyə münasibətin timsalında da gördük. Ona görə də M.C.Bağırovun təklifi ilə Böyük Azərbaycan layihəsinin simvolu kimi (şiə xəttini dövlət siyasətinə gətirən) Səfəvi Şah İsmayıl Xətai deyil, Şirvanşah İbrahim Dərbəndi seçilir. Bunu təsdiq edən aşağıdakı arxiv sənədini oxucularımla bölüşürəm (ARPİİİSSA, f. 1, siy. 30, sax. vah. 224):

**Azərbaycan KP(b) MK-nın katibi Krasnova**

*27 noyabr 1945-ci ildə SSRİ "Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti" İran nümayəndəliyinin Təbriz şöbəsinin Tarix və Ədəbiyyat bölməsinin növbəti iclasında Azərbaycan tarixinin XIII əsri ilə bağlı Şirvanşah İbrahim Dərbəndli barəsində mühazirə oxundu. Dinləyicilər arasında çoxlu sayda jur-*

*nalistlər, yazıçılar, şairlər və digər ziyalılar vardı.*

*Mühazirəni Mədəniyyət evinin nümayəndəsi, dosent M.H.Şərifli etdi.*

*XIV əsrin ikinci yarısında Azərbaycanın iqtisadi və siyasi vəziyyətini təsvir edən natiq, Şirvanşah İbrahim Dərbəndlinin hərbi-diplomatik statusu haqqında ətraflı danışdı. Natiq öz mühazirəsində qeyd edirdi ki, "Elxani Monqol dövlətinin zəifləmə və parçalanma dövründə yerli feodallar öz müstəqillikləri uğrunda yenidən mübarizəyə başlamışdı. Xüsusən də bu mübarizə Azərbaycanın şimalında, Şirvanda cərəyan edirdi. Müstəqillik mübarizəsi nəticəsində şirvanlılar Şirvanşah İbrahim Dərbəndli başda olmaqla, 1382-ci ildə müstəqil dövlət yaratmağa nail oldular.*

*Şirvanşah İbrahim Qızıl Orda xanı Toxtamış, Cəlairilər sülaləsindən olan Sultan Əhməd və eləcə də, Əmir Teymurla mübarizə aparırdı. Məhz Şirvanşah İbrahimin uzaqgörən və diplomatik bacarığı sayəsində, Şirvanşahlar Teymurun istilasından xilas oldu və bu müttəfiqlik nəticəsində dövlət kimi tam inkişaf etdi.*

*Şirvanşah İbrahim təkcə müstəqillik deyil, həm də bütöv Azərbaycan uğrunda mübarizə apararaq feodalları bir vahid dövlət şəklində birləşdirməyə çalışırdı. Şirvanın müstəqilliyi və milli dövlət fəaliyyəti Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafı üçün geniş imkanlar yaratdı. Bu da Azərbaycanın müstəqilliyi üçün dayaq nöqtəsi oldu".*

*Sonda mühazirəçi Şirvanşahlar dövlətinin iqtisadi-siyasi vəziyyətindən, onun xarici ölkələrlə, xüsusən də Moskva ilə əlaqələrindən bəhs etdi. Mühazirəçiyə iştirakçılar arasından çoxlu suallar verildi.*

*Sonra "Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti" Rəyasət Heyətinin üzvü cənab Naxçıvani çıxış edərək, "Şirvanşah İbrahimin diplomatik qabiliyyətini və böyük dövlət xadimi kimi*

*əhəmiyyətini vurğulayaraq, onunla bağlı bir neçə siyasi əhəmiyyətli məqamlara toxundu.*

*Növbəti mühazirəmiz Azərbaycanın məşhur şairi Nəsimiyə həsr olunacaqdır.*

**SSRİ "Xarici ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti" İran nümayəndəliyinin direktor müavini H.Məcidov.**

* * *

Akademik Heydər Hüseynov elə hesab edirdi ki, *(arxivdə Heydər Hüseynovun, Mirzə Kazım bəyin yaradıcılığı və həyatı ilə bağlı nəşrinə qadağa qoyulmuş çox ciddi tədqiqat əsəri vardır (keçmiş Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi; indiki Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi - ARPİİİSSA; f.1, siy. 32, s. v. 113) inşallah, yaxın gələcəkdə onun bu tədqiqatını nəşr etdirəcəyəm - A.M.).*

Mircəfər Bağırov tərəfindən Mirzə Kazım bəyin yaradıcılığına, xüsusən də onun Şirvan tarixi ilə bağlı araşdırmalarına və tərcümələrinə müsbət münasibət olduğundan, "Şeyx Şamil və müridizm" əsəri ilə bağlı araşdırması da yaxşı qarşılanacaqdır. Hətta nəzərə alsaq ki, Əziz Əliyevin Dağıstanda işlədiyi müddətdə Şeyx Şamilin milli azadlıq hərakatının lideri kimi təbliğ olunması barədə qərar verilmişdi ***(Ümumittifaq K(b)P Dağıstan Vilayət Komitəsinin Bürosu və Dağıstan Xalq Komissarları Sovetinin Qətnaməsi;*** *6 fevral 1943, Respublikada incəsənətin inkişaf tədbirləri haqqında).*

Ona görə də Heydər müəllim Şeyx Şamili müsbət konteksdə göstərən bir kitab yazmağa qərar vermişdi. Amma kitab yazıldıqdan sonra Heydər Hüseynova qarşı təqiblər başlayır.

Bir çox müəlliflər Heydər Hüseynovun kitabının Bağırovdan xəbərsiz Stalin mükafatına layiq görülməsini,

Azərbaycan rəhbərinin qısqanclığı kimi izah edirlər. Mərhum tədqiqatçı Nəsiman Yaqublu akademik Heydər Hüseynova həsr etdiyi məqaləsində qeyd edir ki, güya "M.C. Bağırovun tanınmış rus yazıçısı A.A.Fadeyevlə arası yox idi və Heydər Hüseynov "kişi"nin başının üstündən iş görmüşdü. Özü də işi kiminlə görüb? - Fadeyevlə. Onun xoşlamadığı bir adamla. Belə alimlərə yaxşı "dərs" vermək lazım idi". Ona görə Heydər Hüseynova qarşı təqiblər başlamışdı.

Bəs əsl səbəb nə idi?

Heydər Hüseynov bir məsələni - dövrün mövcud siyasi konyukturasının dəyişməsini nəzərə almamışdı. Yəni, əgər bir neçə il öncə Mirzə Kazım bəyin Şeyx Şamil hərəkarı ilə bağlı araşdırmaları və ya tərçümələri müsbət qarşılanırdısa, müharibədən sonra ölkədə tamam başqa ab-hava yaranmışdı. Onu hiss etməyən bizim dəyərli və gözəl alim-ədibimiz H.Hüseynov da bax, bu dəyişmiş siyasi kursun qurbanı oldu...

Artıq Şirvanşah İbrahim Dərbəndi deyil, XVIII əsrdə Quba xanı olmuş Fətəli xan təbliğ olunurdu. Fətəli xanın birdən-birə təbliğ olunmasının səbəbi bu idi ki, o, Azərbaycan xanlıqlarını birləşdirmək siyasətini yeritsə də, xarici siyasətdə Rusiya imperiyası ilə yaxınlığına görə dövrünün digər xanlarından seçilmişdi. Ona görə də Həzi Abdullayevin 1948-ci ildə çapdan çıxmış "Fətəli xanın Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizəsi və onun xarici siyasəti" adlı kitabı M.C.Bağırov tərəfindən yüksək qiymətləndirilmiş və kitabın Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında müzakirəsində şəxsən özü iştirak etmişdi.

Yuxarıda qeyd etdiyim kimi, 1949-ci ildə Heydər Hüseynovun yeni çapdan çıxmış kitabında Şeyx Şamil haqqında

yazdığı müsbət fikirlər, gözlənildiyi kimi, Bağırov tərəfindən amansızlıqla atəşə tutuldu. Digər tərəfdən Heydər Hüseynovla səmimi ünsiyyət saxlayan M.C.Bağırovun ona qarşı münasibətini dəyişdirən hansı səbəblər idi?..

M.C.Bağırov 1950-ci ildə "Müridizm və Şamil hərəkatının xüsusiyyətləri barədə" kitabında yazırdı: "Heydər Hüseynov Şamil hərəkatını azadlıq və mütərəqqi addım kimi qiymətləndirir. Bu qiymət marksist nöqteyi-nəzərdən və siyasi baxımdan səhv, tarixi həqiqətlərə və tarixi materializmə ziddir.

Müridizm İslamda daha savaşqan və irticaçı cərəyan olmuşdur, xalq kütlələrinə qarşı zülm aləti kimi istifadə edilmişdir. İşğalçı türk ordusuna, ingilis müstəmləkəçilərinin maraqlarına qulluq etmişdir. O, Dağıstanı Rusiyadan ayırmağa çalışmış, Qafqaz xalqları arasında rus xalqına qarşı nifrət hissi oyatmışdır. Ona görə də Şamil hərəkatı sırf mürtəce xarakter daşımış, inqilabi hərəkatın maraqları ilə ziddiyyət təşkil etmiş, Dağıstanda zəhmətkeş qüvvələrin sinfi özünüdərk prosesinə ləngidici təsir göstərmişdir".

Sözsüz ki, yuxarıdakı fikirlər oxucuda Bağırov tərəfindən irəli sürülən arqumentin imperiya konyukturasına kökləndiyi təsəvvürünü yaradır. Çox güman ki, Bağırov özü də bu sözləri yazarkən haqsız olduğunu bilirdi. Çünki, Dağıstanı Azərbycana birləşdirmək təşəbbüsü ilə çıxış etdiyinə görə məhz onu ittiham edirdilər. Burada yenə Daniyalovun xatirələrinə istinad edəcəyəm (***Абдурахман Даниялов.*** Воспоминания. Махачкала: Даг. кн. изд-во. 1991. с. 222-254):

*"Bir dəfə, 1943-cü ildə antihitler koalisiyasının dövlət başçılarının Tehran konfransından sonra M.C.Bağırov bizə İ.V.Stalinlə görüş zamanı ona Dağıstanın yaşadığı çətinliklərdən və bu*

*respublikanın Azərbaycana birləşdirilməsi ideyasını söylədiyini dedi.*

*Bağırov dedi ki, İ.V.Stalin soruşur: "Dağıstanlılar belə bir təklifə necə reaksiya verəcəklər?" M.C.Bağırov belə cavab verib: "Məncə, pis deyil". Söhbət orada bitdi. M.C.Bağırova dedim ki, yoldaşlar ilə bunu məsləhətləşmək lazımdır.*

*Azərbaycan rəhbərliyinin bu niyyətləri ilə bağlı şayiələr xalq arasında, xüsusən Dağıstan əsilli və qeyri-Dağıstan əsilli partiya fəallarının böyük bir qrupunun Bakıdan insanların Dağıstana rəhbər vəzifələrə göndərilməsindən sonra sürətlə yayıldı.*

*Bir müddət sonra DMSSR Ali Soveti Rəyasət Heyətinin sədri Adil-Gerey Taxtarov RSFSR Xalq Səhiyyə Komissarının Dağıstana gəlişi münasibətilə öz mənzilində nahar verirdi. Qonaqlar arasında digər yoldaşlardan başqa Leninqrad dalğıc məktəbinin rəhbəri kontr-admiral Skrqanov da var idi (məktəb Mahaçqalaya təxliyə edilmişdi). Qələbə üçün sağlıqlar deyildi, içdilər, yedilər, əyləndilər. Birdən Skrqanov mənə ad və ata adı ilə müraciət etdi və dedi: "Sən üzünü cənuba deyil, şimala - Moskvaya yönəlt". Bu qeyd məni Dağıstanın Azərbaycana verilməsinin mənası və siyasi nəticələri haqqında ciddi düşünməyə vadar etdi və belə bir təklifə mənfi münasibətimi təsdiqlədi.*

*Axı M.C.Bağırov yəqin ki, İ.V.Stalinlə söhbətinin məzmununu və Dağıstanı Azərbaycanın tərkibində görmək istəyini Əziz Əliyevə də çatdırmışdı. M.C.Bağırov Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin və Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının üzvü kimi təkcə Azərbaycanda deyil, Zaqafqaziya və Dağıstanda da böyük səlahiyyətlərə malik olan bir şəxs idi. Bundan əlavə, biz M.C.Bağırovu böyük, mötəbər bir yoldaş kimi 1937-1938-ci illərin tufanından sağ çıxmış tək-tük Qafqaz liderlərindən biri kimi tanımışıq. Üstəlik, onun cəbhə xəttinə çevrilmiş Dağıstanla bağlı niyyətini də səmimi olaraq yaxşı qəbul edirdik, ona böyük hörmət var idi.*

*Bir dəfə Moskvada Ali Sovetin sessiyasından sonra axşam saatlarında Əziz Əliyev mənə və DMSSR Ali Soveti Rəyasət Heyətinin sədri Adil-Gerey Taxtarova dedi ki, M.C.Bağırov bizi Moskvadakı evinə qonaq çağırır. Biz Əziz Əliyevin təklifi ilə M. C.Bağırovun mənzilinə getdik. Onun kefi çox kök idi və dərhal belə bir şey dedi: "Mən Stalinin bağında onunla nahar etdim. Dağıstanın Azərbaycana verilməsi məsələsi prinsipial olaraq həll edilib. Bunun üçün Stalinə bir qeyd yazın". Biz bir-birimizə baxdıq. Əziz Əliyev dedi ki, "Mir Cəfər Abbasoviç, sabah düşünüb bir qərar verərik".*

*Mehmanxanaya qayıdandan sonra Əziz Əliyevə dedim ki, M.C.Bağırovun yanında deyirsiz ki, qərar verərik, axı nə qərar verəcəyik ki? Vilayət partiya komitəsi plenumunun qərarı olmadan biz belə bir qeyd yaza bilmərik. Razılaşdıq ki, o, bu barədə M.C.Bağırova desin. Bunun hansı formada çatdırıldığını bilmirəm, amma bundan sonra Bağırov mənə qarşı qəzəb və nifrət bəslədi, bunu sonrakı hadisələr də təsdiqlədi. Bağırov bizə zahirən bərabər münasibət bəsləyirdi. Lakin müharibənin sonrakı illərində bir daha Dağıstanda görünmədi".*

II Dünya müharibəsindən sonra, 1945-ci ilin sentyabr ayında ABŞ qoşunları Cənubi Koreyaya girmişdi. SSRİ, ABŞ və Böyük Britaniyanın xarici işlər nazirlərinin Moskva müşavirəsinin (1945, dekabr) qərarına əsasən, Koreya müvəqqəti olaraq, 38-ci paraleldən Şimala Sovet, Cənuba ABŞ zonalarına bölündü. Sovet zonasında Şimali Koreya Xalq Demokratik Respublikası, cənubda isə Cənubi Koreya Respublikası yaradıldı. 1949-cu il oktyabr ayının 12-də KXDR ilə birinci diplomatik münasibətləri SSRİ yaratdı, iqtisadi-mədəni əməkdaşlıq haqqında müqavilə imzalandı. Lakin artıq atom silahını əldə etmiş SSRİ 1945-ci il Moskva müşavirəsində razılaşdırılmış bəndləri pozaraq, Şimali Koreyada yeni dövlət quruluşunun formalaşması-

na şərait yaratdı. Bu da beynəlxalq ictimaiyyət, xüsusilə də, ABŞ tərəfindən kəskin etirazla qarşılandı.

ABŞ SSRİ-nin bu addımına qarşı Birləşmiş Millətlər Təşkilatında xüsusi qətnamə qəbul etdirdi. 1950-ci il iyun ayının 25-də 16 dövlətin silahlı qüvvələri BMT-nin sülhməramlı qoşunları adı altında Cənubi Koreyadan Şimali Koreyaya doğru hücuma başladı. Bu qoşunların say tərkibinə görə, ABŞ-dan sonra ikinci sırada gələn Türkiyə hərbi qüvvələri idi. Artıq Koreya cəbhəsində sovet əsgəri ilə BMT sülhməramlıları adı altında türk əsgəri üz-üzə gəlmişdi...

Belə bir məqamda Heydər Hüseynovun türk və İslam millətçiliyi mövqeyindən kitab yazması və onun Stalin mükafatına layiq görülməsi çox qəribə idi. Amma hadisələrin əsl mahiyyəti heç də göründüyü kimi deyildi. Artıq Cənubi Azərbaycanda siyasi hərəkat zamanından M.C.Bağırovun mövqeyi Kremldə əyləşənlərə yaxşı bəlli idi. Onun Stalinə göndərdiyi Böyük Azərbaycan layihəsi ilə bağlı məktublarını yuxarıda diqqətinizə yetirmişik. Ona görə də M.C.Bağırov hər dəfə Moskvaya səfəri zamanı etdiyi söhbətlərdə, eləcə də "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında" adlı kitabında Cənubi Azərbaycan məsələsini yenidən qaldırırdı.

O, 1945-ci ildə başa çatdıra bilmədiyi Cənubi Azərbaycandakı siyasi prosesləri yenidən bərpa etdirmək istəyirdi. Sözsüz ki, erməni-daşnak siyasi klanı buna laqeyd qala bilməzdi. Onlar hər vasitə ilə Bağırovu Stalinin gözündən salmaq üçün müxtəlif kartlardan istifadə etməyə çalışırdılar. Bu baxımdan, Heydər Hüseynovun birdən-birə "müridizmi təbliğ edən" əsərinin SSRİ Yazıçılar İttifaqının rəhbəri A.Fadeyevin dəstəyi ilə ölkənin Ali dövlət mükafatına layiq görülməsi, əslində, M.C.Bağırovun əleyhinə

hazırlanmış planın görünməyən tərəfi idi.

Ancaq çox təəssüf ki, bu oyunun qurbanı Azərbaycanın böyük filosofu, ictimai-siyasi xadim, akademik Heydər Hüseynov oldu.

Heydər Hüseynov təzyiqlərə tab gətirə bilmədi. Üzdəniraq, simasız ziyalıların, məddahların, boşqab dibi yalayanların təhqirlərinə dözə bilmədi. Nəticədə vena damarını kəsdi, amma akademik Topçubaşov onu ölümdən xilas etdi. Xəstəxanadan çıxdıqdan bir neçə gün sonra isə Heydər Hüseynovu bağ evində özünü asmış vəziyyətdə tapdılar...

Bax belə ictimai-siyasi kolliziyalar içərisində Stalin paranoyasına rəvac verməmək üçün hətta hesab edilirdi ki, Dədə Qorqudun da təbliği dayandırılmalıdır. Əslində "Kitabi-Dədə Qorqud"un Azərbaycanda milli sənət abidəsi kimi qiymət alması və geniş yayılması Mir Cəfər Bağırovun adı ilə bağlıdır. Hələ 1939-cu ildə onun tapşırığı ilə Həmid Araslı eposu kitab halında çap etdirmişdir. 1944-cü ildə Üzeyir bəy Hacıbəyov "Dədə Qorqud" operası üzərində işləmişdir. Əsərin librettosunu yazıçı Əli Əsgərov yazmışdır. Böyük Vətən müharibəsi illərində azərbaycanlı döyüşçülərin misilsiz qəhrəmanlıq ruhunda tərbiyə olunmasında bu eposun süjetləri əsasında yazılmış bədii əsərlər mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun prorektoru işləmiş professor Əli Sultanlı həm də Azərbaycanda Dədə Qorqudşünaslığın banilərindəndir. Onun 1946-cı ildə Bakıda nəşr olunmuş "Dədə Qorqud və yunan eposları" kitabında və başqa yazılarında Dədə Qorqudla Koroğlu arasında mənəvi bir körpünün mövcudluğunun mülahizəsi irəli sürülürdü. İndi diqqətinizi arxiv tədqiqatçısı Teyyub Qurbanın qırx il arxivlərdə apardığı tədqiqatlar zamanı aşkara çıxardığı

faktlara yönəltmək istəyirəm (Teyyub Qurban. "Düşmənlərindən güclü şəxsiyyət", 2-ci kitab, səh. 401–409): "SSRİ Yazıçılar İttifaqının türklərə nifrət, ermənilərə məhəbbət bəsləyən rəhbərləri A.Fadeyev, N.Tixonov və başqaları digər bir fitnəyə əl atdılar – "Dədə Qorqud" eposunun hansı türk xalqına mənsub olması üzrə müzakirələr açıldı. "Dədə Qorqud" haqqında elmi məqalələr yazmış alim və yazıçılar təqib olunmağa başladılar. Qardaş Türkmənistanda "Dədə Qorqud"dan qiymətli məqalələr dərc etdirmiş M.Kosayev, B.Karrıyev və O.Abıyev 25 il müddətinə azadlıqdan məhrum edildilər. Azərbaycanlı "Dədə Qorqud"çuların – M.Təhmasibin, H.Araslının, M.Rzaquluzadənin və başqalarının adları Mir Cəfər Bağırova təqdim olunmuş siyahılarda idi.

Həmin dövrdə "Pravda"nın və digər mərkəzi mətbuat orqanlarının səhifələrində başlıca mövzu Koreya torpağında gedən qanlı döyüşlər idi. "Oqonyok" jurnalının həmin ilə aid 51-ci sayında Osman Samsunoğlunun "İstanbuldan məktub" sərlövhəli geniş məqaləsi dərc olunmuşdu. Burada oxuyuruq: "Amerikalı senatorlar, hərbi alverçilər və casuslar "mütəxəssis" adı ilə Türkiyəyə sərbəst surətdə, heç bir viza və icazə almadan, istədikləri vaxt gəlirlər...

Qırğına göndərilmək üçün Türkiyədə insan qüvvəsi toplamaq onları hər şeydən daha çox maraqlandırır. Amerikanın gəmiləri Türkiyəyə Amerika silahları – toplar və tanklar gətirir, buradan isə mehmetcikləri yığaraq, amerikalıların Koreyada törətdikləri müharibədəki qırğına göndərmək üçün daşıyıb aparırlar...

Türkiyə Amerikaya təcavüzkarlıq müharibəsi üçün bir əməliyyat meydanı kimi lazımdır. Türkiyənin hakim sifətləri türklərin fikrini azdırmaq üçün Sovet İttifaqına qarşı geniş böhtan kampaniyasına başlayaraq, öz ağalarının

təcavüzkarlıq planlarını “sülh planları”, Sovet İttifaqının sülh siyasətini isə “təcavüzkarlıq siyasəti” kimi qələmə verməyə çalışırlar.”

30 iyun 1952-ci ildə “Pravda” qəzeti birinci səhifəsində verdiyi böyük fotoşəklin altından yazmışdı: “Tərəqqipərvər türk şairi, Beynəlxalq sülh mükafatı laureatı Nazim Hikmətin Moskvaya gəlməsi. Şəkildə - Nazim Hikmət Vnukovo hava limanında”.

Bu vaxt SSRİ paytaxtına, şəxsən Stalinə, “Pravda” qəzetinin baş redaktoru M.A.Suslova Yerevandan, Tiflisdən imzasız məktublar göndərilməkdə idi. Daşnakların təhriki ilə yazılmış bu “siqnallar” Azərbaycan xalqına qarşı çevrilmişdi: “Bağırov Amerika imperialistlərinə xidmət edir”, “Koreyada Sovet əsgərlərinin qanını tökən türk mehmetciklərinin komandanı Qorqud haqqında Azərbaycanda Hacıbəyov opera yazmışdır”, “Türkiyə ilə sərhəd rayonlarında məktəblilər Qorquddan səhnəciklər göstərirlər”, “Bağırovun tapşırığı ilə Bakıda rus dilində nəşr olunmuş “Kniqa moyeqo deda Korkuta” kitabı Yerevanda, Tiflisdə geniş yayılmaqdadır” və s.”

Əlbəttə, bizim azərbaycanlı “Dədə Qorqud”çular – M.Təhmasib, H.Araslı, M.Rzaquluzadə və başqaları türkmən tədqiqatçıları kimi həbs olunmadılar, yalnız görüntüyə xatir ictimai qınağa çəkildilər. Nə etməli? Moskvaya nəsə göstərmək lazım idi... Düşmənlərimizi susdurmaq üçün artıq Azərbaycan xalqı bu coğrafiyada 11-ci əsrdən deyil, daha qədimdən mövcud olan xəttin daha çox inkişaf etdirilməsinə başlanıldı. Azərbaycan xalqının daha qədim xalq olduğunu göstərmək üçün antropoloq alimimiz Rəbiyyə Qasımovanın tədqiqatlarına xüsusi önəm verilməyə başlanıldı. Düşmənlərimiz bizə: “Siz köçəri xalqsınız, buraya Səlcuqlar dönəmində gəlmisiniz”, “Bu coğra-

fiyaya gəlmiş, Malazgirdən sonra Anadoluya getmisiniz", – deyirlər. Axı Azərbaycanın hətta İslamiyyətə qədər də zəngin və qədim tarixi keçmişi olub. Yəni, Azərbaycan coğrafiyasında fərqli adlar altında olsa belə, dövlətlər olub və biz həmin o fərqli adlar daşıyan xalqların həm etnogenetik, həm də antropoloji cizgilərinin daşıyıcılarıyıq. Rəbiyyə xanım üzə çıxardı ki, Azərbaycan tarixinin 5 min illik yaşı var. Deməli, Mingəçevir su-elektrik stansiyası tikiləndə, Mir Cəfər Bağırova məruzə edirlər ki, orada çox qədim küplərdə antropoloji materiallar tapılıb. Təklif olunub ki, dəryaçanın altında qalmasın deyə, həmin materiallar oradan götürülsün. O zaman məhşur antropoloqumuz Rəbbiyə xanım bu işlərlə məşğul olub və onun tədqiqatları rus antropoloji jurnallarında dərc edilib. Aydın olub ki, bunların beş min illik tarixi var. O dövrdə Moskva həm də intensiv repatriasiya siyasətini həyata keçirirdi.

Bildiyimiz kimi, repatriasiya siyasəti Moskvanın Şərqi Anadolu layihəsənin tərkib hissəsi idi. Mikoyan-Gülpəkyan cütlüyü bu geopolitik konyukturadan maksimum istifadə etməyə çalışırdılar. Dünyanın bir çox ölkələrindən Gülpəkyan fondunun dəstəyi ilə Ermənistana daha çox daşnak ermənilər qaytarılırdı. Bu da gələcəkdə bu ermənilərin Şərqi Anadoluda sovet dövlətinin iddia etdiyi ərazilərdə yerləşdirilməsi üçün hazırlıq proqramının tərkib hissəsi idi.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, Ermənistandan deportasiya olunan Azərbaycan türkləri kütləvi şəkildə deyil, 1948-1950-ci illərdə, əsasən, Türkiyə ilə sərhəd kəndlərdən çıxarıldı. Bu köçürülmələrin digər səbəblərindən biri də dünyadan axışıb gələn erməni repatriantlarını azərbaycanlıların çıxarıldığı ərazilərdə yerləşdirilməsi idi. Amma Bağırov gələcək köçlərin qarşısını

almaq üçün aşağıdakı məzmunda Stalinə müraciət edir (keçmiş ***Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi - indiki Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi-ARPİİİSSA, f. 1, siy. 35, s. v. 161).***

**YOLDAŞ STALİNƏ**

*Daşnakların xaricdə davam edən iyrənc antisovet işində son illərdə onların Sovet Ermənistanı ərazisinin Sovet Azərbaycanı (Dağlıq Qarabağ, Naxçıvan Muxtar Soveti, Kirovabad və s.) və Sovet Gürcüstanı (Axalik, Axalkalaki, Borçalı və s.) hesabına artırılması "tələbləri" xüsusi yer tutur. Eyni zamanda, onlar Azərbaycan və gürcü xalqlarına qarşı hər bir təxribata hazırdırlar. Bununla bağlı məktuba 1947-ci ilin iyununda "Daşnaksütyun" partiyasının siyasi platforması haqqında (XIV daşnak qurultayının direktivi, siyasi vəziyyətimiz və gələcək fəaliyyətimiz - "Alik" qəzetində dərc olunmuş məqalənin tərcüməsi)" 18 və 19 fevral 1948-ci il tarixlərində Tehranda nəşr edilmiş "Mühacirət və biz" ("Alik" Tehran erməni qəzetindən, 14 aprel 1948-ci il tarixli məqalənin tərcüməsi) "Naxçıvanın Ermənistan üçün mənası" (25-26 avqust 1948-ci il tarixli) və nəhayət, daşnak inqilabi təşkilatının rəhbəri S.Vratsyanın "Alik" qəzetinin 25, 27 yanvar 1949-cu il tarixli məqaləsi haqqında məlumat əlavə edilmişdir.*

*Şübhə yoxdur ki, ingilis-amerikan imperialistləri nəinki antisovet işlərində daşnakları dəstəkləyirlər, görünür, amerikalılar daşnakların "tələblərindən" istifadə edərək, Zaqafqaziyaya hansısa yollarla nüfuz etmək kimi çoxdankı arzusularını həyata keçirmək istəyirlər. Bu baxımdan amerikalıların 1919-cu ildə Şərur-Dərələyəz və Naxçıvanla bağlı davranışlarına dair arxiv materiallarını da məktuba əlavə etmişəm. Amerikalıların daşnakların işlərində bugünkü iştirakı, xüsusilə Dağlıq Qarabağ*

*məsələsində özünü daha çox göstərir. Artıq həbs edilmiş Suvaryanın işi ilə bağlı əldə edilmiş materiallardan aydın olur ki, amerikalılar başqa işlərlə yanaşı, Sovet Azərbaycanının İran xalqına məlum təsirindən də çox narahatdırlar!*

*Həqiqətən də İran zəhmetkeşlərinin Sovet Azərbaycanını özlərinə dayaq görməsini "Mərdom" qəzetinin (Xalq partiyasının mərkəzi orqanı) 3 fevral 1949-cu il tarixli "Azərbaycan xalqımızın mübarizəsinin ən qabaqcıl barrikadasıdır" adlı və bu məktuba əlavə edilmiş məqalədən də görmək olur. Deyilənlərin işığında, Zaqafqaziyada, xüsusən də Azərbaycanda baş verən ən mühüm hadisələrlə bağlı son illərdə yazılan və ya təkrar nəşr olunan bəzi kitablar və məqalələr diqqəti cəlb edir və insanı həyəcanlandırır. Amma bəzi kitab və məqalələr var kı, bunlardan da yan keçə bilmirəm. Bu tipli kitabların müəllifləri nəinki mütəxəssis deyillər, qeyri-obyektiv və hətta şübhəlidirlər, həm də bunların məzmunu olan təxribat və şərləmə özlüyündə daşnak təxəyyülünün əsasını təşkil edir.*

*M.Şaginyanın "Sovet Zaqafqaziyası" kitabı haqqında biz, yoldaş A.A.Jdanova 21 iyul 1947-ci il tarixində müraciət etmişik (Məktubun surətini və M.Şaqinyanın özünün qeydini əlavə edirəm). Biz yoldaş G.M.Malenkova 30 sentyabr 1948-ci il tarixdə G.Xolopovun "Geri götür" kitabı haqqında da yazmışdıq (Yoldaş G.M.Malenkova ünvanlanmış məktubun surətini əlavə edirəm). Amma görünür, yoldaşlar bizi başa düşmürlər.*

*Eyni zamanda mərkəzi çap orqanlarında - "Literaturnaya qazeta"da, "Oqonyok" jurnalında və s.-də Azərbaycanın ünvanına yeni yaxşı olmayan yazılar çıxır. Bu hal məni Azərbaycan kommunistlərinin növbəti qurultayında bu məsələlər üzərində dayanmağa vadar etdi ki, bu barədə sizə yazmışam (Məktubun surətini və qurultaydakı son çıxışımın stenoqramını əlavə edirəm).*

*Yoldaş Stalin! Bizə qarşı aparılan bu qeyri-obyektiv münasi-*

*bətə son qoyulmasında, sizdən başqa heç kim bizə kömək edə bilməyəcək, ona görə də Sizə bir daha müraciət edirəm, bu məsələyə baxmağınızı ciddi şəkildə xahiş edirəm.*

*AZƏRBAYCAN K(b)P MK-nın KATİBİ (BAĞIROV).*

*Mart, 1949-cu il.*

* * *

Bax, bu addımlar daşnak erməni siyasi elitasını həmrəy şəkildə Azərbaycanın siyasi rəhbərinə qarşı yönəltmişdi. Nikolay Konstantinoviç Baybakovla 1998-ci ildə görüşüm zamanı o, mənə xatırladırdı ki, 1950-ci ildən başlayaraq Stalində belə bir fikir formalaşdırılmışdı ki, Mir Cəfər Bağırovu Bakıdan Moskvaya işə gətirmək lazımdır.

Çünki, onun repatriantların yerləşməsi üçün azərbaycanlıların Ermənistandan köçünə etiraz etməsi və onun xüsusilə son illər yürütdüyü milliləşdirmə siyasəti artıq Stalini hiddətləndirirdi.

Və həmçinin Bağırovun Cənubi Azərbaycan məsələsindəki hikkəsi onun yadından çıxmamışdı (bu barədə "M.C.Bağırov. Siyasi portret" kitabımda geniş bəhs edilib - A.M.).

İlk olaraq onu SSRİ neft naziri təyin etmək istəyirdilər. O dövrü xatırlayan Mirhəsən Seyidov qeyd edirdi ki: *"Azərbaycanda, xüsusən 1940-cı illərdə MK-ya və rəhbər vəzifələrə intensiv surətdə azərbaycanlı kadrlar irəli çəkilirdi".*

1940-1950-ci illərdə Azərbaycandakı ümumtəhsil məktəblərinin sayına baxdıqda və bu məktəblərdə keçirilən təlimin rus və ya Azərbaycan dilində olmasına nəzər saldıqda, aşağıdakı nəticəyə gəlmək mümkündür: Respublikada ümumtəhsil məktəblərinin 74 faizi Azərbaycan məktəbləridir və bu məktəblərdə tədris Azərbaycan dilindədir. Rus dilli məktəblərdə isə Azərbaycan dili və ədəbiyyatına xüsusi yer ayrılırdı.

Yenə də Mirhəsən Seyidovun xatirələrinə istinad etsək bilərik ki, Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan dahi Azərbaycan şairi N. Gəncəvinin yubiley tədbirlərinin həyata keçirilməsinə ilk dəfə ötən əsrin 40-cı illərində başlanmışdı. Həmin dövrdə istər Sovet İttifaqında, istərsə də dünyada N.Gəncəvi fars şairi kimi tədqiq və təbliğ olunurdu.

Doğrudur, 1903-cü ildə görkəmli ədəbiyyatşünasımız Firidun bəy Köçərli "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərində Nizamini tatar-türk şairi kimi göstərmiş və onun farsca yazıb-yaratmasını orta əsrlərdə bu çoğrafiyada ədəbiyyat dilinin fars dili olması ilə əlaqələndirmişdir. Firidun bəyin arqumenti bununla da bitirdi. Yəni, F.B.Köçərlinin bu fikri heç də Nizami Gəncəvinin Azərbaycan-türk şairi olmasını əsaslı şəkildə sübuta yetirmirdi. Ona görə də 1933-cü ilə qədər (M.C.Bağırov siyasi hakimiyyətə gələnə qədər) həm Azərbaycanda, həm də SSRİ-də bütün ədəbi mənbələrdə Nizami fars şairi kimi təqdim edilirdi. Eyni zamanda, o dövrdə Azərbaycan şərqşünaslıq məktəbi kadr baxımından zəif olduğundan, sovet şərqşünaslığının mərkəzi sayılan Leninqrad məktəbinə qarşı gedə bilmirdi. Yalnız 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqı təsis edilən zaman, yaradıcı insanların qarşısında Nizami Gəncəvinin azərbaycanlı olmasını əsaslı şəkildə sübut edərək, yeni tədqiqat əsərlərinin yazılması məsələsi qaldırılır.

Tanınmış ziyalılarımızdan: Abdulla Şaiq Nizaminin "İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsini dilimizə poetik tərcümə edir, İbrahim Tahir Musayev N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasını dilimizə çevirir və filologiya elmləri doktoru, ədəbiyyatşünas Mikayıl Rəfili "Nizami dövrü: həyatı, yaradıcılığı" və "N.Gəncəvi və onun yaradıcılığı" adlı əsərlərini qələmə alır. Bununla da

Nizami irsi ilə bağlı Azərbaycanda çox ciddi tədqiqatlara start verilir. Həmçinin, Nizami Gəncəvinin Azərbaycan şairi olmasını əsaslandırmaq üçün Sovet İttifaqının tanınmış şərqşünasları bu işə cəlb edilir. Bu, ona görə lazım idi ki, N.Gəncəvi Azərbaycanda türk şairi kimi göstərilsə də, akademik çevrələrdə, xüsusilə Leninqrad şərqşünaslıq məktəbi tərəfindən hələ də fars şairi kimi qəbul edilirdi.

İlk dəstək Leninqrad şərqşünaslıq məktəbinin nüfuzlu nümayəndəsi, görkəmli şərqşünas və iranşünas Yevgeni Bertelsdən (Bertels Yevgeni Eduardoviç; şərqşünas, SSRİ EA-nın müxbir üzvü (1939), Özbəkistanın (1944) və Tacikistanın (1946) Əməkdar elm xadimi, İran EA-nın müxbir üzvü (1944) və Ərəbistan EA-nın (Dəməşq) müxbir üzvü (1955), SSRİ Dövlət mükafatı laureatı (Nizami yaradıcılığı ilə bağlı tədqiqatlarına görə, 1948) gəldi. Onun 1939-cu ildə mərkəzi qəzetlərdə məqalə kimi, 1940-cı ildə Bakıda "AzFan" nəşriyyatında isə "Dahi Azərbaycan şairi Nizami" əsəri kitab halında çap olundu. Ukraynalı şair Mikolo Bajan (***Mikolo Bajan;*** *1951-ci ildə Ukrayna SSR Elmlər Akademiyasının müxbir üzvü, 1946-1949-cu illərdə SSRİ Dövlət mükafatı laureatı, 1974-cü ildə Sosalist Əməyi Qəhrəmanı adını alıb)* da Nizamini Azərbaycan şairi elan edərək, onu fars qılafından çıxardı.

Bütün bunlardan sonra M.C.Bağırovun təşəbbüsü ilə Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edildi. Bu qərar çərçivəsində həm də bütün sovet ensiklopediyalarında Nizami Gəncəvinin Azərbaycan şairi olması haqqında məlumatların verilməsi nəzərdə tutulurdu.

Əlbəttə, siyasi əhəmiyyətli bu addımlar erməni millətçilərinin heç də xoşuna gəlmirdi. N.Gəncəvinin 800 illik yubileyi münasibətilə 1940-cı ildə erməni daşnaklarının

ədəbi nümayəndəsi Mariyetta Şaginyan "Nizami Gəncəvi" adlı əsər yazır. Əsər çapa getməzdən öncə Moskvanın "Dövlət Bədii Ədəbiyyatı" nəşriyyatının rəhbərliyi ehtiyat edərək, əlyazmanı M.C.Bağırova göndərir. M.C.Bağırov bu əlyazmanı araşdırmağı Tarix İnstitutunun direktoru İsmayıl Hüseynovdan *(Mirhəsən Seyidovun, Bağır Seyidzadənin yaxın dostu və həmyerlisi idi - A.M.)* xahiş edir. İsmayıl Hüseynov bir müddətdən sonra M.Şaginyanın əsərinin dedikcə təhlükəli olduğunu və təxribat xarakteri daşıdığını Bağırova məruzə edir. M.Şaginyan əsərində Nizaminin milli kimliyini bir kənara qoyaraq, sadəcə, onun dini görüşlərini önə çıxarır. O, Nizami Gəncəvi dövründə İranda şiəliyin aparıcı məzhəb olduğunu və onu İslam cəmiyyətinin təfəkkür tərzində separatçılığa meylli xətt kimi göstərir.

**Sual olunur:** nəyə görə Şaginyan birdən-birə şiəlik xəttini xüsusi vurğulamağa başlamışdı? Əslində, o, adının önündə Mir sözünü daşıyan Mircəfər Bağırova sataşırdı və sağı da, solu da çoxsaylı seyidlərlə əhatələnmiş Azərbaycan rəhbərliyini hədəf götürürdü. Əlbəttə ki, M. C.Bağırovun bu kitab barədə rəyi kəskin tənqid üzərində qurulmuşdu. Bağırovun təşəbbüsü ilə hazırlanan rəyin müəllifi Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov idi (***İsmayıl Hüseynov;*** *tarix elmləri doktoru adını alan ilk azərbaycanlı, 1941-1944 və 1958-1960-cı illərdə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, 1960-1966-cı illərdə isə AEA İctimai Elmlər Bölməsinin akademik-katibi, 1949-cu ildə AEA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü, Azərbaycan SSR Ali Sovetinin "Fəxri fərman"ı ilə təltif olunmuş və "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş görkəmli alim).*

Həmin rəydən qısa bir iqtibası oxuculara təqdim edirik:

"Şaginyan Nizami yaradıcılığında yaxşı nə varsa, hamısını xarici təsirlərin nəticəsi kimi izah edir. Şaginyanın İslamda şiəlik cərəyanına aid fikirləri də həqiqətə uyğun deyil. Nizami Gəncəvi dövründə və ondan əvvəl şiəlik İslamda separatizmi əks etdirə bilməz. Şiə məzhəbinin yaranmasına gəldikdə isə o, xəlifə Əlinin qətlə yetirilməsi ilə əlaqədar deyil, Məhəmmədin vəfatından sonra Əlinin hakimiyyətə gətirilməməsinin nəticəsi olaraq meydana gəlmişdir. Şaginyan çox nahaqdan şiəliyi iranlılara aid edir" (Moskvaya göndərilən bu rəydən sonra (Bağırovun həbsinə qədər) Şaginyanın kitabı işıq üzü görmür. Yalnız 1955-ci ildə M.Şaginyan sözügedən əlyazmasını "Nizami haqqında etüdlər" adı ilə Yerevanda 4000 tirajla çap etdirir. Bununla da M.Şaginyanın M.C.Bağırov tərəfindən qadağan edilmiş kitabı işıq üzü görür (Mircəfər Bağırovun Şaginyana bu münasibəti və onu Bakıdan qovması sonralar Azərbaycan rəhbərinə qarşı qurulmuş məhkəmədə ona qarşı ittiham kimi səsləndirildi - A.M).

Ona görə də sonralar Cənubi Azərbaycan layihəsində birləşdirici amilə təriqət rəngi verməmək üçün, artıq yuxarıda dediyimiz kimi, Şah İsmayıl Səfəvi deyil, Şirvanşah İbrahim Dərbəndi təbliğ olunurdu. Tanınmış filoloq alim Heydər Hüseynov Mirzə Kazım bəyin tədqiqatlarına, onun Şirvan tarixi ilə bağlı araşdırmalarına müraciət edir.

Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyət, orta əsrlər Şərqinin ən böyük şairlərindən biri Nizami Gəncəvinin 800 illik yubileyinin 1941-ci ildə keçirilməsi planlaşdırılsa da, müharibənin başlanması ilə bu qəbildən olan yubileylər, o cümlədən də Nizaminin yubiley tədbirləri təxirə salındı. Lakin hətta ağır müharibə şəraitində belə Leninqrad Şərqşünaslıq məktəbi kiçik

tərkibdə olsa da, “Azərbaycan şairi Nizami Gəncəvi-800” devizi altında tədbir keçirə bildi (bu tədbir 19 oktyabr 1941-ci il tarixdə saat 14:00-16:50 intervalında baş tutmuşdu). Bu yubiley dar çərçivədə SSRİ-nin mədəni paytaxtı hesab edilən Leninqrad (hazırda Sankt-Peterburq adlanır) şəhərində Rusiya alim və ədəbiyyatşünaslarının iştirakı ilə blokadanın (Leninqrad 872 gün faşistlər tərəfindən blokadada qalmışdır) 42-ci günündə Ermitaj muzeyində keçirilmişdi. Nizami Gəncəvinin yubileyi müharibədən sonra - 1947-ci ildə böyük təmtəraqla qeyd olundu.

**Qeyd:** Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli lider Heydər Əliyev də Nizami irsinə daim xüsusi diqqət yetirmişdir.

Məhz H.Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir.

2011-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir. Prezidentin 23 dekabr 2011-ci il tarixli sərəncamına əsasən, Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixdə Gəncədə keçirilmiş xüsusi toplantıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) təsis edilmişdir.

Bakıda yerləşən bu mərkəz, dünyanın nüfuzlu ictimai

və siyasi xadimlərindən ibarət İdarə Heyətindən təşkil olunub. İdarə Heyəti 20 nəfər üzvdən ibarətdir. Mərkəzin Avropa qitəsinin 25 ölkəsindən 53, Amerika qitəsinin 2 ölkəsindən 6, Asiya qitəsinin 12 ölkəsindən 15, Afrika qitəsinin 4 ölkəsindən 5 üzvü vardır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın artan beynəlxalq nüfuzu nəticəsində, 2013-cü ildən başlayaraq Bakı şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) təşkilatçılığı ilə 9 dəfə Qlobal Bakı Forumu keçirilmişdir. Mərkəz Podgoricki Klubu (Bosniya), Marianna V.Vardinoyannis Vəqfi (Yunanıstan), Quqenhaym (ABŞ), Çin İnnovasiya və İnkişaf Strategiyası İnstitutu (ÇXR), Çin Xalq Xarici İşlər İnstitutu (ÇXR), Taihe İnstitutu (ÇXR), Amerika Xarici Siyasət üzrə Milli Komitə (ABŞ), Berqqruen İnstitutu, Robert F.Kennedy İnsan Hüquqları (ABŞ), Schvarzman Alimləri (ÇXR), İtalyan Beynəlxalq Təşkilatları Cəmiyyəti (İtaliya), Dünya Sənət və Elm Akademiyası (WAAS) kimi nüfuzlu beynəlxalq strukturlarla əməkdaşlıq edir.

Sonuncu Forumda Mərkəzin İdarə Heyətinin üzvlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbulu zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, dövlət başçımıza, Mərkəzin Çində, Polşada həmin ölkələrin prezidentlərinin dəstəyi ilə keçirilən beynəlxalq konfranslar, BMT Baş Assambleyası çərçivəsində ABŞ-da, Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə ofisi və Berlində Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlər, eyni zamanda da Yaponiyada Texnologiya Sammitində və Latviyada "Riqa konfransı-2022"də tərəfdaş kimi çıxış etdikləri barədə məlumat verdi.

Sevindirici hal budur ki, bütün bu Beynəlxalq əhəmiy-

yətli ictimai və siyasi təbliğat dahi Azərbaycan şairi Nizami Gəncəvinin türk kimliyini bildirən mahiyyətlə yanaşı aparılır. Azərbaycanın mədəni və tarixi irsinin dünya miqyasında təbliğində fərqlənən elm adamlarını mükafatlandırmaq üçün "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" təsis edilmişdir. İlk dəfə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin İngiltərə tərəfdən rəhbəri, Oksford və Nyu-York Universitetlərinin professoru Robert Hoyland təltif olunmuşdur.

Dəyərli alimimiz akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi, həmçinin Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu yaranmışdır.

Həmçinin, Nərgiz Paşayevanın təşəbbüsü ilə rus şərqşünas-alimi Yevgeni Bertelsin 1940-cı illərdə yazdığı "Dahi Azərbaycan şairi Nizami" kitabının Oksford Universitetinin alimləri tərəfindən ilk dəfə ingilis dilinə tərcümə edilərək nəşr olunması Nizami Gəncəvinin türk kimliyinin təsdiqi baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası Presidentinin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan edilmişdir. Həmin il Nizaminin 880 illiyi ilə bağlı bir sıra tədbirlər və konfranslar keçirilmişdir (Bəzi tədbirlər mövcud karantin qaydalarına uyğun olaraq onlayn şəklində keçirilmişdir).

Ədəbi ictimaiyyətdən gizli qalmış bu materialları və sənədləri göstərərək yenidən əsərimizin qəhrəmanına qayıtsaq, biləcəyik ki, yuxarıda qeyd etdiyim ictimai-siyasi mühitin təsiri nəticəsində 12 sentyabr 1951-ci il tarixində

Azərbaycan KP MK-nın Bürosunda valideynlərinin sosial mənşəyini və İranda qohumlarının olmasını gizlətdiyi bəhanəsi ilə şəxsi işinə yazılmaqla Əziz Əliyevə şiddətli töhmət verilir. O, 5 sentyabr 1951 - 10 oktyabr 1952-ci illər ərzində Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsində, 10 oktyabr 1952 - 23 mart 1954-cü illərdə Sabunçu rayonundakı Çaparidze adına 3 №-li Klinik Xəstəxananın baş həkiminin müavini vəzifəsində işləmişdir. Əziz Əliyevin o dövrlərini xatırlayan müəllimim Vaqif Şadlinski mənə danışırdı ki, Azərbaycanın faşizm üzərində qələbəsinin əldə edilməsinə çox böyük töhfələr vermiş Qara dəniz aviasiya briqadasının təyyarəçisi Məzahir Abbasov müharibədə aldığı yanığın fəsadlarından irəli gələn ağır dəri xəstəliyindən (yanıqdan sonra) əziyyət çəkirdi. Həmin dövrdə o, Caparidze adına 3 nömrəli Klinik Xəstəxanaya müraciət edir. Xəstəliyi bir çox müalicələrə cavab verməyəndən sonra o, 3 nömrəli Klinik Xəstəxananın baş həkiminin müavini işləyən Əziz Əliyevə müraciət edir. Əziz həkim özünün hazırladığı məlhəmlə onun xəstəliyinin müalicəsinin müsbət nəticə verməsinə müvəffəq olur. Məzahir Abbasov Əziz Əliyevin bu müalicəsini həyatının sonuna qədər ehtiramla xatırlayırdı. Ümumiyyətlə bütün həkimlərin Əziz Əliyevə böyük hörməti vardır və həmişə o, bizim üçün bir nümunə gostərici olmuşdur. Yadımdadır, Tibb Universitetində təhsil alanda dəyərli müəllimim Vaqif Şadlinski bizə Əziz Əliyevlə bağlı xüsusi mühazirə də deyərdi.

M.C.Bağırov vəzifəsindən kənarlaşdırıldıqdan sonra Azərbaycan KP MK-nın Bürosunun 22 fevral 1954-cü il tarixli qərarı ilə Əziz Əliyevə verilmiş şiddətli partiya töhməti ləğv edilmişdir.

Əziz Əliyev 1954-1956-cı illərdə yenə də Elmi-Tədqiqat

Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsində çalışır.

Sonralar M.C.Bağırovun məhkəməsində bəzi üzə duran qruplardan fərqli olaraq, zaman-zaman ondan sərt və haqsız münasibət görmüş nə Bağır Seyidzadə (Bağır Seyidzadə də eyni ittihamla - valideynlərinin sosial mənşəyini və İranda qohumlarının olmasını gizlətdiyi bəhanəsilə nazir vəzifəsindən çıxarılmışdır - A.M.), nə Əziz Əliyev, nə də Musa Əliyev ona qarşı heç bir ifadə verməmişlər, üzədurma kampaniyasının iştirakçıları olmamışlar.

Bu, əlbəttə, hər şeydən öncə onların hansı əxlaq və dəyər sahibi olduqlarının göstəricisi idi. Zaman keçəcək, artıq Azərbaycan SSR-də iqtisadi böhranın dərinləşməsi, yaşayış səviyyəsinin olduqca aşağı düşməsi nəticəsində (xüsusən bu, Xruşşov dönəminin ilk illərinə təsadüf edir - A.M.) əhali arasında böyük narazılıq və yeni Azərbaycan rəhbərliyinə qarşı inamsızlıq yaranacaqdı.

Üzə duranlar faktiki olaraq, cəmiyyət tərəfindən yaxşı qarşılanmırdı, sanki hamı bu qrupun kimin quyusuna su tökdüyünü artıq başa düşmüşdü. Məsələn, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (1954-cü il fevral ayının 12-də keçirilən Azərbaycan Kommunist Partiyasının qurultayının protokolları - A.M.) ikinci katibi Vitali Səmədov M.C.Bağırova qarşı hücuma keçərək onu aşağıdakı şəkildə ittiham edirdi:

*"Bağırov bizə tapşırırdı ki, orta məktəb dərsliklərində Mikoyanın adı çəkilməsin, Partiya İnstitutu Şaumyanın adı ilə çağırılmasın. O, Serqo Orconikidze barədə qərəz və kinayə ilə danışırdı".* Bu, həmin Serqodur ki, Dağlıq Qarabağın taleyi həll olunanda Qarabağın Ermənistana verilməsinə tərəf çıxıb, buna qarşı duran Nəriman Nərimanovu bir müddət sonra real siyasi hakimiyyətdən uzaqlaşdırmağa nail

olub. Kremlin divarları arasında səsi eşidilməyən, heç bir yüksək səlahiyyəti olmayan, koma vəziyyətindəki Leninə Stalindən şikayət məktubları yazan Serqo sonda onun ölümünə səbəb olub.

Yaxud, həmin qurultayda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Nəzər Heydərov M.C.Bağırovun əlinin çörəyini yemiş Məmməd İskəndərovla baş-başa verərək, erməni mənşəli Astvatsaturovu - "Orconikidzeneft"in keçmiş rəisini, Mravyanı - "Stalinneft" trestinin keçmiş rəisini, Ter-Minasovu - "Buzovnaneft"in keçmiş baş mühəndisini Azərbaycandan qovduğuna görə M.C. Bağırovu ittiham edirdilər.

Bu insanlar Mikoyana xoş gəlmək üçün sanki yarışa girmişdilər. Çünki Mikoyanın görən gözü, eşidən qulağı A.Sərkisov Dağlıq Qarabağ Muxtar Vilayətindən qurultayda nümayəndə kimi iştirak edirdi.

Öz çıxışında respublikanın azərbaycanlı siyasi rəhbərliyinə irad tutan bu adam qurultayda aparılan müzakirələri istiqamətləndirirdi. Misal üçün, A.Sərkisov deyirdi: "1952-ci ildə Bağırovun təklifi ilə Azərbaycan KP MK-nın Bürosu Marksizm-Leninizm İnstitutlarında tədrisin ermənicə aparılmasını ləğv edib, Bakıda, Kirovabadda (Gəncədə), Naxçıvanda, Stepanakertdə (Xankəndidə) tədrisin ancaq rus dilində aparılması qərara alınıb. Bunun nəticəsində biz Stepanakertdə universitetin erməni bölməsini bağlamalı olduq. Bağırov millətçi idi, həm də xüsusi tipə mənsub millətçi idi. O, digər millətlərin təkcə kadrlarını deyil, mədəniyyətini də bəyənmirdi. Bakıda erməni teatrının bağlanması dediklərimə parlaq sübutdur".

O, həmçinin M.C.Bağırovu daşnak mərkəzi olan Stepanakert Müəllimlər İnstitutunu bağlamaqda ittiham edirdi. Təsadüfi deyil ki, bu istiqamətləndirici çıxışdan sonra

qurultaydakı bütün çıxışlar Mikoyanın müdafiəsi üzərində qurulmağa başladı. Mərkəzi Komitənin elm və mədəniyyət şöbəsinin müdiri H.Həsənovun çıxışını oxuyanda, onun sağlam azərbaycanlı şüuruna sığmayan fikirlərinə görə xəcalət çəkməli olursan. Görün o, çıxışında nə deyirdi: *"Bağırov "Azərbaycan tarixi" dərsliyindən Mikoyanın, Orconikidzenin, 26 Bakı Komissarının adlarını çıxarmaq barədə göstəriş verməklə kifayətlənmirdi. Şəxsən öz əli ilə bu adların üstündən xətt çəkirdi. Yadımdadır, mənim iştirak etdiyim yığıncaqda Bağırov həmin dərsliyi hazırlamış müəlliflərin üstünə çığırdı ki, nə üçün onun göstərişlərinə əməl edilməyib, həmin adlar dərslikdən çıxarılmayıb?"*

Yəni, yuxarıdakı misalları çəkməkdə məqsədim odur ki, Mikoyan başda olmaqla erməni siyasi elitası M.C.Bağırovu həm Azərbaycanda, həm Cənubi Azərbaycanda apardığı milli siyasətinə və Dağıstanı Azərbaycana birləşdirmək istədiyinə görə bağışlamayacaqdılar.

Bu baxımdan, 1954-cü il fevral ayının 12-dən 16-dək davam edən qurultayda yuxarıda qeyd etdiyim çıxışların ana xətti Mikoyana yarınmaq, Bağırovun azərbaycanlılaşdırma siyasətinə görə ermənilərdən üzr istəmək tələbi üzərində qurulmuşdu. Ona görə də sonradan bu qrup, düşmüş nüfuzlarını bərpa etmək üçün onların milli ruha, milli dəyərlərə bağlı olduqlarını göstərməyə çalışır. Azərbaycan dili məsələsini gündəmə gətirirlər. Və yazışmaların Azərbaycan dilində aparılmasını Mərkəzi Komitənin qərarına salırlar. Bu barədə görkəmli alimimiz Musa Əliyevin xatirələri təqdirəlayiqdir. Musa Əliyev bu qrupu və onun rəhbərini "təsadüfi insanlar, siyasətdən başı çıxmayan dar düşüncəli, kinli və qisasçı" adlandırırdı. Bu insanlar o qədər səhv addımlar atırdılar ki, bunları islah etmək üçün çox uzun illər lazım gələcəkdi (Öz dəst-xətti ilə Musa

Əliyevin gündəliyi. Bakı, 2022-ci il (rus dilində, səh. 313).

* * *

Mir Cəfər Bağırova ölüm hökmü kəsildikdən sonra, onun oğlu Cen Bağırov öz müraciətində Mir Cəfərin şəhid atası olduğunu, partiya və dövlət qarşısında xidmətlərini nəzərə alıb, hökmün dəyişdirilməsini xahiş edir.

Sonra onun vəkili V.Qavrilov 26 aprel 1956-cı ildə (əlbəttə ki, Mir Cəfər Bağırovun özü yox - A.M.) SSRİ Ali Sovetinin sədrinə müraciət edir. Amma cavab müsbət olmur (Rusiya Dövlət İctimai-Siyasi Partiya Arxivi (RDİSA), f. 17, siy. 171, iş. 479, səh. 46-48):

**SSRİ Ali Soveti Rəyasət Heyətinin**
**QƏRARI**

Bağırov Mir Cəfər Abbasoviçin *(təvəllüdü 1896-cı il, Azərbaycan SSR, Quba şəhəri),* əfv ərizələri rədd edisin!

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrı – K.Voroşilov,
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi – H.N.Peqob
Moskva, Kreml.
çap. 53 nüsxə.
İş. № *ЛП*-2028.

Yenidən biz əsərimizin qəhrəmanına qayıtsaq, biləcəyik ki, SSRİ Ali Təhsil Nazirliyinın Ali Attestasiya Komissiyasının 14 may 1956-cı il tarixli qərarı ilə Əziz Əliyev səhiyyənin təşkili üzrə professor elmi dərəcəsini alır, uzunmüddətli və qüsursuz xidmətinə görə və həkimlik fəaliyyətinin 30 illiyi münasibətilə 30 noyabr 1957-ci il tarixində Azərbaycan SSR səhiyyə nazirliyinin Fəxri Fərmanı ilə təltif edilir.

1960-cı ildə isə Azərbaycan SSR-in "Əməkdar həkim"i

fəxri adına layiq görülür. 1956-cı ildən ömrünün sonuna qədər Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışır.

27 iyul 1962-cı ildə Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, diplomat, tibb elmləri doktoru, professor, Azərbaycanın Əməkdar həkimi, ölkəsinin və xalqının vətənpərvər övladı Əziz Əliyev əbədiyyətə qovuşur.

Azərbaycan SSR Nazirlər Sovetinin 27 sentyabr 1962-ci il tarixli qərarı ilə Həkimləri Təkmilləşdirmə İnstitutuna Əziz Əliyevin adı verilmişdir.

Bizim günlərdə Dağıstan paytaxtının küçələrindən birinə görkəmli dövlət xadimi Əziz Əliyevin adı verilmişdir. Yaşadığı evdə və adını daşıyan küçədə xatirə lövhələri asılmışdır. Azərbaycan dövlətinin köməyi ilə Mahaçqalada Əziz Əliyev küçəsinin girişində park salınmış, Dağıstanın və Azərbaycanın görkəmli dövlət xadiminin xatirəsinə minnətdar övladlarından ehtiram əlaməti olaraq onun yeni abidə kompleksi ucaldılmışdır.



Bəli, Əziz Əliyevin məsul dövlət vəzifələrindəki xidmətləri layiqincə qiymətləndirilmişdir. O, dəfələrlə müxtəlif orden və medallarla təltif edilmişdir. Lakin onun əsas mükafatı Dağıstan və Azərbaycan xalqlarının ona olan əziz xatirəsidir.

Azərbaycanın dahi oğlunun müqəddəs xatirəsi otaylı-butaylı azərbaycanlıların, eləcə də dağıstanlıların qəlbində əbədi yaşayacaqdır.

**Allah ona rəhmət eləsin!**

Əziz Əliyev gözəl övladlar, iki oğul və iki qız böyütmüşdür.

Qızı Zərifə Əliyeva görkəmli oftalmoloq alim, Azərbaycan Elmlər Akademiyasının akademiki. Z.Əliyeva Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin həyat yoldaşı, Azərbaycanın hazırkı prezidenti İlham Əliyevin anasıdır.

Bu gün də Əliyevlər ailəsi Azərbaycan və qardaş Dağıstan xalqları arasında dostluğun möhkəmləndirilməsinə böyük töhfələr verir. Dağıstanlılar hər zaman həm Əziz Əliyevi, həm də onun siyasətdə layiqli davamçısı olan Heydər Əliyevi minnətdarlıqla xatırlayır və onların Dağıstan xalqına olan sevgilərini yüksək qiymətləndirirlər.





Bu ailənin şanlı ənənələrinin davamçısı Əziz Əliyevin nəvəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.

Əziz Əliyev, Heydər Əliyev və İlham Əliyevin simalarında xalqlarımız arasında dostluq daima möhkəmlənibdir. Bu gün dövlət başçımıız İlham Əliyev həm atasının və həm də babasının işini uğurla davam etdirir, həmçinin indiki mərhələdə Rusiya-Azərbaycan münasibətlərinin, Azərbaycan-Dağıstan münasibətlərinin inkişafına mühüm töhfə verir. Dərbənddə, Mahaçqalada Heydər Əliyev küçəsi salınıb, Əziz Əliyevin adına küçə və park vardır.

Əziz Əliyev Bakıdakı Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur və hər dəfə Dağıstan nümayəndə heyəti Azərbaycana səfər edərkən, Dağıstan xalqının taleyində əvəzsiz rol oynamış bu böyük insanın qəbrini ziyarət edirlər.

26 sentyabr 1996-cı il tarixində "Əziz Əliyevin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır.

27 sentyabr 1997-ci il tarixində Əziz Əliyevin 100 illik yubileyi Dağıstan Respublikasının paytaxtı Mahaçqala şəhərində, 14 may 1998-ci il tarixində isə Bakı şəhərində təntənə ilə qeyd olunmuşdur. Dağıstanın Kaspiysk şəhərində yerli Tibb məktəbinə Əziz Əliyevin adının verilməsi münasibətilə xatirə lövhəsinin açılışı olmuşdur.

05 dekabr 2006-cı il tarixində "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır.

08 iyun 2007-ci il tarixində onun anadan olmasının 110 illiyi münasibətilə Dağıstan Respublikasının Mahaçqala şəhərində beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

2007-ci ilin dekabrında Əziz Əliyevin anadan olmasının 110 illik yubileyi Bakı şəhərində dövlət səviyyəsində qeyd edilmişdir.

25 dekabr 2013-cü il tarixində Xaçmaz şəhərində "Əziz Əliyev Muzeyi"nin açılışı olmuşdur.

11 may 2016-cı il tarixində isə Əziz Əliyevin Dağıstan Respublikasının Mahaçqala şəhərində abidəsinin açılışı olmuşdur.

18 noyabr 2016-cı il tarixində "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır.

23 dekabr 2016-cı il tarixində anadan olmasının 120 illiyi münasibətilə Dağıstan Respublikasının Mahaçqala şəhərində elmi konfrans keçirilmişdir.

10 noyabr 2017-ci il tarixində isə Gəncə şəhərində Əziz Əliyev adına mədəniyyət və istirahət parkı açılmışdır...



**Əziz Əliyevin abidəsi. Gəncə**

**Əziz Əliyevin 4 övladı – 2 qızı, 2 oğlu olmuşdur.**



Böyük oğlu Tamerlan Əziz oğlu Əliyev (3 oktyabr 1921-ci il, Şahtaxtı, Naxçıvan - 7 aprel 1997, Bakı şəhəri) - tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı;



Böyük qızı Zərifə Əziz qızı Əliyeva (28 aprel 1923-cü il, Şahtaxtı, Naxçıvan - 15 aprel 1985-ci il, Moskva şəhəri) - görkəmli oftalmoloq, tibb elmləri doktoru (1976), professor (1979), akademik (1983), Azərbaycan SSR Əməkdar elm xadimi;



Kiçik qızı Gülarə Əziz qızı Əliyeva (17 noyabr 1933-cü il, Bakı şəhəri - 27 iyul 1991, Bakı şəhəri) - Azərbaycan musiqiçisi, məşhur pianoçu, sənətşünaslıq elmləri namizədi (1966), Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1977);



Kiçik oğlu Cəmil Əziz oğlu Əliyev (30 mart 1946, Bakı şəhəri) - tibb elmləri doktoru, professor, AMEA-nın akademiki (2001), Əməkdar elm xadimi (2000), Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin Baş direktoru.

# MÖVZU İLƏ BAĞLI BƏZI FOTOLAR



Əziz Əliyev



**Hacı Zeynallabdin Tağıyev**



Əziz Əliyev həyat yoldaşı Leyli xanım ilə



Əziz Əliyev övladları Tamerlan və Zərifə ilə





**Əziz Əliyev ailə üzvləri ilə**



**Əziz Əliyev, 1941-ci il, Təbriz**



**İ.Stalin İran şahı Məhəmməd Rza Pəhləvi ilə**



**Ön planda M.C.Bağırov**



**L.Beriya, K.Vorosilov, M.C.Bağırov**



*DMSSR Xalq Komissarları Sovetinin sədr müavini S.M.Aydınbəyov,*
*DMSSR Xalq Komissarları Sovetinin sədri A.D.Danıyarov,*
*Ümumrusiya K(b) P DMSSR Vilayət Komitəsinin birinci katibi Ə.M.Əliyev,*
*DMSSR Ali Sovetin Rəyasət Heyətinin sədri A.Q.Taxtarov*



**Əziz Əliyev, həyat yoldaşı Leyli xanım, qızları Zərifə və Gülarə ilə**



**Əziz Əliyev, Tamerlan, Leyli xanım, Zərifə xanım**



Heydər Hüseynov



Mirhəsən Seyidov



Bağır Seyidzadə



Musa Əliyev



**Əziz Cəmil oğlu Əliyev (nəvə Əziz Əliyev)**

Tibb elmlər doktoru, professor. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialının rektoru (14 dekabr 2015-ci ildən). Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzinin baş-boyun şişləri şöbəsində aparıcı elmi işçi və cərrah-onkoloq vəzifəsində çalışır.

# Müəllif haqqında məlumat

Adıgözəl Nuru oğlu Məmmədov Qərb-Kaspi universitetinin müəllimi olaraq, Beynəlxalq münasibətlərdə mental portretologiya fənnini tədris edir.

O, həmçinin Psixoloji Portretologiya və Siyasi Analizlər Mərkəzinin rəhbəri olmaqla, adı respublikanın elmi və ədəbi ictimaiyyətinə yaxşı tanışdır.

A.Məmmədovun iyirmi dörd ildən artıq müddətdə 17 kitabı işıq üzü görmüşdür. Uzaq və yaxın tariximizdə silinməz izlər buraxmış hadisələrin baş verməsində şəxsiyyətin rolu, konkret liderin portretinin ictimai-siyasi və sosial-psixoloji aspektdən analizi və qiymətləndirilməsi kimi yeni olan bu sahədə çox dəyərli, faydalı araşdırmalara imzasını atmışdır.

Adıgözəl Məmmədovun yaradıcılığı təkcə ölkə daxilində deyil, həmçinin onun hüdudlarından kənarda da bu sahənin mütəxəssislərinə yaxşı bəllidir.

Ana dilindən başqa rus və ingilis dillərində sərbəst danışan və yazan müəllif beynəlxalq münasibətlərdə mental və psixoloji faktorlar, Qarabağın tarixi, Qafqaz xalqlarının etnogenezisi, Zaqafqaziya regionunda dəyişmiş çağdaş siyasi reallıq, Azərbaycanın bu məkanda gündən-günə artan nüfuzu, eləcə də milli təhlükəsizlik mövzularında bir sıra elmi araşdırmaların, Azərbaycan, rus və ingilis dillərində beş yüzdən çox analitik məqalənin, şərh və müsahibələrin müəllifidir.

Onun tədqiqatları əsasında 4 sənədli film çəkilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, müəllifin kitabları 2017-ci ildə Amerikada 101 İndependence Avenue, S.E. Washington, D.C. 205404830 ünvanında yerləşən Konqres Kitabxanasına və dünyanın aparıcı universitetlərinin kataloqlarına daxil edilmişdir.

# MÜNDƏRİCAT

**Giriş ........................................................................................4**
"Türkmənçay" müqaviləsinə aparan yol ........................16
Coğrafiya və xalqların taleyi ............................................36
Cənubi Azərbaycan - Dağıstan: Təbriz-Mahaçqala .......54
Azərbaycan, Bakı..............................................................131
**Mövzu ilə bağlı bəzi fotolar............................................171**
Müəllif haqqında məlumat.............................................182

**Adıgözəl Məmmədov**

# *"BÖYÜK AZƏRBAYCAN NAMİNƏ" ƏZİZ ƏLİYEV*

İMZA
NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Sadıqova Nigar**

Çapa imzalanmışdır: 18.11.2024
Ofset çapı. Əla növ kağız
Tiraj: 1000
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru